RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 102 (8418) BAZAR ERTƏSİ, 1 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir



**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.**

**AZƏRTAC xəbər verir ki, dövlət başçısı abidənin önünə gül dəstəsi qoydu.**

## Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir

**Mayın 24-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**



Türkiyə Prezidenti dövlət başçısını və xalqımızı Ramazan bayramı münasibətilə təbrik edib, firavanlıq arzularını çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib, öz növbəsində bayram münasibətilə Türkiyə Prezidentinə və Türkiyə xalqına təbriklərini və ən xoş arzularını ifadə edib.

Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb, qardaş ölkələrimiz və xalqlarımızın həmişə olduğu kimi, bu ağır dövrdə də bir-birinin yanında olduqlarını vurğulayıblar. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

***Prezidentin Mətbuat Xidməti***

## Vladimir Zelenski Ukraynaya göstərdiyi humanitar yardıma görə Azərbaycana minnətdarlığını bildirib

**Mayın 27-də Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**



Ukrayna Prezidenti koronavirusla mübarizə ilə bağlı Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardıma görə minnətdarlığını bildirib, bunu bu ağır dövrdə dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirib.

Prezident İlham Əliyev bu yardımın ölkələrimiz və xalqlarımız arasında münasibətlərin ruhunu əks etdirdiyini bildirib.

Telefon söhbəti zamanı Azərbaycan investisiyası hesabına Ukraynada həyata keçirilən layihələrin icrası ilə bağlı məsələlər də müzakirə olunub. Prezident İlham Əliyev və Prezident Vladimir Zelenski postpandemiya dövründə də siyasi, iqtisadi-ticarət, nəqliyyat sahələrində əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğulayıblar.

Ukrayna Prezidenti Ramazan ayının başa çatması və Respublika Günü münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edib. Dövlət başçısı təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı bir sıra ikitərəfli və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şamaxı rayonuna səfər ediblər



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, Şamaxı rayonuna ayrılmış nəqliyyat vasitələri və texnikalarla, Şamaxıda yeni tikilən çoxmənzilli binalarda yaradılan şəraitlə, Pirsaat Baba ziyartgahının yenidən qurulması ilə bağlı görülən işlərlə, eləcə də Pir Ömər Sultan ziyarətgahında bərpa-konservasiya işləri ilə tanış olmuş və Meysəri kəndində körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişlər.

*Bax: səh. 2*

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik edib.**



AZƏRTAC-ın məlumatına görə, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir:

"Bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını müqəddəs Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Uca Tanrı etdiyiniz duaları, tutduğunuz orucu qəbul etsin, bütün insanlara sağlamlıq və səadət, dünyamıza əmin-amanlıq və xoş günlər bəxş etsin!"

## İlham Əliyev məcburi köçkünlərin problemlərini ardıcıl şəkildə həll edir

**Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin mayın 28-də açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və "Paşa Holding" şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev dövlət başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təməli ötən ilin iyulunda qoyulan kompleksdə yaradılan şərait barədə məlumat verdilər.

Bildirildi ki, sifarişçisi "Paşa Holding", podratçısı isə "Kristal Abşeron" MTK olan yeni qəsəbə Lökbatanda istifadəyə verilən "Qobu Park-1" və "Qobu Park-2" yaşayış komplekslərinin yanında inşa edilib. Bütün bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib.

Qeyd edildi ki, məcburi köçkünlər üçün salınan bu yaşayış komplekslərinin yeri əvvəllər baxımsız sahə olub. Burada yaşamaq üçün heç bir sosial infrastruktur mövcud olmayıb. 2018-ci ildə bu ərazidə "Qobu Park-1", ötən il isə "Qobu Park-2" yaşayış kompleksləri istifadəyə verilib. Birinci yaşayış kompleksində 1026 ailəlik doqquzmərtəbəli 11 yaşayış binası, ikinci yaşayış kompleksində isə 1300 ailəlik onmərtəbəli 13 bina inşa olunub. Bu komplekslərin ərazisində məktəblər, uşaq bağçaları, poliklinika, tibb, poçt məntəqələri, idman zalları və digər zəruri sosial infrastruktur obyektləri yaradılıb. "Qobu Park-3" yaşayış kompleksində onmərtəbəli 13 yaşayış binası inşa olunub. Dövlət başçısına və birinci xanıma ərazidə özəl şirkətlər tərəfindən inşa olunan yaşayış kompleksi barədə də məlumat verildi. Bildirildi ki, burada 2 bina inşa olunur və bu binalarda 100-ə yaxın mənzil olacaq.



Kompleksin ərazisində 280 yerlik uşaq bağçası inşa olunub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, bağçada balacalara bilik öyrətməklə yanaşı, onların istedadlarını üzə çıxarmaq, potensiallarını aşkarlamaq üçün hərtərəfli imkan var.

Qeyd edək ki, gələcəyimiz olan körpələrin sağlam və bilikli böyüməsi üçün son illərdə dövlət səviyyəsində və Heydər Əliyev Fondu tərəfindən olduqca əhəmiyyətli layihələr icra olunur.

*Ardı 3-cü səh.*

## Mehriban ƏLİYEVA: "Uca Tanrı doğma Azərbaycanımızı qorusun!"

**Birinci vitse-prezident Mehriban Əliyeva Respublika Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir:

"Bütün Azərbaycan xalqını 28 May - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına möhkəm cansağlığı, sevinc, sevgi və səadət arzulayıram! Qoy müstəqilliyimiz əbədi olsun! Uca Tanrı doğma Azərbaycanımızı qorusun!"

# Ulu Öndərin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna səfərə gəliblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

# Dini ziyarətgahlarımıza dərin ehtiram

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı şəhərində Pirsaat Baba ziyarətgahının yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olublar.**





AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və birinci xanıma tikinti-bərpa və yenidənqurma tədbirləri barədə məlumat verdi. Bildirdi ki, zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirsaat Babanın məzarını ziyarət etdilər.

Pirsaat Baba ziyarətgahı bütün ölkə əhalisinin ziyarət etdiyi müqəddəs ocaqlardan biridir və hər gün buraya yüzlərlə zəvvar gəlir. Ziyarətçilərin rahatlığını təmin etmək məqsədilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə burada geniş yenidənqurma işlərinə başlanıb.

Qeyd edək ki, təxminən IX-XV əsrlər arasında tikilmiş türbə 1918-ci ildə Hacı Cəfərqulu tərəfindən yenidən ucaldılıb. Heydər Əliyev Fondu tərəfindən 2020-ci ildən başlanmış yenidənqurma işləri həm tarixi abidə, həm də müqəddəs ziyarətgah olan Pirsaat pirinin tamamilə yeni görkəmdə əhalinin ixtiyarına verilməsinə imkan yaradacaq.

Dini ziyarətgahlarımız da xalqımızın qürur doğuran keçmişinə, milli-mənəvi dəyərlərinə maksimum həssas münasibətinin əyani nümunələrindəndir. Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyevin prinsipial və həsəd doğuran vətəndaşlıq mövqeyi, iradəsi, qətiyyəti, milli-mənəvi dəyərlərə dərindən bağlılığı nəticəsində ölkəmizdəki ziyarətgahlara yeni həyat verildi. Təsadüfi deyil ki, Ulu Öndərin müəyyənləşdirdiyi mükəmməl siyasi kursun layiqincə davam etdirilməsinə və daha da zənginləşdirilməsinə Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində indi ziyarətgahların və dini məbədlərin yenidən qurulmasının miqyasına görə heç bir ölkə Azərbaycanla müqayisə edilə bilməz. Bu baxımdan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da səylərini əsirgəmir, istər ölkəmizdə, istərsə də xaricdə silsilə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girəcəyində, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında, Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahıdır.

# Prezidentin göstərişi ilə Şamaxı rayonuna çoxlu sayda nəqliyyat vasitələri və xüsusi texnikalar ayrılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna ayrılan nəqliyyat vasitələri və xüsusi texnikalara baxdılar.**







AZƏRTAC xəbər verir ki, bir sıra sahələrdə, o cümlədən şəhər təsərrüfatı, kommunal, səyyar tibbi və digər sahələrdə xidmətin keyfiyyətini yaxşılaşdırmaq üçün Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq Şamaxı rayonuna çoxlu sayda nəqliyyat vasitələri və xüsusi texnikalar ayrılıb.

Şamaxıya səfəri zamanı həmin nəqliyyat vasitələri və texnikalar dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya təqdim olundu. Bildirildi ki, texnika və nəqliyyat vasitələri seçilərkən rayonun turizm potensialı, seysmik ərazidə yerləşməsi və landşaftı nəzərə alınıb. Rayonda sərnişindaşımanın lazımi səviyyədə təşkili üçün 10 avtobus ayrılıb. Rayonun kommunal təsərrüfatında bundan sonra məişət tullantıları daşıyan, küçə süpürən və yuyan, qartəmizləyən və digər müasir texniki vasitələrdən istifadə ediləcək. Şamaxının səhiyyə potensialına 3 təcili tibbi yardım avtomobili və 1 reanimasiya maşını əlavə olunacaq. Bundan başqa, rayonun bərpa-quruculuq və abadlıq işlərində istifadə etmək üçün çoxlu sayda ağır və yüngül tonnajlı yük maşını, ağır tonnajlı buldozer, çoxfunksiyalı ekskavator və digər texniki vasitələr ayrılıb. Bu təşəbbüs dövlət başçısının regionların daha da müasirləşməsi, şəhər, qəsəbə və kəndlərdə rahat həyat şəraitinin yaradılması üçün apardığı sosial-iqtisadi siyasətin daha bir əyani göstəricisidir.

Ölkənin başqa şəhərlərinin də belə texnika və nəqliyyat vasitələri ilə təchizatını təşkil etmək üçün təkliflər hazırlanması barədə tapşırıq verən **Prezident İlham ƏLİYEV** dedi:

- Avtobuslar gərək bu gündən xətlərə çıxsın. Ondan sonra təcili tibbi yardım maşınları. Şamaxı rayonunun təchizatı ilə bağlı görülən işlər indiki mərhələdə kifayətdir. Həm Prezidentin Ehtiyat Fondundan, həm də dövlət büdcəsindən vəsait ayrıldı. Gərək biz prinsipcə bütün şəhərlərimizdə texnika ilə təchizatı yüksək səviyyəyə qaldıraq. Bu baxımdan Şamaxı birinci şəhərdir. Mən demişəm, digər şəhərlərdə, bir çox yerlərdə şəhər nəqliyyatı bərbad vəziyyətdədir. Kommunal texnikanın çatışmazlığı problemlər yaradır, təkliflər hazırlayın, bizim bütün şəhərlərimizdə müasir texnika təchizatı təmin edilməlidir - həm sərnişin nəqliyyatı, kommunal texnika, həm də təcili tibbi yardım maşınları. Bakı şəhərində bu, öz həllini tapıb. Baxmayaraq ki, Bakıda da hələ köhnədən qalan avtobuslar var, onlar da yavaş-yavaş yeniləri ilə əvəzlənir. Bir çox şəhərlərə təcili tibbi yardım maşınlarının göndərilməsi təmin edilmişdir. Ancaq vaxt keçir, onların da istismar müddəti başa çatır, sıradan çıxır, qəzaya uğrayır. İndi Şamaxı rayonunun timsalında biz prinsipcə görürük ki, əhalini nəzərə alaraq nə qədər texnika lazımdır. Ona görə, digər rayonlarda da nə qədər texnika lazımdır, biz bunları kompleks şəkildə, tədricən həll edək.

Prezidentin köməkçisi **Anar ƏLƏKBƏROV:**

- Oldu, cənab Prezident, aydındır.

**Prezident İlham ƏLİYEV:**

- Mən göstəriş vermişdim k, Şamaxı şəhərinin avtomobil yollarının da təmiri ilə bağlı tədbirlər görülsün. Kənd yollarının bir çoxu asfaltlanıb, hətta ucqar kəndlərə də asfalt yollar çəkilib. Amma şəhər yolları o qədər də yaxşı vəziyyətdə deyil. Ona görə də həm kənd yollarının çəkilişinin davam etdirilməsi, eyni zamanda, Şamaxı şəhərinin yol infrastrukturunun müasirləşməsi ilə əlaqədar əlavə tədbirlər görülməlidir. Dayanacaqlar da pis vəziyyətdədir. Ona görə bu yeni texnika bütün şəhər infrastrukturunun müasirləşməsinə xidmət göstərəcək. Əsas məsələ insanların sağlamlığı və təhlükəsizliyidir. Bu müasir təcili tibbi yardım maşınları hər yerdə lazımdır, özü də ən aparıcı şirkətlərin istehsalıdır. Əlbəttə ki, yeni avtobuslar həm rahatlıq gətirəcək, həm də təhlükəsizlik baxımından çox vacibdir.

**Anar ƏLƏKBƏROV:** Cənab Prezident, Sizə təşəkkür edirik.

# Heydər Əliyev Fondundan şamaxılı uşaqlara mühüm töhfə

**Heydər Əliyev Fondu tərəfindən Şamaxı şəhərində inşa edilən 2 nömrəli körpələr evi-uşaq bağçasının və rayonun Meysəri kəndində əsaslı təmir olunan körpələr evi-uşaq bağçasının mayın 25-də açılışları olub.**





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışlarda iştirak ediblər.

- Dövlət həyata keçirdiyi sosial-iqtisadi siyasətdə uşaqların təlim-tərbiyəsinin təşkili, onların sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən layihələrə Heydər Əliyev Fondu mühüm töhfələr verir. Fondun ölkəmizdəki məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq müəssisələrinin inşası sahəsindəki fəaliyyəti müstəsna əhəmiyyətə malikdir. Uşaqların təlim-tərbiyəsinin Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etdiyini "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bir daha təsdiqləyir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb və bu sahədə çox mühüm nəticələr əldə edilib. Şamaxı rayonunun ehtiyacları nəzərə alınaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu rayonda inşa olunan 2 uşaq bağçası fondun həyata keçirdiyi bu cür layihələrin ardıcıl xarakter aldığını bir daha aydın göstərir.

Şamaxıdakı 2 nömrəli körpələr evi-uşaq bağçası ilə tanışlıq zamanı dövlət başçısına və birinci xanıma məlumat verildi ki, 110 yerlik bu müəssisədə uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Bir sözlə, binada uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli şərait qurulub. Qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub. Uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar açılıb. Təhsil ocağındakı bütün otaqlar lazımi avadanlıqla təchiz edilib. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanacaq.

Bütövlükdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə gənc məcburi köçkün ailələri üçün 16 mənzilli 1 yaşayış binası, rayonun Məlikçobanlı, Birinci Çaylı, Quşçu, Avaxıl, Dədəgünəş və Meysəri kəndlərində, ümumilikdə, 1212 yerlik orta məktəb binaları, Şamaxı şəhəri, Şəhriyar qəsəbəsi, Quşçu kəndlərində, ümumilikdə, 290 yerlik körpələr evi-uşaq bağçaları, Həmyəli, Birinci Çaylı, Quşçu, Mərzəndiyə, Avaxıl, Məlhəm və Meysəri kəndlərində tibb məntəqələri inşa edilib, Qaleybuğurd və Saqiyan kəndlərində 320 yerlik orta məktəblər, 210 yerlik Şamaxı Texniki Humanitar və Təbiət Fənləri Təmayüllü Liseyi və rayon Mədəniyyət Mərkəzi əsaslı təmir olunub. Açılışı olan tədris-tərbiyə ocaqlarından biri də Şamaxının Meysəri kəndindəki körpələr evi-uşaq bağçasıdır. 1926-cı ildən fəaliyyətə başlamış Meysəri kənd 120 şagird yerlik tam orta məktəbinin köhnə binası istismar üçün yararsız olduğuna görə 2018-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə kəndin giriş hissəsində 132 şagird yerlik yeni məktəb inşa edildikdən sonra fond tərəfindən məktəbin köhnə binası körpələr evi-uşaq bağçasına uyğunlaşdırılmış layihə üzrə əsaslı təmir edilib. Körpələr evi-uşaq bağçasında 2019-cu ildə başlanılan təmir işləri 2020-ci ilin aprel ayında yekunlaşdırılıb.

Qırx yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları və digər zəruri otaqlar mövcuddur. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları, müasir işıqlandırma sistemləri quraşdırılıb. Kənd yerlərində belə bağçaların və digər sosial, mədəni, təhsil obyektlərinin istifadəyə verilməsi ölkəmizdə şəhərlə kənd arasında fərqin getdikcə aradan qaldırılması üçün atılan mühüm addımlardandır. Bu cür layihələr göstərir ki, Azərbaycanda həyata keçirilən sosial layihələrin miqyası və coğrafiyası getdikcə daha da genişlənir.

# Həyata keçirilən sosial islahatlar insanların yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət edir







**Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı şəhərində istismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tikilən 51 mənzilli binada oldular.**

AZƏRTAC xəbər verir ki, istismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident İlham Əliyevin sərəncamı ilə tikilmiş binada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, bu gün ölkədə həyata keçirilən sosial islahatların əsas təsiri özünü insanların yaşayış səviyyəsində göstərir. Dövlət daha çox aztəminatlı və xüsusi diqqət tələb edən təbəqənin sosial qayğılarının həllinə çalışır. Bu zaman dövlət məsələyə həm də kompleks yanaşır və bu yanaşma bütün əhali təbəqələrini əhatə edir. Bu sırada qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Artıq bu kateqoriyadan olan insanlar üçün ölkənin müxtəlif ərazilərində salınan yeni qəsəbələrdə və müasir yaşayış komplekslərində 300 mindən çox insan məskunlaşıb. Şəhid ailələrinin, müharibə veteranlarının mənzillərlə təmin olunması da dövlətin sosial siyasətinin prioritetləri sırasına daxildir. Dövlət həm də təbii fəlakətdən zərər görən vətəndaşların problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır. Baxmayaraq ki, təbii fəlakət hər bir ölkədə baş verir, amma başqa ölkələrdən fərqli olaraq Azərbaycanda təbii fəlakətin fəsadları vətəndaşın dövlətə etimadı, dövlətin isə vətəndaşın qayğısına qalmaq vəzifəsinin birliyi sayəsində həll olunur. Ötən ilin fevralında baş vermiş zəlzələ zamanı Şamaxıda xeyli sayda ev qəzalı vəziyyətə düşmüşdü. Dərhal hadisə yerinə gələn dövlət başçısı təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün təcili tədbirlər görülməsi ilə bağlı müvafiq tapşırıqlar verdi və sərəncamlar imzaladı. Bunun nəticəsi olaraq indiyədək çoxlu sayda yeni ev və çoxmərtəbəli bina tikilmiş və bərpa olunmuşdur.

Dövlət başçısı və birinci xanım daha sonra zəlzələdən zərər çəkənlər üçün inşa olunmuş 110 mənzilli binalardakı mənzillərə baxdılar. Ötən il baş vermiş zəlzələdən sonra rayonda bütövlükdə 205 ev tikilib, 1219 ev bərpa və 1125 ev təmir olunub. Ümumilikdə 174 mənzilli, o cümlədən 4 mərtəbəli 44 mənzilli, 5 mərtəbəli 20 mənzilli və 5 mərtəbəli 110 mənzilli binaların tikintisi başa çatdırılıb. 1560 şagird yerlik şəhər 2 saylı tam orta məktəbi üçün yeni korpusun inşası və digər korpusun əsaslı təmiri davam etdirilir.

Görülən bütün bu işlərə Heydər Əliyev Fondu çox mühüm töhfələr verir. İndiyədək fond tərəfindən 35 fərdi ev inşa edilib və 12 evdə bərpa işləri aparılıb, 290 yerlik 4 körpələr evi-uşaq bağçası, 360 şagird yerlik Məlikçobanlı kənd tam orta məktəbi üçün yeni binalar tikilib və 408 şagird yerlik Carhan kənd tam orta məktəbinin tikintisi davam etdirilir.

# Pir Ömər Sultan ziyarətgahının yerləşdiyi ərazinin arxeoparka çevrilməsi planlaşdırılır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında olublar.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada zəruri konservasiya və bərpa işləri aparılmaqla ərazinin arxeoparka çevrilməsi planlaşdırılır.

Məlumat verildi ki, Pir Ömər Sultan ziyarətgahının xəlvəti sufi məktəbinin banisi Əbu Siracəddin Ömər Avaxılıyə aid olduğunu müəyyən etmək məqsədilə tədqiqatlar aparılır. Arxeoloqlar hesab edirlər ki, bu ərazi Azərbaycanda və dünyada xəlvətiliklə bağlı ilk xanəgahdır. 133 kvadratmetr sahədə aparılan ilkin arxeoloji tədqiqatlar zamanı XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiqləyən artefaktlar aşkar olunub. Türbə qaya və çay daşlarından istifadə olunmaqla inşa edilib. Türbənin üstü tağvarı formada olan giriş qapısı cənub tərəfdəndir. Türbənin içərisində kənarları birqat bişmiş kərpiclə əhatələnən iki qəbir kamerası, şirəli və şirəsiz keramika nümunələri, müxtəlif tarixi dövrlərə aid pullar aşkar olunub. Ziyarətgahın ətrafında çoxlu sayda insan dəfn olunub. Onlardan türbənin şərq tərəfində tədqiq olunan iki qəbir üzərindəki kitabə Pir Ömər ziyarətgahının məhz xəlvətilik sufi təliminin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiqləyən çox mühüm tarixi mənbə kimi dəyərləndirilə bilər.

Tədqiqatların davamlı və səmərəli aparılması, ziyarətgahın təbii və antropogen təsirlərdən qorunması məqsədilə abidənin üstü yüngül konstruksiyalardan istifadə olunmaqla örtülüb.





# İlham Əliyev məcburi köçkünlərin problemlərini ardıcıl şəkildə həll edir



*Əvvəli 1-ci səh.*

Bütün bunlar göstərir ki, ölkədə həyata keçirilən strategiyanın əsas prioritetlərindən biri də uşaqların sağlam, firavan böyüməsi, gələcəklərinin tam təmin olunmasıdır. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və ardıcıl olduğunu nümayiş etdirir.

Dövlət başçısı və birinci xanım kompleksdə inşa olunan Füzuli rayon 4 saylı tam orta məktəbində yaradılan şəraitlə də tanış oldular.

Bildirildi ki, 960 yerlik məktəb binası zəruri tədris avadanlığı ilə təchiz edilib, şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli imkan yaradılıb.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni təhsil ocaqlarının inşası, mövcud məktəb binalarının müasir səviyyədə yenilənməsi baxımından çox mühüm layihələr icra olunub. Dövlət səviyyəsində bu istiqamətdə görülən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük töhfələr verib. Belə müasir məktəb binasının inşası bir daha göstərir ki, ölkədə təhsilin inkişafı istiqamətində atılan addımlardan doğma yurdlarından didərgin düşən soydaşlarımız da yüksək səviyyədə bəhrələnirlər.








Sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin layihəsi olan "Xarı bülbül" xalçaçılıq və naxış emalatxanası haqqında məlumat verildi.

Qeyd edildi ki, ilk dəfə həyata keçirilən bu layihənin məqsədi məcburi köçkünlərin məşğulluğunun artırılması, sosial rifah halının daha da yaxşılaşdırılmasıdır. Burada həm xalça toxumağın sirləri öyrədiləcək, həm də istehsal prosesi təmin ediləcək. Layihəyə il ərzində "Qobu Park-1", "Qobu Park-2" və "Qobu Park-3" yaşayış komplekslərində, həmçinin Qaradağ rayonu ərazisində yaşayan 70 məcburi köçkün cəlb ediləcək. Toxuculuğun sirlərinə daha dərindən yiyələnənlər emalatxanalarda müəllim kimi çalışacaq, digərləri isə evlərində dəzgahlarla təmin olunacaqlar. Onlar hədiyyəlik xalçalar toxuyacaqlar. Layihə çərçivəsində xalçaların satışı da təmin ediləcək. Emalatxanada Qarabağın maddi-mədəni irsinə aid zərgərlik nümunələrinin hazırlanması da planlaşdırılır. Məhsullar yerli bazarla yanaşı, məcburi köçkünlərin əl işləri kimi xarici bazara da çıxarılacaq. Burada uşaqlar üçün ustad dərslərinin, rəsm dərnəyinin və xarici dil kurslarının təşkili də nəzərdə tutulur.

"Qobu Park-3" yaşayış kompleksində inşa olunan mənzillərlə tanışlıq zamanı dövlət başçısına və birinci xanıma məlumat verildi ki, kompleksdəki mənzillərin ümumi sayı 1336-dır. Onların 156-sı bir, 580-i iki, 384-ü üç, 216-sı dördotaqlıdır. Bütün mənzillər mətbəx mebeli, soyuducu, fərdi kombi sistemi ilə təchiz edilib. Bu kompleksə, əsasən, Yasamal rayonundakı yataqxanalarda məskunlaşan məcburi köçkünlərin köçürülməsi nəzərdə tutulub.

Qeyd edək ki, "Qobu Park-3" yaşayış kompleksi qaçqın və məcburi köçkünlər üçün salınmış 111-ci qəsəbədir. Kompleksin ərazisində istehsalat sahələri, ticarət obyektləri və digər zəruri infrastruktur yaradılıb. Ərazidə sakinlərin asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət parkı salınıb, uşaq əyləncə meydançaları quraşdırılıb, geniş yaşıllıq və işıqlandırma işləri görülüb. Burada həm də 3 idman meydançası və 360 yerlik açıq avtomobil dayanacağı sakinlərin ixtiyarına veriləcək.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə reallaşdırılan iki biznes layihəsi barədə də məlumat verildi.

Qeyd olundu ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində reallaşdırılan layihələr məcburi köçkünlərin məşğulluğunun biznes-layihələr vasitəsilə təmin olunması məqsədi daşıyır. İlk dəfədir ki, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı ərazidə istehsal müəssisələri qurulub. Yumşaq, plastik oyuncaqlar və tekstil məhsullarının istehsal olunacağı müəssisədə 40-dan çox iş yerinin yaradılması nəzərdə tutulur. Müəssisədə gün ərzində 1000-ə yaxın yumşaq və 500-ə yaxın plastik oyuncaq istehsal ediləcək. Yumşaq oyuncaq təxminən 15-20, plastik oyuncaqlar isə 10 çeşiddə olacaq.

Sterilizə olunmuş tibbi ləvazimatların istehsalı müəssisəsində isə tibbi heyət üçün üst geyimləri və kombinezonlar istehsal ediləcək. Burada 25 nəfər işlə təmin olunacaq. Müəssisələrdə çalışacaq işçi heyətin 80 faizi "Qobu Park-3"ün sakinlərindən formalaşdırılacaq. Şirkətlər icarə xərclərindən azad olunub ki, bu da müvafiq layihələrin kompleksdə reallaşdırılmasını sahibkarlar üçün cəlbedici edir. Layihələr yalnız sosial əhəmiyyəti ilə seçilmir. Onlar, eyni zamanda, biznesyönümlüdür. Belə ki, hər iki müəssisədə istehsal olunacaq məhsullar rəqabətqabiliyyətlidir və idxalı əvəz edəcək.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşdülər.

Dövlət başçısı görüşdə çıxış etdi.

*Ardı 4-cü səh.*

# İlham Əliyev məcburi köçkünlərin problemlərini ardıcıl şəkildə həll edir

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 3-cü səh.*

- Bu gün biz Respublika Gününü qeyd edirik. Sizi və bütün Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edirəm. Bu bayram günündə məcburi köçkünlər üçün salınmış "Qobu-3" yaşayış kompleksinin açılışını qeyd edirik. Burada bütün şərait yaradılıb. İndi mən şəraitlə tanış oldum, ən yüksək səviyyədə işlər görülüb. "Qobu Park-3" bu qəsəbədə salınmış üçüncü böyük yaşayış kompleksidir. "Qobu Park-3" kompleksində 1336 məcburi köçkün ailəsi yerləşəcək. 960 şagirdlik məktəb, - özü də çox gözəl məktəbdir, - fəaliyyət göstərəcək və böyük uşaq bağçası artıq tikilib, istifadəyə hazırdır. Bütövlükdə Qobu qəsəbəsində 3 layihədə toplam 3700-ə yaxın məcburi köçkün ailəsi yerləşdiriləcəkdir.

"Qobu-1" və "Qobu-2" layihəsi artıq 2018-ci və 2019-cu illərdə istifadəyə verilib. Bildirməliyəm ki, bu şəhərciklərin tikintisinin təşəbbüskarı Mehriban xanım olub və 2017-ci ildə onun iştirakı ilə burada təməl daşı qoyulub. O vaxt bura boş ərazi idi, heç nə yox idi və demək olar ki, 3 il ərzində ardıcıllıqla burada gözəl bir şəhər yaradılıb. Çünki bu 3 şəhərcikdə toplam 20 minə yaxın insan yaşayacaq və bu, bir daha onu göstərir ki, əgər iradə varsa, əgər siyasət düzgün aparılırsa və əgər insanların ürəyində ən ülvi hisslər reallıqda öz əksini taparsa, istənilən təşəbbüs, istənilən gözəl ideya həyata keçər. Beləliklə, boş bir ərazidə böyük infrastruktur layihələri icra edildi. Çünki bütün bu binaların kommunikasiyaları, təchizatı ən yüksək səviyyədə təşkil edildi - su, qaz, elektrik enerjisi, daxili yollar, nəqliyyat məsələləri öz həllini tapdı. Burada, eyni zamanda, tibb məntəqəsi, ticarət yerləri, iş yerləri yaradılıb, - bu da nəzərə alınıb, - çünki burada yaşayacaq vətəndaşlar artıq burada işlə də təmin ediləcək. Xüsusilə qadınlar üçün burada xalçaçılıq emalatxanası fəaliyyət göstərəcək və digər istehsalyönümlü kiçik müəssisələr artıq fəaliyyətə hazırdır. Nəzərə alsaq ki, burada yaşayacaq insanlar uzun illər çox ağır vəziyyətdə yaşayıblar, - bugünkü təqdimatda onların indiki yaşayış yeri göstərilir, - əlbəttə ki, bu, ailələrə böyük sevinc bəxş edəcək.

Bu qəsəbənin xüsusiyyəti ondan ibarətdir ki, burada bütün işlər özəl sektor tərəfindən görülmüşdür. Bu da çox sevindirici haldır. Şadam ki, mənim bir neçə il bundan əvvəlki çağırışımdan sonra özəl sektor artıq bu önəmli sosial layihələrə də qoşuldu. O vaxt mən özəl sektoru bu işlərə dəvət etmişdim və şadam ki, mənim çağırışım cavabsız qalmayıb. Bütün tikinti işləri, bütün investisiyalar özəl sektor tərəfindən təmin edilibdir. Burada xüsusilə Paşa Holdinq şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bu şirkət çoxşaxəli fəaliyyətlə məşğuldur. Bu şirkətin bütün dövrlərdə sosialyönümlü layihələri təqdirəlayiqdir. Onu da bildirməliyəm ki, heç bir reklam etmədən, necə deyərlər, özünü tərifləmədən bu işləri ardıcıl şəkildə görür. Bu gün koronavirus şəraitində Paşa Holdinq şirkəti və digər özəl şirkətlər ehtiyacı olan insanların yanındadırlar. Bu böyük tikinti işləri bir daha onu göstərir ki, biznesin sosial məsuliyyəti artır. Şadam ki, bu təşəbbüsə digər özəl şirkətlər qoşuldu və bu yaxınlıqda digər şirkətlər tərəfindən iki bina tikilir. Ümid edirəm ki, bizim başqa şirkətlərimiz də bu işə qoşulacaqlar. Çünki Azərbaycanda bir çox böyük şirkətlər, holdinqlər var. Onlar Azərbaycanda pul qazanırlar, ölkəmizdə hökm sürən sabitlikdən, biznesə göstərilən dəstəkdən faydalanırlar. Əlbəttə ki, onların sosial məsuliyyəti də lazımi səviyyədə olmalıdır. Ona görə bu yaşayış komplekslərinin tikintisi rəmzi xarakter daşıyır. Birinci növbədə dövlət öz iradəsini ortaya qoyur. Bildiyiniz kimi, məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir. Digər tərəfdən, özəl sektor artıq sosial məsuliyyət göstərərək belə gözəl imkanlar yaradır. Nəzərə alsaq ki, ümumiyyətlə, Azərbaycanda 300 mindən çox məcburi köçkün bu günə qədər mənzillərlə, fərdi evlərlə təmin olunub və onlardan təqribən 20 mini bir şirkət tərəfindən görülmüş işlər nəticəsində evlərlə təmin edilib.

Məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapır. Bildiyiniz kimi, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim proqramımın tərkib hissəsi məhz bu məsələ idi. Söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və neinki 5 il, 4 il ərzində bir buna nail olduq. Çox böyük uğur idi. Çünki ölkəmizin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, eyni zamanda, uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayırdılar. Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıb. Son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürür. Son 4-5 il ərzində neftin qiymətinin bir neçə dəfə kəskin düşməsinin şahidi olmuşuq. Buna baxmayaraq, məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur. Keçən il məcburi köçkünlər üçün rekord sayda evlər-mənzillər tikildi - 5 minə yaxın. Bu il qarşıya hədəf qoyulub ki, 7 min, bəlkə də 8 min məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin edilsin. Əgər biz buna nail olsaq, bir il ərzində həm Bakı şəhərində, Sumqayıt şəhərində və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin İnvestisiya Proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq.

Eyni zamanda məcburi köçkünlərin sosial təminatı yaxşılaşır. Keçən il köçkünlərə verilən müavinətin həcmi 50 faiz artmışdır. Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Əlbəttə, indi dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyiblər. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu, bizim borcumuzdur, bunu biz edirik və edəcəyik.

Ancaq onu da bilməliyik və bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq. Ermənilər tərəfindən dağıdılmış və məhv edilmiş milli irsimiz sənədləşdirilib. Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. İşğal olunmuş torpaqlar azad ediləndən sonra bütün binalar yenidən qurulacaq, o cümlədən dağılmış tarixi abidələrin mövcudluğunu əks etdirən əməli memarlıq tədbirlərinin görülməsi də nəzərdə tutulur.

Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bunu deməyə əsas verən bir çox amillər var - bizim hərbi gücümüz və biz bunu göstərmişik. 2016-cı və 2018-ci illərdə uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpaq işğalçılardan azad edildi. Cocuq Mərcanlı kəndinin timsalında biz görürük ki, işğaldan azad olunacaq digər torpaqlarda hansı işlər görüləcək və hansı sürətlə görüləcəkdir. Biz Cocuq Mərcanlını uğurlu hərbi qələbədən sonra cəmi bir il ərzində yenidən qurduq və indi orada həyat qaynayır, köçkünlər öz doğma torpağına qayıdıblar. Bəzən belə fikirlər səsləndirilir ki, bəzi köçkünlər torpaqlar işğaldan azad olunandan sonra qayıtmaya bilərlər. Amma mən tam əminəm ki, bütün köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar, necə ki, Cəbrayıl köçkünləri. Onlar uzun illər başqa yerlərdə yaşayıblar, o cümlədən Bakı şəhərində. Ancaq imkan olan kimi onlar hətta növbəyə durmuşdular ki, tezliklə öz doğma torpağına qayıtsınlar. Eyni zamanda işğaldan azad olunan Şıxarx qəsəbəsi. İndi orada da böyük şəhərcik salınıb. O, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən Azərbaycanın tarixi məkanıdır, işğaldan azad olunan ərazidə böyük şəhərcik salınıb. Biz bu gün işğal altında olan bütün digər torpaqlarda da bərpa işləri görəcəyik. Azərbaycan öz suverenliyini təmin edəcəkdir.

Yenə də deyirəm, hərbi güc, bizim beynəlxalq mövqelərimiz, beynəlxalq təşkilatların münaqişə ilə bağlı sərgilədiyi mövqe. Xüsusilə son illər ərzində demək olar ki, bütün beynəlxalq təşkilatlar ölkəmizin ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir, dünyanın bütün aparıcı ölkələri, həmçinin. Bu yaxınlarda Dağlıq Qarabağda keçirilmiş qondarma "prezident seçkiləri" bunu bir daha göstərdi. O saxta prezidenti, dırnaqarası prezidenti heç kim tanımadı. Dünyanın aparıcı ölkələri açıq formada bəyanat verdilər. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya, ondan sonra Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bəyanat verdilər ki, bu seçkilər tanınmır, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Ona görə beynəlxalq hüquq, hərbi qüdrətimiz, eyni zamanda iqtisadi üstünlüyümüz, əlbəttə ki, torpaqlarımızın azad olunmasında əsas rol oynayacaqdır. Danışıqlar öz yerində, ancaq indi dünyada siz də yaxşı görürsünüz ki, güc amili ön plana çıxır, bəzi ölkələr, hətta böyük demokratik ənənələri olan ölkələr də bəzi hallarda beynəlxalq hüquqa məhəl qoymadan öz maraqlarını təmin edirlər. Nəyin hesabına? Gücün hesabına. Ona görə ordu quruculuğu mənim Prezident kimi fəaliyyətimdə həmişə ön plandadır. Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Əlbəttə ki, sadaladığım bütün bu müsbət amillər, eyni zamanda demoqrafik vəziyyət bizim üstünlüyümüzü bundan sonra da təmin edəcək. Dağlıq Qarabağ probleminin həlli tarixi məsələdir və biz bu məsələni birdəfəlik və tam həll etməliyik. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır. Bu gün müzakirə edilən və danışıqlar masasında olan məhz mərhələli həldir. Baxmayaraq ki, Ermənistanın rəhbərliyi öz rəsmi populist çıxışlarında bunu inkar etməyə çalışır, ancaq mahiyyət etibarilə danışıqlar çərçivəsində həmin bu mərhələli həll məsələsi müzakirə edilir. Burada da riyakarlıq edir, öz xalqını aldadır, vasitəçiləri aldatmaq istəyir. Mərhələli həldən başqa heç bir həll mümkün deyil, o da nə deməkdir? Birinci mərhələdə torpaqların bir hissəsi işğaldan azad olunur. Bundan başqa variant ola bilməz. Amma mənim dediyim söz odur ki, bu, ancaq mərhələli yanaşma ola bilər. Bizim məqsədimiz, əsas amalımız suverenliyimizi tam və birdəfəlik təmin etməkdir və biz bunu edəcəyik. Heç kimdə şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq, məsələnin həlli üçün vaxtı və geosiyasi vəziyyəti düzgün qiymətləndirməliyik. Mənim fikrim budur və bilirəm ki, Azərbaycan xalqı mənim mövqeyimi dəstəkləyir. Mən bunu dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Ancaq yenə də bu məsələ ilə məşğul olanda hər zaman mən keçmişə qayıdıram, tarixə qayıdıram və sual verirəm. Nə üçün torpaqlarımız işğal altına düşdü? Necə oldu ki, biz bu torpaqları qoruya bilmədik? Necə oldu ki, ermənilər xarici dəstəyin hesabına torpaqları işğal etdilər, insanları öz doğma torpaqlarından didərgin saldılar? Mən bu suallara cavabı bilirəm və Azərbaycan xalqı da bilir. Amma yenə də həmişə fikirləşirəm ki, əgər o vaxt Azərbaycanın başında Heydər Əliyev olsaydı, heç vaxt bir qarış torpaq da düşmən tərəfindən işğal edilə bilməzdi. Çünki onun dövründə Azərbaycan hakimiyyəti Dağlıq Qarabağda elə bir möhkəm iradəyə sahib idi ki, bir nəfər erməni də səsini çıxara bilmirdi. Düzdür, Moskvaya, Siyasi Büroya donoslar yazırdılar ki, guya onları orada incidirlər və yaxud da onlar diskriminasiyaya uğrayırlar. Hamısı yalan idi. Çünki iqtisadi göstəricilər var, onlar göstərir ki, Dağlıq Qarabağda yaşayan insanlar heç də Azərbaycanın o biri torpaqlarında, rayonlarda yaşayan insanlardan pis yaşamayıblar. Ancaq Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti imkan vermirdi ki, orada bir dənə də olsun hadisə baş versin. Ondan əvvəl - 1960-cı illərdə hadisələr baş verib. Ancaq Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayandan sonra və Bakıdan Moskvaya gedənə qədər orada heç bir hadisə olmayıb. Mən şəxsən atamla birlikdə Dağlıq Qarabağda olmuşam, Xankəndidə, Şuşada. Mən o ab-havanı görmüşəm, 1980-ci illərin əvvəllərində həm qış aylarında, - o məşhur fotolar, videolar var, - həm də yaz aylarında. Orada - həm Xankəndidə, həm də başqa yerlərdə heç bir problem yox idi.

Mənim gözümün qabağında ermənilər Heydər Əliyevin qarşısında fərəqət durmuşdular, onu salamlayırdılar. Orada Azərbaycan dilində poeziya günü keçirilmişdir. Erməni, Azərbaycan şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti, müdrikliyi imkan vermirdi ki, bir dənə də erməni baş qaldırsın. Şuşada olan zaman o qədim Azərbaycan şəhərinin tarixini görərkən biz bir daha gördük ki, bizim nə qədər böyük tarixi irsimiz var. Yadımdadır, Ulu Öndər ev-muzeyləri, Üzeyir Hacıbəylinin ev-muzeyi haqqında və digər göstərişlər vermişdi ki, Azərbaycan mədəniyyəti orada daim yaşasın. Ermənilər və burada yerli satqınlar Heydər Əliyev Moskvada işləyəndə donoslar, anonim məktublar yazırdılar. Aydın məsələdir ki, Heydər Əliyev amili qoymurdu ki, ermənilər baş qaldırsınlar. Buradakı satqınlar, xainlər, Azərbaycan millətinin düşmənləri donos yazırdılar. İndikilər də yazırlar. O vaxt Siyasi Büroya yazırdılar. Bunlar isə bizdən Qərb ölkələrinə donos yazırlar. İndiki milli satqınlar dediyim o cinayətkar ünsür dəstəsi o vaxtın donos yazanlarından fərqlənmirlər. Onlar da özlərinə başqa ölkədə himayədar axtarırdılar, bunlar da. Onların da, bunların da əsas məqsədi hakimiyyətdir, nəyin bahasına olursa-olsun. Bax, buna görə torpaqlar işğal altına düşüb. Baxın, Heydər Əliyev Siyasi Bürodan, Sovet İttifaqının Nazirlər Sovetindən yüksək vəzifələrdən gedəndən sonra iki həftə keçməmiş nə baş verdi? Bir erməni millətçisi məqalə ilə çıxış etdi ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir. Özü də harada? Fransa qəzetində. Artıq erməni diasporu bu işlərə qoşulmuşdu. Sovet İttifaqının başında dayanan adamlar da öz ermənipərəst mövqeyi ilə fərqlənmişlər. Biz bunu yaxşı bilirik və artıq hərəkət başladı. O vaxt Azərbaycan hakimiyyəti nə etdi? 1987-ci ilin noyabrı idi. Heydər Əliyev vəzifədən gedəndə sonra cəmi iki həftə keçmişdi. Buradakılar neylədilər? Heç nə. Veclərinə də almadılar. Onlar elə bil ki, bu torpağın övladları deyildilər. Biganə qaldılar, reaksiya vermədilər. Vəziyyəti nəzarət altında saxlaya bilmədilər və nəticə etibarilə, çox da keçmədi, təxribat törədildi. Bu tarixə bu nöqteyi-nəzərdən baxın. Cəmi 3-4 ay keçdi, 1988-ci ilin fevral ayında Sumqayıt təxribatı törədildi. Nə idi o təxribat. Erməni quldurları orada dəstə yaradıb bir neçə ermənini öldürüb bunu Azərbaycan xalqının ayağına yazdılar. Bu da tarixi faktlardır.

İstintaqı biz aparmamışıq. İstintaqı Moskvadan gələn istintaq qrupu aparırdı. Orada bilindi ki, bu dəstənin başında dayanan ermənidir. Onun təcavüz etdiyi şahidlər üzünə demişdilər, o kadrlar var. Onun qətlə yetirdiyi insanların qohumları, yaxınları demişdilər ki, bizi öldürən budur. Baxın, sonra nə olur? Bu adam həbs olunur, ona hökm verilir. Bir ildən sonra o cəza çəkmək üçün Ermənistana göndərilir. Ermənistanda nə edirlər? Onu buraxırlar. Yaxşı, bu adam erməniləri öldürüb, bu da təsdiq olunub, istintaq materialları var. Nə üçün siz onu buraxırsınız? Deməli, bu, bəri başdan qurulmuş təxribat idi. Bu təxribatı ermənilər törədiblər, sonra yıxıblar Azərbaycan xalqının üstünə. Bu da onlara fürsət verib ki, Dağlıq Qarabağ məsələsini qaldırsınlar. Bax, budur tarix. Azərbaycan hakimiyyəti nə edib? Heç nə. O vaxt Azərbaycanın başında duran adam bilmirdi ki, Moskvanın o çinovniklərinin dabanını necə yalasın. Budur milli rəzalət. Sovet İttifaqı dağılandan sonra bir neçə ay keçmədi, dərhal Xocalı soyqırımı törədildi. Azərbaycan hakimiyyəti öz vətəndaşlarını qoruya bilmədi. Xalqımıza qarşı qanlı cinayət, soyqırımı törədildi. Ondan bir neçə ay sonra - 1992-ci ilin may ayında Şuşa və Laçın işğal olundu. Kimdir günahkar? Azərbaycan Xalq Cəbhəsi. Bir nömrəli günahkar odur. Əlbəttə, ovaxtkı hakimiyyətin də günahı var. Çünki öz şəhərlərimizi qoruya bilmədi. Ancaq Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün xəyanət etmişdi. Şuşanın guya müdafiəsini təşkil edən adamlar satqınlıq edib, xəyanət edib, qaçıb gizlənmişdilər. Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Az kontingentlə oranı illərlə müdafiə etmək olar, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Belə də oldu. Sonra Laçını da satdılar. Hakimiyyətə gəldilər. Onların əsas məqsədi hakimiyyətə gəlmək və olan-qalan sərvətləri talamaq idi.

Azərbaycan Xalq Cəbhəsinin cinayətkar əməlləri bununla bitmir. Ondan sonra onların yarıtmaz fəaliyyəti nəticəsində Kəlbəcər işğal olundu. Müdafiəni düzgün qura bilməmişdilər. Kim quracaqdı müdafiəni? Kim məşğul idi müdafiə ilə? Hərbi işdən heç bir xəbəri olmayan savadsız və xəyanətkar adamlar. Kim idi dövlətin başında? Xalq arasında heç bir hörməti olmayan boşboğaz. Kim gətirdi saldı bizim xalqımızı bu bəlaya? Onlar. O vaxt Heydər Əliyev olsaydı, qoyardımı ki, belə vəziyyət yaransın? Ona görə biz bunu bilməliyik. Kəlbəcər əldən gedəndən sonra neylədilər? Vəziyyəti bərpa etmək əvəzinə başladılar öz ordumuza qarşı mübarizəyə. Burada torpaqlar əldən gedir, onlar isə Gəncəni bombalayırdılar. Kəlbəcər, Laçın, Şuşa rayonları işğal olunandan sonra Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yarandı. Onlar isə Gəncəni bombalayırlar. Kim edib onu? Azərbaycan Xalq Cəbhəsi. Bu gün elə orada-burada fırlananlar da bu işdə əli olan cinayətkarlardır. Xalq da buna dözmədi, bunları süpürdü birdəfəlik atdı. Məhz ondan sonra Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi və vəziyyət sabitləşdi.

Budur səbəbkarlar, budur tarixi həqiqətlər. Bu gün vəziyyəti düzəltmək, torpaqları işğaldan azad etmək üçün nə qədər böyük səylər göstərilir. Ancaq Aprel döyüşləri və uğurlu Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər.

Bu gün Respublika Günüdür. Əlbəttə ki, Azərbaycan Xalq Cümhuriyyəti qürur mənbəyimizdir. Hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk respublika məhz Azərbaycanda yarandı, Azərbaycan xalqı bunun təşəbbüskarı olub. Eyni zamanda biz bu gün də tarixdən ibrət götürməliyik. Nə üçün respublika iki ildən də az yaşadı? Nə üçün süqut etdi? Nə üçün müstəqilliyi qoruya bilmədi? Bu suallardır. Biz düzgün nəticə çıxarmaq üçün tarixi bilməliyik. Burada heç bir mifologiyadan söhbət gedə bilməz. Hansısa hadisələri şişirtməklə biz özümüzü aldatmamalıyıq. Nə üçün? Çünki o hadisələr təkrarlanmasın. Nə üçün? Çünki müstəqilliyimiz əbədi olsun. Azərbaycan Xalq Cümhuriyyəti rus imperiyasının dağılması nəticəsində yaranmışdır. Ancaq cəmi iki ilə yaxın yaşadı. Çox önəmli addımlar atılmışdır. Müstəqillik elan olundu, dövlət atributları təsis edildi. Milli Ordu, Bakı Dövlət Universiteti yaradıldı, mütərəqqi qanunlar qəbul edildi. Amma, eyni zamanda, biz bilməliyik ki, o müstəqillik şərti xarakter daşıyırdı. Bakıda söz sahibi xarici generallar idi və Azərbaycan Xalq Cümhuriyyəti öz addımlarını, hətta dövlət atributları ilə bağlı planlarını gərək onlarla razılaşdıraydı. Respublika Azərbaycan ərazisinə tam nəzarət etmirdi. Əlbəttə ki, biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı, bizim qədim şəhərimizi Ermənistana vermək idi. Bunu heç cür əsaslandırmaq və heç vaxt bağışlamaq olmaz. Ona görə biz bu həqiqətləri bilməliyik və gənc nəsil də bilməlidir. Biz tarixi olduğu kimi yazmalıyıq və bilməliyik. Həqiqəti bilməliyik ki, bu, təkrarlanmasın. Xalq Cümhuriyyəti cəmi iki ilə yaxın yaşadı, müstəqilliyi qoruya bilmədilər. Azərbaycanın başında duranların bir çoxu ölkəni tərk etdi, müstəqillik əldən getdi. Bilirsiniz, gözəl şüarlar demək olar. Amma bu şüarların arxasında gərək iradə, güc və əməl olsun.

Bizim 1920-ci ildə endirilən üçrəngli bayrağımızı 70 il sonra Heydər Əliyev Naxçıvanda yenidən qaldırdı. Gücün varsa, bayraq həmişə yüksəklərdə olacaq. O vaxt Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı rəsmi bayraq kimi qəbul edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, onlar da eyni addımı atsınlar. Etmədilər. Çünki qorxurdular. O vaxt hələ Sovet İttifaqı dağılmamışdı. Qorxurdular ki, Moskvadan bunları tənbeh edəcəklər. Ona görə bu tarixi gün həmişə həm qürur mənbəyimiz olmalıdır, həm də daim yadda saxlamalıyıq ki, biz müstəqilliyi əbədi, dönməz etməliyik. Bunu kim etməlidir? Biz - Azərbaycan xalqı, Azərbaycan hakimiyyəti. Ona görə ölkəmizin gücləndirilməsi, mövqelərimizin möhkəmləndirilməsi, ölkəmizdə aparılan islahatlar iqtisadi, sosial sahədə, milli dəyərlərlə bağlı olan tədbirlərimiz, gənclərin milli ruhda tərbiyə olunması bu məqsədi güdür ki, bundan sonra Azərbaycan heç vaxt müstəmləkə olmasın, həmişə qürurlu, həmişə möhkəm ayaqda dayanan, müstəqil dövlət olsun və xalqımız həmişə azad olsun.

Bir daha sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Bu gözəl bayram münasibətilə bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Zəngilan rayonundan məcburi köçkün **İbrahim TEYMUROV** dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli Birinci vitse-prezident Mehriban xanım.

İcazə verin, bu əziz gündə Sizi 28 May - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edim. Bəli, biz o vaxtlar yiyəsizlik ucbatından didərgin düşdük. Gəlib respublikamızın müxtəlif bölgələrində məskunlaşdıq. Allah rəhmət eləsin, o vaxt Ulu Öndər bizə kim harada məskunlaşmışdısa, yaxşı şərait yaratdı və biz mümkün qədər respublikanın ovaxtkı gücü səviyyəsində lazımi şəraitdə məskunlaşdıq. Düzdür, çətin zamanlar idi, yataqxanalar idi, çadırlar yaradılmışdı. O vaxtdan bəri mərhələ-mərhələ, davamlı olaraq bu çadır şəhərcikləri yeni-yeni şəhərlərin tikilməsi ilə ləğv olundu. Üzü bəri davamlı olaraq yenə də, möhtərəm Prezident, Sizin sayənizdə, Sizin quruculuğunuz nəticəsində davamlı surətdə neçə-neçə şəhərcik salındı. Bu, heç də sadə iş deyil. Bu gün biz buraya gələndə girib evlərə baxdıq. Müasir məktəb, hər bir şərait, infrastruktur çox gözəldir. Biz hamımız Sizə çox böyük alqış edirik, minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, Siz məcburi köçkünləri həmişə yadda saxlayırsınız, həmişə qayğımıza qalırsınız. Minnətdarıq Sizə. Möhtərəm Prezident, bayaq qeyd etdiniz, Allahın köməyi, Sizin iradəniz və başçılığınız ilə biz o bayrağı aparıb Şuşada və işğal olunmuş digər torpaqlarda Sizinlə birgə sancacağıq. Allah o günü bizə göstərsin. Sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun.

❖ ❖ ❖

Şuşa rayonundan məcburi köçkün **Könül İSMAYILOVA** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Mən də bu gözəl gündə çıxış etmək istəyirəm. Biz elə bir gündə qarşılaşmışıq ki, bu gün həm bu gözəl "Qobu Park" açılır, həm də Respublika Günü qeyd edilir. Hamımızı təbrik edirəm. Bu gözəl gündə demək istəyirəm ki, məcburi köçkünlərin üzərində Sizin daim qayğınız və diqqətiniz olubdur. Bu, bizim nəzərimizdən heç vaxt yayınmayıb. Biz həmişə Sizdən bu qayğını və diqqəti görmüşük. Mehriban xanım, Siz məcburi köçkünlərlə, xalqla tez-tez ünsiyyətdə olursunuz, onlarla söhbət edirsiniz. Səmimi söhbətlərinizə həmişə qulaq asmışam, diqqətlə izləmişəm. Siz onların dərdlərini həmişə dinləmisiniz və köməyinizin də bəhrəsini biz həmişə görmüşük. Ona görə biz Sizə xalqın Prezidenti, xalqın Mehriban xanımı deyirik. Biz Sizi bu gözəl gün münasibətilə ürəkdən alqışlayırıq. Bu gözəl həyat, övladlarımızın oxuyacağı bu gözəl məktəb, uşaq bağçası, poliklinika üçün Sizə təşəkkür edirik. Mən bir şuşalı məcburi köçkün kimi arzu edirəm və inanıram ki, - Sizin gördüyünüz işlərin, həyata keçirdiyiniz layihələrin şahidiyəm, - Şuşada da mənzillərimizin açarlarını Sizin əlinizdən alacağıq. Biz buna inanırıq və Sizə çox minnətdarıq. Bu gözəl gün münasibətilə Sizi ürəkdən təbrik edirik. Sizin yaxşılıqlarınız heç vaxt yadımızdan çıxmayacaq, heç vaxt unudulmayacaq. Gördüyünüz işlər davamlıdır, olub və həmişə də olacaq. Sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun, təşəkkür edirəm. Bir daha bayramınız mübarək olsun!

❖ ❖ ❖

Qeyd edək ki, dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi, pandemiyanın qlobal iqtisadiyyatın müxtəlif sahələrinə vurduğu ciddi zərbələrə baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sosial-iqtisadi inkişafa hesablanan layihələrin uğurlu icrası ardıcıllıqla davam etdirilir. Bunun nəticəsini hər bir vətəndaş, o cümlədən qaçqın və məcburi köçkünlər öz həyatlarında hiss edirlər. Ölkədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri də bu qəbildən olan soydaşlarımızın sosial problemlərinin həllidir. Bununla bağlı dövlət başçısı tərəfindən ümumilikdə 2004-2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanıb, Dövlət Proqramı təsdiqlənib.

Həyata keçirilən tədbirlər nəticəsində bu günədək 315 min məcburi köçkünün, yəni, 62 min 494 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da qaçqın və məcburi köçkünlərin sosial məsələlərinin həllinə olduqca həssaslıqla yanaşır, bu qəbildən olan soydaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, sosial rifahının daha da yüksəldilməsi məsələsinə xüsusi qayğı göstərir. Bu qayğı özünü yeni inşa olunan "Qobu Park-3" yaşayış kompleksində də aydın nümayiş etdirir.





## Gürcüstanın Prezidenti zati-aliləri xanım Salome Zurabişviliyə

Hörmətli xanım Prezident.

Dost Gürcüstanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən xoş arzularımı və səmimi təbriklərimi yetirirəm.

Azərbaycan-Gürcüstan mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Ölkələrimiz arasındakı yüksəksəviyyəli təmaslar, siyasi, iqtisadi və digər sahələrdə daim genişlənən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrimizin səciyyəvi cəhətlərindəndir. Əminəm ki, bu əməkdaşlıq xalqlarımızın rifahı naminə birgə səylərimizlə bundan sonra da uğurla davam edəcəkdir.

Bəşəriyyətin üzləşdiyi COVID-19 pandemiyasının yaratdığı bu çətin zamanda da Azərbaycan xalqının Gürcüstan xalqı ilə həmrəy olduğunu bildirmək istəyirəm.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Gürcüstan xalqına daim rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2020-ci il*

## İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

Əlahəzrət.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən xoş arzularımı və təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İordaniya xalqına daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2020-ci il*

## Xorvatiya Respublikasının Prezidenti zati-aliləri cənab Zoran Milanoviçə

Hörmətli cənab Prezident.

Xorvatiyanın milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu il diplomatik əlaqələrin qurulmasının 25 illiyini qeyd edən Azərbaycan Respublikası ilə Xorvatiya Respublikası arasındakı mövcud əməkdaşlığın bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, bütün sahələrdə uğurla davam edən strateji tərəfdaşlıq münasibətlərimiz birgə səylərimizlə bundan sonra daha da möhkəmlənəcəkdir.

Ölkələrimiz arasında enerji sahəsində gələcəkdə səmərəli əməkdaşlıq üçün yaxşı imkanlar və perspektivlər vardır.

Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığına Avropa İttifaqı Şurasının sədri qismində Xorvatiyanın verdiyi dəstəyi yüksək qiymətləndiririk.

Bəşəriyyətin COVID-19 pandemiyası ilə mübarizə apardığı bir zamanda Azərbaycan xalqının dost Xorvatiya xalqı ilə həmrəy olduğunu bildirmək istəyirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınıza daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Ölkələrimizin COVID-19-la mübarizəni davam etdirdiyi, vətəndaşlarımızın həyatı və rifahı üçün onun mənfi nəticələrinin məhdudlaşdırılmasına çalışdığımız bir dönəmdə milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq diləyirəm.

Bütün mövzularda, xüsusən də qlobal məsələlərdə dialoqumuzun güclənməsindən çox məmnunam. Pandemiya həqiqətən qarşımıza qoyduğumuz sağlamlıq, sosial, iqtisadi və təhlükəsizlik məsələlərinə ortaq cavab tapmaq üçün birlikdə işləməyin lazım olduğunu bizə xatırladır. Cənab Prezident, bu baxımdan Qoşulmama Hərəkatının sədri olaraq xalqın xeyrinə konkret və innovativ təşəbbüslərin inkişafına fəaliyyətinizlə verdiyiniz töhfələr təqdirəlayiqdir.

Münasibətlərimizin yaxınlığı istər iqtisadi, istərsə də mədəniyyət və təhsil sahələrində birlikdə həyata keçirdiyimiz layihələrin sayında və keyfiyyətində də özünü göstərir. Yüksək diqqət və qayğısına görə şəxsən Birinci vitse-prezidentə borclu olan Fransız-Azərbaycan Universitetinin (UFAZ) artan uğuru, əlbəttə, buna bariz nümunədir.

Cənab Prezident, icazə verin, Minsk qrupunun həmsədri Fransanın adından, Birləşmiş Millətlər Təşkilatının Baş katibinin "müharibə xəstəliyi" adlandırdığı işi sona çatdırmaq çağırışını davam edim. Bu baxımdan, Fransanın Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə, ədalətli və davamlı həlli üçün qətiyyət və qərəzsizliklə işləmək öhdəliyinə arxalana bilərsiniz.

Cənab Prezident, Sizə olan yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Emmanuel MAKRON,***
***Fransa Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Respublika Günü münasibətilə Sizi və dost Azərbaycan xalqını bütün İtaliya xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Çox gözəl xatırladığım son dövlət səfəriniz bizim ölkələrimizi birləşdirən dərin dostluq münasibətlərini bir daha təsdiq edərək məhsuldar və çoxtərəfli əməkdaşlığımıza yeni nəfəs vermək üçün bir fürsət oldu. Əlbəttə, bu əməkdaşlıq Sizin dövlət səfəriniz ərzində müzakirə edilən bir çox sahələr üzrə daha da genişlənərək ölkələrimiz üçün yeni nəticələr əldə olunmasına şərait yaradacaq.

Ürəkdən arzulayıram ki, Azərbaycan və Avropa İttifaqı arasında tezliklə yeni tərəfdaşlıq sazişi imzalansın, bu da bizim əlaqələrimizin möhkəmlənməsi üçün vacib bir amildir.

Eyni zamanda, səhiyyə sahəsində yaranmış fövqəladə vəziyyət zamanı Azərbaycanın İtaliyaya nümayiş etdirdiyi yaxınlığa və göstərdiyi dəstəyə görə də dərin minnətdarlığımı bildirmək istərdim. Bu, bizim xalqlarımız arasında mövcud olan əlaqələrin intensivliyini və dərinliyini sübut edir.

Səmimi dostluq hissi ilə Sizə, xanımınıza və bütün azərbaycanlılara xoşbəxtlik və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizi və Azərbaycan Respublikasının xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ortaq tarixi, mədəni və dini dəyərlərə malik olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası geniş əməkdaşlıq və investisiya imkanlarına malikdirlər. Ölkələrimizdə mövcud olan siyasi iradəyə əsaslanaraq, göstərilən birgə səylər və qarşılıqlı dəstək sayəsində xalqlarımızın rifahı və mənafeyi istiqamətində böyük addımlar atıla bilər.

Ümidvaram ki, bütün dünyada və ölkələrimizdə koronavirusa qalib gələrək ikitərəfli münasibətləri inkişaf etdirmək və razılaşmaları həyata keçirməklə beynəlxalq və regional miqyasda müxtəlif sahələrdə birgə əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik.

Fürsətdən istifadə edərək, Allah-Təaladan zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, dost və qardaş Azərbaycan Respublikasının xalqına isə səadət və xoş günlər arzulayıram.

*Hörmətlə,*

***Həsən RUHANİ,***
***İran İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün həmvətənlərinizə ən xoş arzularımı yetirirəm. Xüsusilə COVID-19 pandemiyasının tüğyan etdiyi bu çətin zamanda Ulu Tanrı bütün insanlara daha ədalətli və mehriban cəmiyyət qurmaq üçün ləyaqətli, təhlükəsiz və sağlam mühitdə yaşamağı nəsib etsin.

Uca Yaradandan zati-alinizə və bütün Azərbaycan xalqına bol-bol xeyirdua diləyirəm.

*Hörmətlə,*

***FRANSİSK,***
***Roma Papası***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə səmimi təbriklərimi, Sizin xoşbəxtliyiniz və ölkənizin rifahı üçün ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

*Hörmətlə,*

***Əlahəzrət NARUHİTO,***
***Yaponiya İmperatoru***

❖ ❖ ❖

Zati-aliləri.

Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Birləşmiş Millətlər Təşkilatının hər bir üzvü özünəməxsus mədəniyyətə və tarixə malikdir. Bu müxtəliflik bizim təşkilatımızı və dünyamızı zənginləşdirir. Ölkənizin müxtəlif beynəlxalq məsələlərlə bağlı Birləşmiş Millətlər Təşkilatının işində fəal iştirakı çox böyük əhəmiyyət daşıyır.

Bu il - BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri naminə Fəaliyyət Onilliyinin ilk ilində biz hamı üçün əlverişli qloballaşmaya nail olmaq məqsədilə öz kollektiv ambisiyamızı gücləndirməli və iqlim dəyişikliyi məsələsində qəti addımlar atmalıyıq.

Bütün bu səylərdə, bizim hər kəs üçün daha sülhməramlı, ədalətli və davamlı dünyamızda Azərbaycan Respublikasının töhfələrinə və dəstəyinə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Antonio QUTERREŞ,***
***BMT-nin Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Pakistan və Azərbaycan arasında ortaq inanc, irs və mədəni yaxınlıq kimi möhkəm təməllərə əsaslanan səmimi dostluq münasibətləri mövcuddur. Cəmmu və Kəşmir, həmçinin Dağlıq Qarabağ məsələlərində ölkələrimizin bir-birinə göstərdiyi qarşılıqlı dəstək yaxın strateji tərəfdaşlığımızın təzahürüdür. Mövcud mükəmməl qardaşlıq əlaqələrini daha da dərinləşdirmək və gücləndirmək üçün gələcək illərdə də zati-alinizlə əməkdaşlığı davam etdirməyi arzulayıram.

Yaranmış fürsətdən istifadə edərək zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına davamlı sülh, inkişaf və tərəqqi diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Arif ALVİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, Qardaşım İlham Heydər oğlu Əliyev.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Səudiyyə Ərəbistanı Krallığının xalqı və hökuməti adından, şəxsən öz adımdan zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına davamlı inkişaf və firavanlıq arzu edirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*

***Qardaşınız***
***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərimi çatdırıram.

Pandemiya ilə əlaqədar çətin vəziyyətin yarandığı bu günlərdə Sizə və xalqınıza rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***FİLİP,***
***Belçikalıların Kralı***

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına İsveçrə Federal Şurası və İsveçrə xalqı adından səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Sizə və ölkənizin vətəndaşlarına xoşbəxtlik, rifah və yeni-yeni uğurlar arzulayıram.

Ölkələrimiz arasında yaxşı, etibarlı əlaqələr bizə əsas qlobal çağırışları, xüsusilə beynəlxalq əməkdaşlıq və həmrəyliyin hər zamankından daha vacib olduğu bir vaxtda, hazırkı COVID-19 pandemiyası dövründə birgə həll etməyə imkan verir.

Mən bu il yanvarın 22-də Davosda ölkələrimiz arasında güclü dostluq əlaqələrini yeniləməyə imkan verən fikir mübadiləmizi məmnuniyyətlə xatırlayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Simonetta SOMMARUQA,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Hər bir azərbaycanlı üçün son dərəcə önəmli olan bu gündə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyinin dəstəklənməsi məsələsində Ukraynanın dəyişməz mövqeyini təsdiq etmək istərdim.

Bütün aktual məsələlər üzrə, ilk növbədə, dünya miqyasında koronavirus pandemiyasının aradan qaldırılması, eləcə də ikitərəfli əlaqələrin iqtisadi və humanitar ölçülərinin gücləndirilməsi məsələlərində Kiyev və Bakı arasında mövcud ənənəvi tərəfdaşlıq münasibətlərinə dəyər verirəm.

Əminəm ki, Ukrayna və Azərbaycan Respublikası arasındakı strateji tərəfdaşlıq gələcəkdə də qarşılıqlı hörmət və dəstək ruhunda inkişaf edəcəkdir.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və məsuliyyətli dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və rifah arzu edirəm.

*Hörmətlə,*

***Vladimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Milli bayramınız - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycanın ictimai həyatın bütün sahələrində əldə etdiyi uğurlu keyfiyyət dəyişikliklərinə görə ürəkdən şadam. Ölkənizin iqtisadi, sosial və digər sahələrdə nümayiş etdirdiyi sanballı nailiyyətlər beynəlxalq aləmdə etiraf edilib və dövlətinizin dünya arenasında mövqelərinin möhkəmlənməsinə şərait yaradıb.

Strateji tərəfdaşlıq, dostluq və müttəfiqlik ruhunda inkişaf edən Belarus-Azərbaycan münasibətlərinin əsasına çevrilmiş etimad və qarşılıqlı anlaşmanın yüksək səviyyədə olmasını qeyd etməkdən fərəh duyuram.

Əminəm ki, Belarus ilə Azərbaycan arasında uzunmüddətli səmərəli əlaqələrin möhkəmlənməsinə Sizin sanballı töhfəniz ölkələrimizin əhalisinin rifahı naminə ikitərəfli əməkdaşlıq potensialını reallaşdırmağa kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, həyat enerjisi, yeni uğurlar və nailiyyətlər, Azərbaycan xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi və ən gözəl arzularımı çatdırmaqdan çox məmnunam.

Bu kontekstdə mən Sizin müdrik rəhbərliyinizlə Azərbaycan dövlətinin sosial-iqtisadi və mədəni sahələrdə əldə etdiyi mühüm nailiyyətləri, o cümlədən ölkənin nüfuzunun beynəlxalq arenada yüksəlməsini xüsusilə qeyd etmək istərdim.

Son illər ərzində bizim yüksəksəviyyəli siyasi dialoqumuz nəticəsində xalqlarımız arasında çoxəsrlik tarixi dostluq telləri və sıx əlaqələr möhkəmlənir, strateji tərəfdaşlıq isə bütün istiqamətlər üzrə dərinləşməkdə davam edir.

Qarşılıqlı etimad və hörmət, çoxplanlı və praktik əməkdaşlıq ruhunda münasibətlər sözsüz ki, ölkələrimizin və xalqlarımızın ümumi rifahı yolunda bundan sonra da genişlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, ailə səadəti və rifah, məsuliyyətli dövləti fəaliyyətinizdə böyük uğurlar, dost Azərbaycan xalqına daimi sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin şəxsinizdə bütün qardaş Azərbaycan xalqına Türkmənistan xalqı və hökuməti adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmağı özümə şərəf bilirəm.

Böyük məmnuniyyətlə qeyd etmək istərdim ki, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanan, getdikcə daha dinamik və davamlı xarakter kəsb edən Türkmənistan-Azərbaycan münasibətləri böyük qarşılıqlı etimad, hüquq bərabərliyi və səmimiliyi ilə fərqlənir.

Mən bu ilin martında Sizin gözəl ölkənizdə bizim səmimi görüşümüzü xoş duyğularla xatırlayıram. Həmin görüş zamanı səmimi və etimada əsaslanan danışıqlarda hər iki tərəfin ölkələrimiz arasında çoxşaxəli qarşılıqlı əlaqələri möhkəmləndirməyə və genişləndirməyə hazır olduğu təsdiq edildi.

Qəti əminəm ki, qardaş xalqlarımız arasında siyasi, iqtisadi-ticari, mədəni-humanitar və başqa istiqamətlərdə yaranmış səmərəli əməkdaşlıq bizim birgə səylərimiz sayəsində bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Milli bayramınız - Respublika Gününün ildönümü münasibətilə Sizə və bütün dost Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmağa çox məmnunam.

Azərbaycan Respublikası ilə əməkdaşlıq Tacikistan Respublikasının xarici siyasət kursunda mühüm yer tutur.

Biz Tacikistanla Azərbaycan arasında dostluq və çoxplanlı əməkdaşlıq münasibətlərinin səviyyəsini yüksək qiymətləndiririk. Xalqlarımız arasında tarixən yaranmış səmimi əlaqələr bu münasibətlərin etibarlı əsasıdır.

Əminəm ki, biz birgə səylərimizlə həm ikitərəfli formatda, həm də beynəlxalq və regional təşkilatlar məkanında səmərəli qarşılıqlı fəaliyyətimizin bundan sonra da dinamik inkişafını təmin edə biləcəyik.

Əziz İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə bol uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi arzu edirəm.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycanın milli bayramı - Respublika Günü ilə əlaqədar ən səmimi təbriklərimi və ən gözəl arzularımı qəbul edin.

Əminəm ki, ölkəniz bundan sonra da səmərəli daxili siyasət apararaq və beynəlxalq arenada öz mövqeyini möhkəmləndirərək mühüm islahatlar və yeniliklər yolu ilə inamla addımlayacaq.

Fürsətdən istifadə edərək, Moldova ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin xalqlarımızın rifahı naminə dostluq, qarşılıqlı anlaşma və konstruktiv əməkdaşlıq ruhunda inkişafı istiqamətində bundan sonra da birgə fəaliyyətə hazır olduğumuzu təsdiqləmək istərdim.

Möhtərəm cənab Prezident, icazə verin, bu əlamətdar gündə Sizə və Sizin simanızda dost Azərbaycan xalqına sülh, tərəqqi və firavanlıq arzulayım.

*Hörmətlə,*

***İqor DODON,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə sülh və tərəqqi arzulayıram.

Latviya və Azərbaycan arasında bir çox mühüm sahələrdə gözəl əməkdaşlığın qurulmasını məmnunluqla qeyd edirəm. Ötən illər ərzində bizim dostluğumuz siyasi, iqtisadi, mədəni sahələrdə, eləcə də xalqlararası ünsiyyətdə səmərəli nəticələr verib.

Pandemiyanın yaratdığı hazırkı çağırışlar bizim gündəlik həyatımıza və işimizə təsir göstərib. Buna baxmayaraq, mən əminəm ki, ölkələrimiz arasındakı uğurlu əməkdaşlıq bizə bu böhrandan daha güclü şəkildə çıxmağa imkan verəcək.

Qəti əminliyimi bildirirəm ki, bizim qarşılıqlı anlaşma və etimad ruhunda gözəl əməkdaşlığımız xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da davam edəcəkdir.

Zati-aliləri, Sizə cansağlığı, Azərbaycan xalqına firavanlıq arzulayıram.

Xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Egils LEVİTS,***
***Latviya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi, tərəqqi və əmin-amanlıq arzularımı çatdırıram.

Mən bizim hamımızın COVID-19 pandemiyası ilə bağlı çağırışlarla üzləşdiyimiz bir vaxtda Azərbaycan xalqına dəstəyimi ifadə etmək istərdim. Pandemiya bir-birimizdən nə dərəcədə asılı olduğumuzu nümayiş etdirir və həll yollarının yalnız yaxın əməkdaşlıq vasitəsilə tapıla biləcəyini göstərir. Ümid edirəm ki, bizim ölkələrimiz ikitərəfli əsasda, habelə BMT kimi beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün birgə fəaliyyət göstərməkdə davam edəcəklər. Həmçinin icazənizlə vurğulayım ki, Estoniya Şərq Tərəfdaşlığının möhkəm tərəfdarıdır və tərəfdarı olaraq qalacaqdır. Estoniya, həmçinin Avropa İttifaqı ilə onun qonşu tərəfdaşları arasında yaxın münasibətləri təşviq etməkdə davam edir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Kersti KALYULAYD,***
***Estoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının qurulmasının 102-ci ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Zati-aliləri, xahiş edirəm, yüksək ehtiramımı qəbul edin.

***Sauli NİİNİSTÖ,***
***Finlandiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, Rumıniya ilə Azərbaycan arasındakı dialoqun və əməkdaşlığın inkişafı strateji tərəfdaşlığın institusional çərçivəsində davam edəcəkdir. İkitərəfli iqtisadi əlaqələrin, o cümlədən regional əhəmiyyətə malik enerji və nəqliyyat layihələri vasitəsilə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlıq çərçivəsində aparılan dialoqun gücləndirilməsi və şaxələndirilməsi qarşılıqlı münasibətlərimizin mühüm istiqamətlərini təcəssüm etdirir.

Zati-aliləri cənab Prezident, xahiş edirəm, Sizə olan dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Klaus Verner İOHANNİS,***
***Rumıniyanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, Sizi və Azərbaycan xalqını milli bayramınız - Respublika Günü münasibətilə təbrik edim.

Azərbaycan bizim üçün yalnız strateji tərəfdaş deyil, həm də dost ölkədir. Bizim ortaq mədəni ənənələrimiz ölkələrimiz arasındakı əlaqələri daha da sıxlaşdırır.

Əminliklə deyə bilərəm ki, biz xarici siyasətimizdə Azərbaycanla əlaqələrimizin inkişafına böyük diqqət yetiririk. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və həmçinin onun Budapeştdə yerləşən ofisi bu əlaqələrin gələcək inkişafına təkan verəcək.

Cənab Prezident, Sizə cansağlığı və ali vəzifənizdə uğurlar arzulayıram.

***Yanoş ADER,***
***Macarıstanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Xorvatiya Respublikası Azərbaycan Respublikası ilə dostluq və tərəfdaşlıq əlaqələrini yüksək dəyərləndirir. Bu il bizim dövlətlərimiz üçün çox mühüm ildir. Belə ki, bu il biz diplomatik münasibətlərimizin qurulmasının 25-ci ildönümünü qeyd edirik. Əminəm ki, səmimi münasibətlərimiz və əməkdaşlığımız gələcəkdə də ölkələrimiz arasında qarşılıqlı anlaşmanı və dostluq əlaqələrini gücləndirməkdə davam edəcək.

Hazırkı çətin vaxtda dünya dövlətləri COVID-19 pandemiyası ilə mübarizə aparır və təəssüf ki, bu virus ölkələrimizin heç birindən yan keçmədi.

Mən Sizə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram. Əminəm ki, biz birlikdə virusun yayılmasının qarşısını uğurla alacağıq və ən qısa zamanda vətəndaşlarımızın gündəlik həyatlarına qayıtmasını təmin edəcəyik.

Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli sənab Prezident.

İcazə verin Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və dost xalqınıza Albaniya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırım.

Fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mövcud olan möhtəşəm dostluq münasibətlərinə ən dərin ehtiramımı bildirir, bu münasibətlərin dərinləşməsi və möhkəmlənməsinə verdiyiniz dəstəyə görə Sizə təşəkkürümü ifadə edirəm.

Enerji sahəsindəki çox sıx əməkdaşlığımız, xüsusilə də TAP layihəsinin həyata keçirilməsində əldə edilən böyük irəliləyiş ölkələrimiz arasında yeni əməkdaşlıq layihələri üçün geniş perspektivlər açmışdır.

Sizi əmin edirəm ki, ölkələrimiz arasındakı münasibətlərin bütün sahələrdə daha da gücləndirilməsində qətiyyətliyəm.

Bütün dünyanın, eləcə də bizim ölkələrimizin COVID-19 pandemiyası ilə üzüzə qaldığı bir vaxtda arzu edirəm ki, hamımız birgə səylərlə, müdrikcəsinə bu vəziyyətin öhdəsindən gələk, tezliklə gündəlik normal həyata qayıdaq və hər birimiz üçün daha yaxşı gələcəyə sahib olaq.

Sizi tezliklə, ən uyğun zamanda Albaniyada görmək arzumu bir daha bildirirəm.

Zati-aliləri, Sizə cansağlığı, Azərbaycan xalqına firavanlıq diləyirəm.

Bir daha ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***İlir META,***
***Albaniya Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Cənab Prezident.

Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimlə bərabər, Azərbaycan xalqına sülh və tərəqqi arzularımı çatdırmaq istəyirəm.

Ölkəniz müstəqilliyini bərpa etdikdən sonra ATƏT ilə Azərbaycan qarşılıqlı olaraq faydalı əməkdaşlıqdan yararlanmışdır. Biz Azərbaycanı təhlükəsizliyin hər üç meyarı üzrə öhdəliklərinin icrasında qətiyyətlə dəstəkləyir, eyni zamanda, ölkənizin töhfələrini, xüsusilə də Xəzər dənizi regionunda təhlükəsizlik və iqtisadi inkişaf baxımından əlaqələrin daha da yaxşılaşdırılması istiqamətində son layihələri alqışlayırıq.

ATƏT regionundakı ölkələrin hökumətləri və parlamentləri misli görünməyən COVID-19 pandemiyası ilə mübarizə apararkən ATƏT-in Parlament Assambleyası qarşılıqlı yardımlaşma və koordinasiyanı, həmçinin ölkələrin gələcəkdə yüksək hazırlıq, müqavimət və çevik reaksiya imkanlarını gücləndirmək məqsədilə məlumat və təcrübə mübadiləsini təşviq etməkdə davam edir.

Millət vəkillərinizin onlayn tədbirlərimizdə fəal iştirakını qeyd edərək, xalqlarımızı davam edən böyük təhlükələrdən qorumaq, vətəndaşlarımızın fundamental hüquqlarını müdafiə etmək və iqtisadiyyatımızın uzunmüddətli inkişafını dəstəkləmək üçün Sizinlə və Azərbaycanın ATƏT-in Parlament Assambleyasındakı nümayəndə heyəti ilə sıx işləməyə davam etmək əzmindəyəm.

İcazə verin, fürsətdən istifadə edərək, bütün dünya müsəlmanlarının müqəddəs Ramazan bayramını qeyd etdiyi bu günlərdə Sizə və Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik arzularımı çatdırım.

*Hörmətlə,*

***Georgi TSERETELİ,***
***ATƏT Parlament Assambleyasının sədri***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 102-ci ildönümü münasibətilə bütün kanadalılar adından Sizə və xalqınıza ən xoş arzularımı yetirirəm.

Bu əlamətdar gün bizə beynəlxalq əməkdaşlığımızı, təhsil mübadiləsi və ticarət sahələrində əlaqələrimizi, eləcə də qadınların səlahiyyətlərinin artırılması, demokratiya və qanunun aliliyi kimi prinsiplərə birgə sadiqliyimizi qeyd etmək imkanı verir. Fəal Azərbaycan-Kanada cəmiyyətinə əsaslanan xalqlararası əlaqələrimiz ikitərəfli əməkdaşlığımızın möhkəm təməlini təşkil edir və bizim çoxşaxəli cəmiyyətimizə və firavanlığa öz töhfəsini verməkdədir.

Bununla yanaşı, Kanada Azərbaycanın ətraf mühitin idarə olunmasının yaxşılaşdırılması və iqlim dəyişikliyinin yumşaldılması istiqamətində davamlı səylərini dəstəkləyir.

Bizim hər birimizin üzləşdiyi COVID-19 pandemiyası ilə bağlı məhdudiyyətlərə baxmayaraq, Kanada Azərbaycan xalqı ilə birgə ölkənizin müstəqilliyinin və ümidverici gələcəyinin qeyd olunmasına qoşulur.

*Səmimiyyətlə,*

***Jüli PEYET,***
***Kanadanın General-Qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından Sizə və böyük Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Bu fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah diləyirəm.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Respublika Günü münasibətilə zati-alinizə və Azərbaycan xalqına öz adımdan və Kraliça adından ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırıram.

Məmnuniyyətlə qeyd edirəm ki, Malayziya ilə Azərbaycanın hər zaman yaxın və səmimi münasibətləri olub. Malayziya Azərbaycan Respublikasını Qafqaz regionunda vacib tərəfdaş kimi qəbul edir. Qarşılıqlı faydalı əməkdaşlığı və tərəfdaşlığı gücləndirmək üçün Malayziyanın Azərbaycanla sıx işləməyə hazır olduğunu bildirməkdən şərəf duyuram.

Uca Allahdan xalqlarımıza COVID-19 pandemiyasının və sonrakı çətinliklərin öhdəsindən gəlmək üçün qüvvə və dözüm verməsini diləyirik. Allah-Təala zati-alinizin dinamik rəhbərliyi ilə Azərbaycan Respublikasına və onun xalqına sülh, firavanlıq bəxş etsin.

Fürsətdən istifadə edərək Sizə bir daha hörmət və ehtiramımı bəyan edirəm.

*Hörmətlə,*

***Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şahibni Sultan Hacı Əhməd Şah əl-Mustain BİLLAH,***
***Malayziyanın Kralı***

❖ ❖ ❖

Cənab Prezident.

Dost və qardaş Azərbaycan xalqının milli bayramını qeyd etdiyi bu gündə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf və məmnunluq duyuram.

Mənimlə yanaşı Cibuti xalqı və hökuməti də ölkənizin milli bayramı münasibətilə qardaş Azərbaycan xalqına rəğbətini və dost münasibətini ifadə edir.

Səmimi-qəlbdən ümid edirəm ki, Sizin liderliyinizlə başlanmış inkişaf layihələri ölkəniz və xalqınız üçün daha çox tərəqqi və rifah gətirəcəkdir.

Cibuti Respublikası bir çox ortaq dəyər və bənzərlikləri olan Azərbaycanla əlaqələrin, xüsusilə ticarət dövriyyəsinin səviyyəsini daha da artırmaq niyyətindədir.

Cənab Prezident, əmin ola bilərsiniz ki, Cibuti xalqı və hökuməti ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi üçün hər zaman lazımi kömək göstərməyə hazırdır.

Sizə və bütün xalqınıza bir daha ən xoş arzularımı çatdırıram.

Cənab Prezident, xahiş edirəm ən səmimi təbriklərimi qəbul edin.

*Hörmətlə,*

***İsmail Ömər QELLE,***
***Cibuti Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan xalqının hər birimizin paylaşdığı və əziz tutduğu müstəqillik, azadlıq və suverenlik kimi dəyərləri təntənə ilə qeyd etməsinə qoşuluruq. Qoy, bu gün Sizin həmrəy, etibarlı və firavan ölkənizin quruculuğuna dəyərli töhfə olsun.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Rodriqo Roa DUTERTE,***
***Filippin Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Braziliya hökuməti və xalqı adından və şəxsən öz adımdan zati-alinizi Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə təbrik edirəm.

Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzulayaraq, xalqlarımızın qarşılıqlı mənafeyi naminə ölkələrimizi birləşdirən dostluq əlaqələrini möhkəmləndirmək üçün Braziliyanın Azərbaycanla əməkdaşlığı davam etdirməyə hazır olduğunu bir daha vurğulayıram.

Möhtərəm Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi rica edirəm.

*Hörmətlə,*

***Jair BOLSONARU,***
***Braziliya Federativ Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə Vyetnam hökuməti və xalqı adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Vyetnam Azərbaycanın yaxın dostu olaraq Sizin rəhbərliyinizlə dövlətin inkişafı, insanların həyat səviyyəsinin yaxşılaşdırılması, beynəlxalq inteqrasiya, habelə ölkənizin bölgədəki və dünyadakı rolunun və mövqeyinin möhkəmləndirilməsində ölkənizin əldə etdiyi böyük nailiyyətləri daim izləyir və bundan çox məmnundur.

Bölgələrimizdə və beynəlxalq aləmdə mövqelərimizin möhkəmlənməsinə əhəmiyyətli töhfə verən ölkələrimizin ənənəvi dostluq münasibətlərinin əhatə etdiyi bütün sahələrdə müsbət irəliləyişləri görməkdən məmnunam.

Tam əminəm ki, hər iki ölkənin dövlət başçılarının istəyi və qətiyyəti, habelə dövlət qurumları və yerli hakimiyyət orqanlarının birgə səyləri və ölkələrimizin malik olduğu yaxın əlaqələr əsasında Vyetnam ilə Azərbaycan arasında son bir neçə onillik ərzində mövcud olan səmərəli münasibətlər bundan sonra da davam edəcək, xalqlarımızın rifahı, həmçinin dünyada sülh və inkişaf naminə yeni nailiyyətlər əldə olunacaqdır.

Azərbaycana inkişaf və tərəqqi, xalqınıza isə firavanlıq diləyirəm.

Sizə cansağlığı, xoşbəxtlik və şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Nquyen Fu ÇONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əs-səlamu aleykum varahmatullahi vabarakatuhu.

Dost ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə İraq xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan sevinc duyuram. Sizə möhkəm cansağlığı və müvəffəqiyyət, Azərbaycan xalqına isə inkişaf və firavanlıq arzu edirəm.

Allah-Təaladan tezliklə koronavirus bəlasından qurtulmağınızı diləyirəm. İraq tərəfinin dost ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın gücləndirilməsinə sadiq qalacağına əmin ola bilərsiniz.

*Ən yüksək ehtiramla,*

***Bərham SALEH,***
***İraq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz qardaşım.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza isə tərəqqi və firavanlıq arzulayıram.

Xalqlarımız arasındakı qardaşlıq əlaqələrini və qarşılıqlı hörməti nəzərə alaraq faydalı əməkdaşlığımızı gücləndirmək və genişləndirmək istiqamətində Sizinlə birgə işləməyə davam edəcəyimizə ümid bəsləyirəm. Bu, xalqlarımızın maraqlarına xidmət etməkdə, müsəlman ümməti arasında həmrəyliyi və birliyi tərənnüm etməkdə bizə kömək olacaq.

*Hörmətlə,*

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı yetirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Respublikasına və xalqınıza inkişaf və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Maha VACİRALONQKORN,***
***Tailandın Kralı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Dost Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Əlcəzair xalqı adından və şəxsən öz adımdan zati-alinizə və xalqınıza səmimi təbriklərimi, cansağlığı və firavanlıq arzularımı çatdırıram.

Bu əlamətdar günün yaratdığı fürsətdən istifadə edərək ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin səviyyəsindən məmnun qaldığımızı, müxtəlif sahələrdə əlaqələrin gücləndirilməsində və iki qardaş xalqın maraqlarına xidmət edən münasibətlərin ən yüksək səviyyəyə yüksəldilməsində maraqlı olduğumuzu qeyd etmək istəyirəm.

Ortaq maraqların olduğu beynəlxalq və regional məsələlərin həllinə, xüsusilə Qoşulmama Hərəkatına sədrliyiniz çərçivəsində əlaqələrimizi davam etdirməyə hazır olduğumuzu bir daha bildirmək istəyirəm. Bu, sülhün, təhlükəsizliyin, sağlam yaşayışın təmin olunmasına xidmət edəcək əməkdaşlığın gücləndirilməsi baxımından önəmlidir.

Bir daha zati-alinizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırıram.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını İndoneziya Respublikasının xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Qoy Uca Allah xalqınıza hər zaman tərəqqi və firavanlıq bəxş etsin.

Ümid edirəm ki, ölkələrimiz arasında mövcud olan səmimi münasibətlər xalqlarımızın rifahı naminə inkişaf etməkdə davam edəcək.

Sizin Qoşulmama Hərəkatında sədrliyinizi, xüsusilə də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında COVID-19-a qarşı mübarizəyə həsr olunmuş, videokonfrans vasitəsilə keçirilmiş sammitin təşkil edilməsi təşəbbüsünüzü yüksək dəyərləndirdiyimi bildirmək istəyirəm. İnanıram ki, Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatına üzv ölkələr arasındakı əməkdaşlıq bu çətin zamanlarda daha da güclənəcəkdir.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı, Sizə möhkəm cansağlığı və rifah arzularımı qəbul edin.

***Coko VİDODO,***
***İndoneziya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Fürsətdən istifadə edərək, Sizə cansağlığı, ölkənizin vətəndaşlarına firavanlıq arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan səmimi münasibətlər xalqlarımızın mənafeyi naminə bundan sonra da möhkəmlənməkdə davam edəcəkdir.

*Ən yüksək ehtiramla,*

***Norodom SİHAMONİ,***
***Kambocanın Kralı***

❖ ❖ ❖

Cənab Prezident.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Burkina-Faso xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram.

Sizə və Azərbaycan xalqına cansağlığı, əmin-amanlıq, firavanlıq və davamlı tərəqqi arzulayıram.

Əmin olun ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrini möhkəmləndirmək üçün Sizinlə birgə işləməyə daim hazıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Rok Mark Kristian KABORE,***
***Burkina-Fasonun Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə bütün Laos xalqı adından və şəxsən öz adımdan Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud dostluq münasibətləri və səmərəli əməkdaşlıq xalqlarımızın mənafeyi naminə bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Fürsətdən istifadə edərək Sizə şəxsi rifah və şərəfli fəaliyyətinizdə uğurlar arzu edirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Bounyanq VORAÇİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Efiopiya Federativ Demokratik Respublikasının xalqı, hökuməti adından və şəxsən öz adımdan Sizə və Sizin şəxsinizdə Azərbaycan Respublikasının xalqına və hökumətinə ən səmimi təbriklərimi çatdırmaq istərdim.

Eyni zamanda, ölkələrimiz arasında mövcud olan səmimi münasibətlərin qarşıdan gələn illər ərzində güclənməkdə davam edəcəyinə əminliyimi ifadə edirəm.

Fürsətdən istifadə edərək, zati-aliləri, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Sahle-Vork ZEVDE,***
***Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Koreya Xalq Demokratik Respublikasının hökuməti və xalqı adından Sizin dost ölkənin hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırıram.

Koreya ilə Azərbaycan arasında dərin tarixə malik dostluq və əməkdaşlıq əlaqələrinin hər iki xalqın arzusu və istəyinə uyğun olaraq daim inkişaf edəcəyinə əminliyimi bildirir, Sizə və xalqınıza Azərbaycanın tərəqqisi naminə fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

***Kim Çen IN,***
***Koreya Xalq Demokratik Respublikasının Dövlət Şurasının sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Bu məktubumla ölümcül COVID-19 pandemiyasına qarşı mübarizədə səylərimizi gücləndirmək üçün Pakistana bir milyon ABŞ dolları məbləğində humanitar yardımın ayrılmasına dair Azərbaycanın verdiyi qərarla bağlı təşəkkürümü çatdırıram.

Belə çətin zamanlarda bu cür düşünülmüş jest bizim yaxın və qardaşlıq münasibətlərimizin təzahürüdür. Pakistan xalqı azərbaycanlı qardaşları tərəfindən edilmiş bu xeyirxahlığı daim xatırlayacaqdır.

İcazə verin, həmçinin Sizi Qoşulmama Hərəkatının Təmas Qrupunun bu yaxınlarda uğurla keçirilmiş, COVID-19 qlobal təhdidinə qarşı mübarizəyə həsr olunmuş onlayn Zirvə görüşü ilə bağlı təbrik edim. Bu, vaxtında göstərilmiş təşəbbüs idi. Səmərəli qlobal cavab tədbirləri üçün biz hamımız birlikdə olmalı, əlaqələndirilmiş və vahid icra mexanizminə əsaslanan birgə strategiya həyata keçirməliyik.

Fürsətdən istifadə edərək, müqəddəs Ramazan ayında bu cür həmrəylik nümayişinə görə Sizə və Azərbaycan xalqına bir daha təşəkkür edir, zati-alinizin cansağlığı, xoşbəxtliyi və rifahı üçün dua edirəm.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***İmran XAN,***
***Pakistan İslam Respublikasının Baş Naziri***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına daha böyük inkişaf və firavanlıq arzu edirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş Nazirin müavini, Müdafiə naziri***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaq mənə qürur hissi verir.

Azərbaycanın ətraf mühiti qorumaq və gələcək nəsillər üçün davamlı irs yaratmaq istiqamətində son illərdə nəzərəçarpan nailiyyətlər əldə etməsi ilə bağlı aşağıdakı bəzi məqamları məmnunluqla qeyd edirəm:

- 2019-cu ilin noyabrında bir gündə 650 min ağacın əkilməsi kimi kampaniya iqlim dəyişikliyinə mənfi təsirlərin yumşaldılmasına nəzərəçarpan töhfə idi. Həmin il Azərbaycan deqradasiyaya uğramış və meşəsizləşdirilmiş yüz milyonlarla hektar sahənin yenidən bərpası məqsədilə Bonn çağırışına qoşulub.
- Sovet dönəmindən qalmış, Bakı şəhəri ətrafında neftlə çirklənmiş ərazilərin təmizlənməsi Xəzər sahilinin böyük ərazilərində Bakının və şəhər ətrafının milyonlarla sakini arasında daha sağlam və təhlükəsiz ətraf mühiti təbliğ etmək məqsədilə yeni inkişaf imkanlarını ərsəyə gətirmək üçün irəliyə atılan böyük addım idi.
- Bioloji müxtəlifliyi qorumaq və ekoturizmi təbliğ etmək məqsədilə Xəzər dənizi sahili zonasında nadir ətraf mühitin qorunduğu Qızılağacda bütün Xəzər regionunda ilk dəniz milli parkı salınıb.

Bundan əlavə, Azərbaycan tullantıların azaldılması, nadir dəniz ekosisteminin konservasiyası, çirklənmənin qarşısının alınması fəaliyyətlərində iştirak edərək, Tehran Konvensiyası ilə idarə olunan BMT-nin Ətraf Mühit Proqramının işinə töhfə olaraq Xəzərdə dəniz mühitinin qorunmasında əhəmiyyətli rol oynayır.

Zati-aliləri, bir daha fürsətdən istifadə edərək, bu önəmli bayram münasibətilə Sizi təbrik edir, Azərbaycan Respublikası ilə davamlı əməkdaşlığı səbirsizliklə gözləyirəm.

Ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***İnger ANDERSEN,***
***BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident.

Qarşılıqlı dostluq və hörmət münasibətlərini inkişaf etdirdiyimiz Azərbaycanı milli bayramı münasibətilə təbrik etmək mənə qürur hissi verir.

1993-cü ildə diplomatik əlaqələrimiz qurulandan bəri biz strateji, coğrafi və geosiyasi baxımdan əlverişli məkanda yerləşən, mühüm üstünlüklərə malik, dünyəvi, müasir və stabil demokratiyaya nümunə olan, əhalisinin müxtəlifliyi ilə qürur duyduğu Azərbaycanla əlaqələri dərinləşdirmək imkanımız oldu. Bundan əlavə, bu, böyük iqtisadi və ticari potensialı nümayiş etdirir. Belə ki, Cənubi Qafqazın ümumi daxili məhsulunun yarıdan çoxu Azərbaycanın payına düşür.

2014-cü ildə diplomatiyanın başqa bir səmərəli formasını tətbiq etmək məqsədilə qanunvericilərin beynəlxalq səviyyədə parlament təşkilatlarında iştirak etmələrinin nəticəsi olaraq Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupu yaradılıb.

Öz fəaliyyəti ilə siyasi və parlamentlərarası dialoq, rəsmi və işgüzar səfərlər vasitəsilə ölkələrimizə müsbət dinamika verən bu qrupa böyük qürur və məmnuniyyət hissi ilə Senatda rəhbərlik edirəm. Parlamentlərimiz tərəfindən mümkün investisiya sahələri müəyyənləşdirilib və inkişaf fəaliyyətlərinin gündəliyi hazırlanıb.

Azərbaycanın neft və qaz hasilatı diqqət mərkəzindədir. Azərbaycan tərəfindən qəbul edilən səmərəli model dövlət şirkətinin bütün müqavilələrdə iştirakını nəzərdə tutur ki, bu da yerli Suveren Fonda ölkə daxilində və Braziliya da daxil olmaqla xaricdə öz investisiyalarını şaxələndirməyə imkan verir.

Mədəniyyət sahəsinə gəlincə, parlamentlərarası əlaqələr bu sahədə də zənginlik tapır. Musiqidə, "Şərqin konservatoriyası" adı ilə tanınan Azərbaycanın məşhur bəstəkarı Üzeyir Hacıbəyli tərəfindən bəstələnmiş, müsəlman dünyasında ilk opera olan Leyli və Məcnun operasından başlayaraq nümayiş etdirməyə çox şeyi var. Ədəbiyyatda Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, Firudin bəy Köçərli və Əhməd Cavad kimi görkəmli şəxsləri var. İncəsənət, memarlıq, teatr və kinematoqrafiyada da oxşar nailiyyətləri var.

Azərbaycan əhalisinin savadlılıq dərəcəsinin 100 faiz olduğunu nəzərə alsaq təhsil sahəsində, eləcə də futbolda böyük qarşılıqlı marağı və hər iki ölkənin nəhəng turist potensialını önə çəkməklə bu sahələrdə təcrübə mübadiləsi faydalı olar.

Bu il ölkənizdə səfərdə olarkən zəngin və gözəl Bakıya səfər etməkdən əlavə, mən demokratiyasının gücü, əhalisinin müasirliyi ilə ölkələrimiz arasında iqtisadi, sosial və mədəni əlaqələrin böyük imkanlarının şahidi oldum.

Cənab Prezident, Braziliyanın dostluğu və müxtəlif sahələrdə əməkdaşlığı gücləndirmək niyyətində olduğu Azərbaycan kimi gözəl ölkənin milli bayramı münasibətilə təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Antonio ANASTASİA,***
***Braziliya Senatının Birinci vitse-prezidenti, Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun Senatdakı sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

İcazə verin, Azərbaycanda COVID-19 epidemiyasının qarşısının alınması üçün mübarizədə göstərdiyiniz səmərəli səyləri yüksək qiymətləndirdiyimi bildirim.

Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərlə Azərbaycan arasında tarixin, mədəniyyətin və insanlararası münasibətlərin müxtəlif aspektlərini əhatə edən sıx əlaqələr yaranıb. Azərbaycanın coğrafi mövqeyi onu Şanxay Əməkdaşlıq Təşkilatının təbii tərəfdaşına çevirir. Şanxay Əməkdaşlıq Təşkilatı Azərbaycanın dialoq üzrə tərəfdaş kimi bu təşkilata töhfəsini yüksək qiymətləndirir. Xüsusən nəqliyyat, tranzit və logistika sahələrində Azərbaycanın zəngin potensialı çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığı daha da dərinləşdirmək yollarını əhəmiyyətli dərəcədə genişləndirə bilər.

2019-cu ilin may ayında Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin Bişkek görüşündə dialoq üzrə müşahidəçilər və tərəfdaşlarla qarşılıqlı fəaliyyətin genişləndirilməsinə dair Yol Xəritəsi imzalanıb. Bu sənədin praktikada səmərəli reallaşdırılması təşkilat üçün prioritet məsələdir və Sizin ölkənizin bu baxımdan dəstəyini yüksək qiymətləndirirəm. Əminəm ki, bizim təşkilatın fəaliyyətində Bakının daha yaxından iştirak etməsi Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə əlavə təkan verəcək, yeni üfüqlər və perspektivlər açacaq.

Zati-aliləri, icazə verin, bütün dünya üçün bu mürəkkəb günlərdə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, firavanlıq arzu edim.

*Dərin hörmətlə,*

***Vladimir NOROV,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri.

Dünya Turizm Təşkilatı adından və şəxsən öz adımdan Azərbaycanın Respublika Günü münasibəti ilə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Ölkənizin və xalqınızın rifahı və tərəqqisi üçün ən xoş arzularımı yetirirəm.

Azərbaycan hökumətinin turizm sektorunda davamlı inkişaf əldə etmək qətiyyəti sevindirici haldır. Bu, ölkənizin davamlı sosial və iqtisadi inkişafı üçün turizmə verdiyiniz önəmin göstəricisidir.

Dünya Turizm Təşkilatının Sizə səylərinizdə hərtərəfli dəstək verməyə hazır olduğuna əmin ola bilərsiniz. İnanıram ki, bütün bunlar Azərbaycanın ümumi sosial-iqtisadi inkişafında özünü büruzə verəcək.

Zati-aliləri, bir daha Sizi təbrik edir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Zurab POLOLİKAŞVİLİ,***
***Dünya Turizm Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Türk Şurası adından və şəxsən öz adımdan Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzu və diləklərimi qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də müstəqilliyini elan etməsi ilə Türk və İslam dünyasında ilk demokratik respublikanın qurulması Azərbaycan xalqının tarixində dönüş nöqtəsi olmaqla yanaşı, digər xalqlara da bir örnək olmuşdur.

Müstəqilliyinin bərpasından etibarən gündən-günə daha da inkişaf edən Azərbaycan Respublikası Sizin liderliyiniz və müdrik siyasətiniz sayəsində regionun ən inkişaf etmiş ölkəsi olaraq, dünya dövlətləri arasında nüfuzunu möhkəmləndirməkdədir.

Eyni zamanda, Türk Şurasına daimi dəstəyinizi və Sizin sədrliyinizlə Bakıda keçirilən yeddinci Zirvə görüşünün uğurlu nəticələrinin Türk Şurasının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına və təşkilatımızın regional müstəvidə daha da cəlbedici platformaya çevrilməsinə zəmin yaratdığını məmnuniyyətlə qeyd etmək istərdik.

Bunun bariz nümunəsi kimi, Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilat olaraq, bir daha Sizin təşəbbüsünüz və sədrliyiniz ilə COVID-19 pandemiyasına həsr edilmiş videokonfrans formatında ilk fövqəladə Zirvə görüşünü keçirmişdir. Bəşəriyyətin üzləşdiyi belə bir çətin dövrdə türkdilli dövlətlər arasında həmrəylik və birlik nümayişi beynəlxalq aləmdəki nüfuzumuzu daha da artırmışdır.

Zati-aliləri, Sizin uzaqgörən xarici siyasətiniz nəticəsində Türk Şurasının COVID-19 infeksiyası ilə mübarizədə təcrübəsinin və həmrəyliyinin dünya birliyi tərəfindən örnək kimi qəbul olunmasını xüsusi qeyd etmək istərdik.

Fürsətdən istifadə edərək, bu tarixi gün münasibətilə zati-alinizə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayır, Azərbaycan xalqına rifah, firavanlıq və xoşbəxtlik diləyirəm.

*Dərin hörmət və ehtiramla,*

***Bağdad AMREYEV,***
***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş Katibi***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırırıq.

Fransa Azərbaycan ilə ikitərəfli və çoxtərəfli münasibətlərə böyük əhəmiyyət verir. Bu gün hökumətinizin səyləri nəticəsində ölkələrimiz arasında energetika, nəqliyyat, infrastruktur, yüksək texnologiyalar, ətraf mühit, təhsil, turizm, xidmət sektoru, regionlararası əlaqələr və sair kimi bir çox sahələrdə fəal əməkdaşlıq mövcuddur.

Birgə səylərimiz ölkələrimizin və xalqlarımızın rifahı naminə münasibətlərimizin daha da inkişafına, möhkəmlənməsinə xidmət edir və edəcəkdir.

İctimai həyatın bütün sahələrində uğurla reallaşdırdığınız böyük layihələr nəticəsində əldə olunan dəyişikliklər bizdə xoş təəssürat yaradıb. Bu dəyişikliklər Azərbaycanın iqtisadi, sosial və digər sahələrdə əldə etdiyi mühüm nailiyyətlərlə müşayiət olunur. Qazanılan nailiyyətlər beynəlxalq aləmdə yüksək qiymətləndirilir və ölkənizin dünyadakı mövqeyinin möhkəmlənməsinə xidmət edir.

Bu fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, Fransanın böyük dostu olan Azərbaycan xalqına isə firavanlıq arzulayırıq.

Ölkələrimizin daha da yaxınlaşması üçün Sizinlə əməkdaşlığa hər zaman sadiqik.

Cənab Prezident, ən dərin hörmətimizi qəbul etməyinizi xahiş edirik.

***Loran Pultye dü MESNİL,***
***Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının vitse-prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı münasibətilə zati-alinizə və xalqınıza ən səmimi təbriklərimizi çatdırırıq.

Birləşmiş Krallıqla Azərbaycan arasında münasibətlərin tarixinin 100 il əvvələ - Azərbaycan Xalq Cümhuriyyəti dövrünə gedib çıxmasına baxmayaraq, əlaqələr ölkəniz müstəqilliyini bərpa etdikdən sonra daha da inkişaf etdi və möhkəmləndi. Ölkələrimiz arasında münasibətlər səmimi dostluğa, qarşılıqlı inam və etimada əsaslanan möhkəm təməl üzərində qurulub. Əminik ki, Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələr gələcək illərdə daha da inkişaf edəcəkdir.

Ümid edirik ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü tezliklə bərpa edəcəkdir. İcazə verin, həmçinin COVID-19-a qarşı mübarizə apardığı bu çətin vaxtlarda Azərbaycanla həmrəyliyimizi ifadə edək.

Zati-aliləri, xahiş edirik Sizə möhkəm cansağlığı, Azərbaycan Respublikasının davamlı inkişafı üçün bütün səylərinizdə böyük uğurlar arzularımızı qəbul edin.

*Hörmətlə,*

***Bob BLƏKMƏN,***
***Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi və bütün Azərbaycan xalqını milli bayramınız - Respublika Günü münasibətilə təbrik edirəm.

Xalqın iradəsi və respublika rəhbərliyinin milli mənafelərə əsaslanan siyasəti sayəsində həyatın çox sahələrində böyük uğurlar qazanmış Azərbaycan bu gün də inkişaf və quruculuq yolunda inamla irəliləməkdə davam edir.

Dağıstanda Azərbaycan Respublikası ilə tarixən yaranmış çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmətə əsaslanan səmərəli birgə fəaliyyəti yüksək qiymətləndirirlər.

Əmin olduğumu bildirirəm ki, Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında konstruktiv əməkdaşlıq və mehriban qonşuluq münasibətləri bundan sonra da möhkəmlənəcək və inkişaf edəcək, Rusiya və Azərbaycan xalqlarının rifahına xidmət edəcək.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzularımı qəbul edin.

*Hörmətlə,*

***Vladimir VASİLYEV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi və xalqınızı dövlət bayramınız - Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz həyat eşqi, respublikanızın rifahı naminə quruculuq fəaliyyətinizdə uğurlar diləyirəm.

Bütün Azərbaycan xalqına səadət, xoş günlər, sülh və əmin-amanlıq, Sizin gözəl diyarınıza bundan sonra da tərəqqi, sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Mahmud-Əli KALİMATOV,***
***Rusiya Federasiyası İnquş Respublikasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

İcazə verin, ilk növbədə, Sizə ehtiramımı bildirim və milli bayramınız - Respublika Günü münasibətilə ürəkdən təbrik edim.

Bu əlamətdar gündə Sizə və Azərbaycanın bütün sakinlərinə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və firavanlıq, Vətənin rifahı naminə quruculuq fəaliyyətinizdə uğurlar arzu edirəm.

Azərbaycan Respublikası həmişə bizim regionun strateji tərəfdaşı olub və bu gün də belədir.

Əminəm ki, biz gələcəkdə də Həştərxan vilayəti ilə Azərbaycan arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq ənənələrini birgə səylərimizlə fəal inkişaf etdirəcəyik.

*Hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Çox hörmətli cənab İlham Əliyev.

İcazə verin, Qaqauz Yeri Muxtar Ərazi Qurumunun İcraiyyə Komitəsi adından Sizə dərin ehtiramımı bildirim, Sizi və Sizin simanızda Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edim.

Respublika Günü Azərbaycan xalqının tarixində ən mühüm və parlaq günlərdən biridir. Bu, öz Vətəni ilə, zəngin tarixi və özünəməxsus mədəniyyəti ilə fəxr edən hər kəs üçün ümumi bayramdır.

Bu gün Azərbaycan Respublikası sabit inkişaf edən ölkədir. Azərbaycanda əhalinin həyat səviyyəsinin layiqli təminatı, səmərəli, rəqabətqabiliyyətli iqtisadiyyat, sosial, təhsil və mədəniyyət sahələrinin təkmilləşdirilməsinə yönəldilən proqramların icrasına aid məsələlər uğurla həll edilir. Ölkə sakinlərinin əməksevərliyi və həyat nikbinliyi, tarixi keçmişə və milli ənənələrə diqqətlə yanaşması Azərbaycan Respublikasının tərəqqisinin əsasını təşkil edir.

Bu əlamətdar gündə Sizə və Sizin simanızda bütün Azərbaycan əhalisinə tərəqqi, həmrəylik və sülh arzulayıram. Qoy hər evə bolluq və uğur gəlsin, dərd və bəla isə uzaq olsun! Qoy Azərbaycanın hər bir vətəndaşı bütöv nəsillərin parlaq gələcəyini təmin edərək, müstəqil, demokratik cəmiyyətin formalaşmasında öz iştirakını hiss etsin.

Çox hörmətli cənab Prezident, fürsətdən istifadə edərək, Sizə ən böyük ehtiramımı bildirirəm.

*Ən xoş diləklərlə,*

***İrina VLAX,***
***Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazisi Qurumunun başçısı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Mən Azərbaycan Respublikasını müstəqilliyinin 102-ci və Braziliyadakı diplomatik xidmətinin 101-ci ildönümü münasibətilə təbrik etmək istərdim.

Dünyanı bürümüş COVID-19 pandemiyası səbəbindən bu bayramı şəxsi iştirakımızla qeyd edə bilməməyimizdən təəssüflənirəm. Buna baxmayaraq, biz bu bayramda qəlbən və ruhən birlikdəyik.

Federal deputat və Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri kimi ölkənizin milli bayramı münasibətilə Sizi təbrik etməkdən böyük şərəf duyuram.

Azərbaycan Xalq Cümhuriyyəti müsəlman dünyasında demokratik və dünyəvi respublikanın yaradılması istiqamətində ilk uğurlu addım idi. Azərbaycan Respublikasının tarixində digər mühüm məqam odur ki, müsəlman dünyasında qadınlara ilk dəfə kişilərlə bərabər siyasi hüquqlar verilib. Ölkənizin tarixində daha bir əlamətdar hadisə müasir tipli ilk universitet kimi Bakı Dövlət Universitetinin yaradılması olub.

İqtisadi sahədə Azərbaycanı qlobal miqyasda neft və qaz hasil və ixrac edən, Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkə kimi tanıyırıq.

Biz onu da xüsusi qeyd etməliyik ki, Azərbaycan beynəlxalq idman ictimaiyyətinin fəal üzvüdür. Azərbaycan Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının (FIFA), Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA), Beynəlxalq Atletika Federasiyaları Assosiasiyasının (IAAF), Avropa Atletika Assosiasiyasının (EAA), Beynəlxalq Olimpiya Komitəsi və digər idman təşkilatlarının tamhüquqlu üzvüdür.

Cənab Prezident, bu gözəl bayram münasibətilə Sizə bir daha təbriklərimi və xoş arzularımı çatdırıram. Ölkələrimiz arasında yaranmış bu cür dostluq münasibətlərinə görə Sizə təşəkkür edirəm. Xüsusi vurğulamaq istəyirəm ki, Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun məqsədi ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirməkdir. Bizim əsas məqsədimiz parlamentlər arasında məlumat və təcrübə mübadiləsini həyata keçirmək, iki ölkənin siyasi, iqtisadi, sosial və mədəni sahələrdə əlaqələri ilə bağlı araşdırmalar aparmaq, həmçinin həmrəylik tellərini möhkəmləndirməkdir.

Sonda bir daha Sizi təbrik edir, dəyərli xalqınızın çətinliklərin öhdəsindən gəlmək üçün göstərdiyi şücaəti çox yüksək qiymətləndirirəm.

Təbriklər, Azərbaycan!

*Hörmətlə,*

***Klaudio KAXADO,***
***Braziliya Milli Konqresinin Deputatlar Palatasında Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, federal deputat***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Milli bayramınız - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycanın bütün sakinlərinin fədakar əməyi sayəsində bu gün respublikanız regionun və dünyanın ən uğurlu və sabit dövlətlərindən biridir. Şübhə yoxdur ki, bu uğurların qazanılmasında Azərbaycanın rəhbərliyi mühüm rol oynayıb. Bu ölkənin lideri kimi Sizin yüksək keyfiyyətlərə malik olduğunuzu bildiyim üçün mən əminəm ki, respublikanızı qarşıda çoxlu qələbələr və yeni zirvələr gözləyir.

İcazə verin, Sizə və bütün azərbaycanlılara möhkəm cansağlığı, xoşbəxtlik diləyim və bütün niyyətlərinizin həyata keçməsini arzulayım.

*Hörmətlə,*

***Əlişir USMANOV,***
***Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Biz BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional qurumu olaraq xalqınızla birlikdə 1918-ci ilin 28 mayını - Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsinin imzalanması ilə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət elan olunması tarixini şərəflə qeyd edirik. Azərbaycan Xalq Cümhuriyyəti özünəməxsus və zamanını qabaqlayan bir dövlət idi. Cəmi 23 ay yaşamasına baxmayaraq, onun əldə etdiyi nailiyyətlər müasir Azərbaycan Respublikasının rifahının əsasını qoydu.

Fürsətdən istifadə edərək, Sizin rəhbərliyinizlə Azərbaycan dövlətinə COVID-19-a qarşı böyük və səmərəli səylərlə mübarizə apardığına görə təşəkkür edirəm. Nazirlər Kabineti yanında Operativ Qərargah və digər aidiyyəti qurumlar Azərbaycanın aparıcı sənaye sahəsi olan neft və qaz sektorunda iş rejiminin düzgün səviyyədə qurulmasını təmin etdi. Bu, ölkənin mühüm enerji layihələrinin inkişafına, BP və onun tərəfdaşlarının lazımi daxili resurslarını cəmləyərək regiondakı əməliyyatlarını xüsusi karantin rejimi qaydaları ilə davam etdirməsinə kömək oldu.

BP Azərbaycanla əməkdaşlığının davamlı şəkildə genişlənməsinə böyük önəm verir və bu əməkdaşlığın gələcək məhsuldar inkişafını səbirsizliklə gözləyir.

Zati-aliləri, icazə verin, Sizə cansağlığı, xoşbəxtlik və uğurlar, Azərbaycan xalqına davamlı inkişaf və firavanlıq arzulayım.

*Hörmətlə,*

***Qəri COUNZ,***
***BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycanın əsas bayramlarından biri - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin ölkəniz öz müstəqilliyini əzmlə qoruyub saxlayıb və bu gün sosial-iqtisadi, elmi-texniki və mədəni irsini uğurla inkişaf etdirir.

Qoy bu bayram günü ölkənizin şanlı keçmişinə, bugünkü firavanlığa və daha parlaq gələcəyə görə qürur duymağa bir fürsət olsun.

Sizin ölkənizə səmimi-qəlbdən firavanlıq, bütün Azərbaycan xalqına xoşbəxtlik arzu edirəm.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu.

Sizi və bütün Azərbaycan xalqını böyük bayram - Respublika Günü münasibətilə təbrik edirik.

Bu gün biz qardaş Azərbaycanın sürətli inkişafını fərəhlə izləyirik. Xalqınızın rifahı, hər bir ailənin həyat səviyyəsi gündən-günə artır. Bakı - Qafqazın incisi özünün gözəlliyi, əzəməti və valehedici memarlığı ilə daha çox diqqət cəlb edir.

Hörmətli İlham Heydər oğlu, bütün bunlar Sizin xidmətinizdir, Sizin öz xalqınıza yorulmadan göstərdiyiniz qayğının, ölkəni müdrikcəsinə, istedadla və dəyanətlə idarə etmək, bütün Azərbaycan xalqına, hər bir Azərbaycan ailəsinə, hər bir azərbaycanlıya rifah və tərəqqi gətirmək bacarığınızın nəticəsidir.

Bu bünövrəni yeni Azərbaycanın, bütün yeni Qafqazın yeni siyasətinin banisi, sülh, quruculuq, xalqların tərəqqisi, mehriban qonşuluq, qarşılıqlı yardım və qarşılıqlı anlaşma siyasətinin yaradıcısı olan dahi Heydər Əliyev qoyub.

Bu, Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı münasibətlərdə xüsusilə hiss olunur. Biz Heydər Əlirza oğlunun xidmətlərini yüksək dəyərləndiririk və neft müqaviləsində bu dahi insanın Azərbaycanın payını o dövrdə çətin vəziyyətdə olan Gürcüstanla necə bölüşməsini heç vaxt yaddan çıxarmayacağıq. Bunu ancaq qardaş qardaşa edərdi.

Bizi - azərbaycanlıları və gürcüləri uzun əsrlik dostluq telləri bağlayır. Qədim zamanlardan bu iki zəhmətkeş xalq daim sülh və həmrəylik içərisində yaşayıb. Bizim bütün keçmişimiz və bu günümüz bunun parlaq təzahürüdür: bir-birinin ənənələrinə, etiqadına hörmət və ehtiram, həyatın bütün sahələrində - siyasət, elm, ətraf mühitin mühafizəsi, iqtisadiyyat sahələrində sıx qarşılıqlı münasibətlər. Tarix bizim qardaş xalqları dahi Heydər Əliyevin zəhmətinin bəhrəsi olan "Yeni İpək Yolu"nda çiyin-çiyinə birləşdirdi.

Xalqlarımız mədəniyyət və incəsənət sahəsində xüsusilə yaxındır. Onların dostluğu isə konkret insanların dostluğu üzərində qurulur.

Bunun parlaq nümunəsi möhtəşəm rejissor, həqiqətən peşəkar və istedadlı kinematoqraf Vaqif Mustafayevdir. Onun yaratdığı filmlər həm Qafqazda, həm də onun hüdudlarından kənarda sevilir və dəyərləndirilir. Bizim dostumuz və bütün regionumuzun fəxri olan Vaqif bir sıra xidmətləri ilə yanaşı, həmçinin Gürcüstanın "Şərəf" ordeni ilə təltif edilib. Vaxtilə Azərbaycanın Mədəniyyət nazirinin müavini olduğu dövrdə o, daim gürcü mədəniyyət xadimlərinə kömək edib, onlara hər cür yardım və dəstək göstərib, bununla da bizim sevgimizi, hörmət və etibarımızı qazanıb.

Azərbaycanın regionda liderlik edərək, möhkəm və əzmli addımlarla firavanlığa doğru irəliləməsi bizi çox sevindirir. Liderin müdrikliyi və istedadı, cəsarəti və qətiyyəti Sizə Heydər Əliyevdən irsən keçib. Eləcə də öz xalqına sonsuz məhəbbət. Ən əsası odur ki, bu sevgi qarşılıqlıdır. Xalq Sizi dahi atanızı sevdiyi kimi sevir.

Çox hörmətli İlham Heydər oğlu, Gürcüstan ictimaiyyəti Sizi bir daha Respublika Günü münasibətilə təbrik etməkdən məmnundur. Sizə və bütün azərbaycanlılara cansağlığı, xoşbəxtlik, uzun ömür və bol sevinc arzulayırıq. Biz əminik ki, sizin sevinciniz bizim sevincimiz, sizin uğurlarınız bizim uğurlarımız, sizin nailiyyətləriniz bizim nailiyyətlərimizdir.

Biz, iki qardaş xalq daim sülh və həmrəylikdə yaşamışıq və yaşayacağıq. Biz ulu babalarımızın yaşadıqları kimi, daim digərləri üçün qarşılıqlı hörmət və dostluq nümunəsi olacağıq.

Azərbaycana əbədi sülh arzulayırıq!

***Nani Breqvadze,***
*müğənni, Gürcüstanın və SSRİ-nin Xalq artisti;*
***Eka MAMALADZE,***
*müğənni, Gürcüstanın "Şərəf" ordeni kavaleri;*
***Eldar ŞENGELAYA,***
*kinorejissor, Gürcüstanın və SSRİ-nin dövlət mükafatları laureatı, çoxsaylı beynəlxalq mükafatlar və festivallar laureatı;*
***Temur BABLUANİ,***
*kinorejissor, Rustaveli adına mükafatın, "Sundance Film Festival"ın, həmçinin bir çox beynəlxalq festivalların laureatı, Fransa Kino Akademiyasının üzvü;*
***Gela Babluani,***
*kinorejissor, Avropa Kino Akademiyasının, bir çox beynəlxalq festivalların laureatı;*
***Temur ÇXEİDZE,***
*rejissor, Gürcüstanın və Rusiya Federasiyasının Xalq artisti;*
***Kaxi KAVSADZE,***
*Gürcüstanın və SSRİ-nin Xalq artisti;*
***İrakli KVİRİKADZE,***
*kinorejissor, ssenarist, yazıçı, Gürcüstanın Əməkdar incəsənət xadimi, bir çox beynəlxalq mükafatların və festivalların laureatı;*
***Merab KOKOÇAŞVİLİ,***
*kinorejissor, aktyor, ssenarist, "Gürcüstanfilm" kinostudiyasının direktoru, bir çox beynəlxalq mükafatların və festivalların laureatı;*
***Ramaz Buba XOTİVARİ,***
*kinorejissor, Gürcüstan Kino Akademiyasının (Kinematoqrafçılar İttifaqı) prezidenti, bir çox beynəlxalq mükafatların və festivalların laureatı;*
***Andro ÇİAURELİ,***
*kinorejissor, beynəlxalq mükafatların və festivalların laureatı;*
***İmeda KAXİANİ,***
*Gürcüstanın Xalq artisti;*
***Aleksandr ÇİVADZE,***
*Əməkdar idman ustası, SSRİ yığmasının və "Dinamo" (Tbilisi) komandasının kapitanı;*
***Leri XABELOV,***
*dünya, Avropa və Olimpiya çempionu, Gürcüstan Milli Olimpiya Komitəsinin prezidenti;*
***İrakli TRİPOLSKİ,***
*kinorejissor, Gürcüstan Parlamentinin üzvü (2012-ci ildən hazırkı dövrədək);*
***Dilar XABULİANİ,***
*Avropa çempionu (1977), Gürcüstanın Daxili İşlər naziri (1990-1992), Gürcüstanın Cüdo Federasiyasının prezidenti (1991-2010), Gürcüstan Parlamentinin üzvü (1990-1993);*
***Valeri ASATİANİ,***
*filoloq, Gürcüstanın Mədəniyyət naziri (1985-1990, 1995-2000);*
***David MAQRADZE,***
*şair, Gürcüstanın dövlət himninin müəllifi, Gürcüstanın Mədəniyyət naziri (1992-1995), Nobel mükafatı nominantı (2011);*
***Givi SİXARULİDZE,***
*şair, yazıçı, aktyor, baletmeyster;*
***Saqliani YEREKLE,***
*şair, ictimai xadim, aktyor.*

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu.

İcazə verin, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin çoxsaylı kollektivi adından Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını milli bayramınız - Respublika Günü münasibətilə ürəkdən təbrik edim.

Müstəqil Azərbaycan Respublikasının yaranması ilə əlamətdar olan bu bayram ölkənizə hörmət və sevgi, onun milli adət-ənənələri, zəngin tarixi və parlaq mədəniyyəti baxımından xüsusi məna kəsb edir. Ötən onilliklər ərzində Sizin böyük yaradıcı əməyiniz, siyasi istedadınız və müdrikliyiniz sayəsində respublikanızın zəngin irsi nəinki qorunaraq saxlanılıb, həm də əhəmiyyətli dərəcədə inkişaf etdirilib. Bu gün Azərbaycan daim sosial-iqtisadi tərəqqiyə can atan, yeni imkanlara və perspektivlərə açıq olan dinamik inkişaf edən müasir dövlətdir.

İcazə verin, ölkənizin əsas milli bayramı günündə yaranmış fürsətdən istifadə edərək, Moskva Dövlət Universitetinə olan səmimi münasibətə görə Sizə təşəkkürümü bildirim. MDU-nun Bakı şəhərindəki filialı özünün bütün fəaliyyəti dövründə dövlətlərimiz arasında elm və təhsilin inkişafına, sülh və həmrəyliyə uğurla xidmət edir.

Çox hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, məsuliyyətli işinizdə tükənməz enerji və uğurlar arzulayır, Azərbaycan xalqına səadət və rifah diləyirəm.

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Əlamətdar bayramınız - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan dövlət quruculuğu işində, dərin iqtisadi və sosial dəyişikliklər həyata keçirilməsində sanballı uğurlar nümayiş etdirir.

Azərbaycan zəngin resurs və intellektual potensiala malik olan, perspektivli, dinamik inkişaf edən, öz bənzərsizliyini, milli ənənələrini qoruyub saxlamış, dünya şöhrətli istedadlı alimlərin, mədəniyyət və incəsənət xadimlərinin bütöv bir nəslini yetişdirmiş ölkədir.

Siz dahi atanız - müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin işini ləyaqətlə davam etdirirsiniz.

Əminəm ki, ölkələrimiz arasında siyasi, iqtisadi-ticari və humanitar sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi Rusiya və Azərbaycan xalqlarının maraqlarına cavab verir, Cənubi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə şərait yaradır.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, sülh, əmin-amanlıq, Azərbaycanın rifahı naminə yeni uğurlar arzu edirəm.

*Səmimi hörmət və ən xoş arzularla,*

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyası Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsinin sədri, Rusiya Sülh Fondunun idarə heyətinin sədri***

❖ ❖ ❖

Cənab Prezident.

Artıq iyirmi ildən çoxdur bir-birimizi tanıyırıq və münasibətlərimizin səviyyəsini hər zaman yüksək qiymətləndirmişəm.

Yaşadığımız bu böhranlı dövrdə müəyyən etdim ki, Bakıda keçirilən humanitar forumlarda səslənən sözlər və çıxışlar kağız üzərində qalmır. Əməllə sözlərin üst-üstə düşdüyünü gördüm.

Sizin qayğınız və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi sayəsində departamentimiz minlərlə maska, 210 test və qoruyucu geyimlərdən faydalanmışdır.

Buna görə şəxsən Sizə səmimi-qəlbdən və rəğbət hissi ilə təşəkkür etmək istərdim. Tezliklə görüşəcəyimizə, daha səmərəli beynəlxalq əməkdaşlıq və ortaq humanizm maraqları naminə bütün bu mövzuları müzakirə edə biləcəyimizə ümid edirəm.

Cənab Prezident, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Natali QULE,***
***Fransanın Orn departamentindən senator, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

İcazə verin, Sizi dövlət bayramınız - Respublika Günü münasibətilə ürəkdən təbrik edim.

Zati-aliləri, Sizə ən xoş arzularımı bildirir, ali dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycanın hərtərəfli inkişafı və firavanlaşması naminə zəfərlər, başınız üzərində daim aydın səma olmasını diləyirəm.

*Dərin hörmətlə,*

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Latviya Seyminin Azərbaycanla parlamentlərarası dostluq qrupu adından və şəxsən öz adımdan Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Ölkənizin tərəqqisi və rifahı, maraqlarının müdafiəsi naminə ali dövləti fəaliyyətinizdə Sizə tükənməz enerji və müdriklik arzulayır, Azərbaycan xalqına birlik, cansağlığı və sülh diləyirəm.

*Hörmətlə Sizin,*

***Romans NAUDİNS,***
***Latviya Seyminin deputatı, Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Azərbaycanımızın 28 May - Respublika Günü münasibətilə Sizi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycanın hər sahədə dinamik inkişafı yalnız ölkə vətəndaşlarını deyil, bütün türk dünyasını sevindirir. Son zamanlar koronavirus (COVID-19) pandemiyasının yaratdığı mövcud şəraitdə bilavasitə Sizin təşəbbüsünüzlə həyata keçirilən qabaqlayıcı tədbirlər, eləcə də türkdilli dövlətlər arasında birliyi gücləndirmək naminə təşkil olunan beynəlxalq videokonfranslar hər birimizi fərəhləndirir.

Sizin məqsədyönlü siyasətiniz nəticəsində Azərbaycan Respublikası türk dünyasının öndə irəliləyən mədəni mərkəzlərindən birinə çevrilmişdir. Təşəbbüsünüzlə yaradılan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu türkdilli ölkələrin mədəniyyətini təbliğ edən bir beynəlxalq təşkilat kimi hər zaman ortaq dəyərlərimizin qorunması və dünyada tanıdılması istiqamətində missiyasını davam etdirəcəkdir.

Fürsətdən istifadə edərək, müqəddəs Ramazan bayramı münasibətilə Sizi təbrik edir, zati-alinizə cansağlığı, Azərbaycanın inkişafı və tərəqqisi naminə fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına sülh və firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Günay ƏFƏNDİYEVA,***
***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Üzvləri dünyanın qırx ölkəsini təmsil edən ziyalıların məşhur nümayəndələri, alimlər və diplomatlar olan, təsisçi ölkələrdən birinin Azərbaycan Respublikası olduğu "Davamlı Sülh və İnkişaf uğrunda Beynəlxalq Fond" (IFSPD) adından milli bayramınız - Respublika Günü münasibətilə səmimi təbriklərimizi qəbul edin.

102 il bundan əvvəl - 1918-ci il mayın 28-də Şərqdə və bütün müsəlman dünyasında ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. XX əsrin sonunda Azərbaycanın bərpa etdiyi dövlət müstəqilliyi bütün vətəndaşların rifahı naminə ölkənizin demokratik və iqtisadi inkişafı üçün yeni imkanlar yaradıb.

IFSPD-nin rəhbərliyi və bütün üzvləri adından Sizə səmimi-qəlbdən uğurlar, sülh, əmin-amanlıq və iqtisadi inkişaf arzu edirik.

Sizə ən yüksək ehtiramımızı qəbul edin.

***Biserka YEVTİMİYEVİÇ,***
*Bolqarıstandan Davamlı Sülh və İnkişaf uğrunda Beynəlxalq Fondun prezidenti,*
***Esma SİRBUBALO,***
*Davamlı Sülh və İnkişaf uğrunda Beynəlxalq Fondun icraçı direktoru*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Beynəlxalq Elmi-Texniki və İnformasiya Mərkəzi (BETİM) hökumətlərarası təşkilatının üzvləri olan 22 dövlətin Səlahiyyətli Nümayəndələri Komitəsi və BETİM-in müdiriyyəti adından Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Sizin gözəl ölkənizə bundan sonra da firavanlıq, öz ölkəsini beynəlxalq aləmdə parlaq və ləyaqətlə təmsil edən Azərbaycan alimlərinə yeni yüksək nailiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Yevgeni UQRİNOVİÇ,***
***Beynəlxalq Elmi-Texniki və İnformasiya Mərkəzinin baş direktoru***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə İtaliya-Azərbaycan Ticarət Palatası adından Sizə və Birinci vitse-prezident Mehriban xanıma, ailənizə və bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması müasir Azərbaycanın bugünədək davam edən ən ali dəyərlərini və prinsiplərini təşkil edən mühüm tolerantlıq və multikulturalizm nümunəsinin əsasını qoydu.

Biz rəsmi ikitərəfli biznes təşkilatı olaraq Azərbaycanın keçmiş və gələcək nailiyyətlərini təqdir etməkdən qürur duyuruq.

Eyni zamanda, biz Azərbaycan və İtaliya arasındakı dostluq münasibətlərində iştirakımızdan da məmnunuq. Keçən il fevralın 20-21-də Romaya uğurlu dövlət səfərinizin müsbət əks-sədaları hələ də yaddaşlardadır. Daha sonra gözlənilmədən meydana çıxan çətinliklər ölkələrimiz arasındakı əlaqələri daha da gücləndirmək üçün fürsət yaratdı. Azərbaycan xalqı tərəfindən İtaliyadakı vəziyyətlə bağlı narahatlıq və sevginin səmimi, geniş nümayişi bizim üçün çox önəmlidir və yüksək dəyərləndirilir.

Sizin müdrik rəhbərliyinizlə dövlətinizin beynəlxalq ticarətin təşkilinə və asanlaşdırılmasına dəstəyinə və töhfələrinə görə minnətdarıq. İnanıram ki, italyan və azərbaycanlı sahibkarlar arasındakı iqtisadi əlaqələr iki ölkənin mənafeyi naminə inkişaf etməkdə davam edəcək.

Möhtərəm cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

***Manuela TRALDİ,***
***İtaliya-Azərbaycan Ticarət Palatasının (İTAZERCOM) prezidenti***

# MDB Hökumət Başçıları Şurasının videokonfrans formatında iclası keçirilib

Mayın 29-da MDB Hökumət Başçıları Şurasının videokonfrans formatında iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov iştirak edib.



Azərbaycan Respublikasının Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, MDB hökumət başçıları iqtisadi və humanitar sahələrdə əməkdaşlığın aktual məsələlərini müzakirə ediblər, 2030-cu ilədək Birliyin iqtisadi inkişaf Strategiyası layihəsini nəzərdən keçiriblər. Şura üzvləri, həmçinin koronavirus (COVID-19) infeksiyasının yayılmasına qarşı mübarizədə birgə səylərə dair fikir mübadiləsi aparıblar.

İclasda çıxış edən Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov gündəliyə daxil edilmiş məsələlərin əhəmiyyətinə toxunub. Baş Nazir koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, mövcud vəziyyətdə iqtisadiyyatın sabitliyinə mümkün təsirlərin aradan qaldırılması, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə ölkəmizdə görülən təxirəsalınmaz tədbirlərdən danışıb. Bu xüsusda MDB-yə üzv dövlətlər tərəfindən pandemiyaya qarşı birgə səylərə dair qəbul ediləcək qərarın önəmini vurğulayıb.

Baş Nazir Əli Əsədov nəqliyyat sahəsinə investisiyaların yatırılması nəticəsində ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradıldığını, bu infrastrukturun onlarla ölkəni birləşdirən Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizlərinin yaradılmasında, həmçinin pandemiya şəraitində ölkələr arasında ticarətin açıq saxlanılmasında və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsində böyük rol oynadığını qeyd edib.

Ölkəmizin həm Birlik çərçivəsində, həm də beynəlxalq səviyyədə humanitar sahədə əməkdaşlığa böyük önəm verdiyi də qeyd edilib.

Çıxışının sonunda Azərbaycan Respublikasının Baş Naziri MDB məkanında həll edilməmiş münaqişələr məsələsinə toxunub, bunun regional əməkdaşlığın və MDB məkanında daha sıx qarşılıqlı fəaliyyətin həyata keçirilməsinə başlıca maneə olduğunu bildirib.

# Türkiyə Böyük Millət Məclisinin Sədri Azərbaycan Milli Məclisinin Sədrinə telefonla zəng edib

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya telefonla zəng edib.

Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop həm öz adından, həm də Türkiyə Böyük Millət Məclisinin üzvləri adınan Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanı və onun simasında millət vəkillərini və bütün Azərbaycan xalqını 28 May - Respublika Günü münasibətilə təbrik edib. Bu barədə Azərbaycan Parlamentinin Spikeri Sahibə Qafarova öz "Twitter" səhifəsində məlumat verib. Milli Məclisin Sədri Sahibə Qafarova təbrikə görə minnətdarlığını bildirib və bu bayramın bir millət iki dövlət olan Azərbaycan və Türkiyənin ortaq bayramı olduğunu qeyd edərək türkiyəli həmkarına da öz təbriklərini çatdırıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan Sizin rəhbərliyinizlə gündən-günə inkişaf edir. İnanıram ki, ölkənizin gələcəyi daha gözəl olacaq.

Xalqınızın rifahı naminə fəaliyyətinizdə Sizə uğurlar, möhkəm cansağlığı, ailə səadəti və firavanlıq arzu edirəm.

Yaşasın Azərbaycan Respublikası və Sizin şanlı xalqınız!

*Hörmətlə,*

***Aleksey JURAVLYOV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan vətəndaşları üçün əlamətdar bayram olan Respublika Günü xalqınızın Vətənin müstəqilliyi və azadlığı uğrunda mübarizədə sıx birləşməsinin rəmzidir.

Bu gün milli qürur hissi, vətənpərvərlik, öz qüvvəsinə tükənməz inam və ölkə rəhbərliyinin müdrik siyasəti respublikanızın iqtisadi və sosial sahələrdə uğurlar qazanmasına, beynəlxalq arenada ölkənizin nüfuzunun möhkəmləndirilməsinə imkan verir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə bütün təşəbbüslərinizin gerçəkləşməsini arzulayıram.

*Dərin hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***"Safmar" qrupu Səhmdar Cəmiyyətinin prezidenti,***
***Direktorlar Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Rusiya azərbaycanlıları adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımı bildirir və Sizi milli bayramımız - Respublika Günü münasibətilə təbrik edirəm.

Öz Vətəni ilə, onun zəngin tarixi və bənzərsiz mədəniyyəti ilə daim fəxr edən Azərbaycan xalqının tarixində Respublika Günü ən mühüm bayramlardan biridir.

Bizim ölkəmiz dövlətçiliyin böyük, çətin, lakin layiqli quruculuq, inkişaf və möhkəmlənmə yolunu keçmişdir. Azərbaycan Respublikasının yaranması xalqın yeni tarixi şəraitdə müstəqillik və inkişaf səylərini nümayiş etdirdi.

Müasir Azərbaycanın müstəqil dövlətə çevrilməsi, dövlət quruculuğu və fəal siyasi, sosial-iqtisadi islahatlar Ümummilli Lider Heydər Əliyevin adı ilə ayrılmaz şəkildə bağlıdır. Böhran dövründə bizim ölkəmizə sabitliyi məhz Heydər Əliyev gətirdi. Məhz onun müdrik, ölçülüb-biçilmiş siyasəti nəticəsində Azərbaycan dünyada hamı tərəfindən tanınan inkişaf etmiş dövlət oldu.

Bu gün dahi Heydər Əliyevin işinin davamçısı kimi Sizin sayənizdə, Sizin uzaqgörən və ardıcıl siyasətiniz sayəsində Azərbaycan sabit inkişaf edir və beynəlxalq arenada uğurlu, multikultural dövlət olmaqda davam edir.

Fürsətdən istifadə edərək, Rusiyada yaşayan azərbaycanlılara göstərdiyiniz daimi diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Biz hər şeydə Sizi dəstəkləyirik və əminik ki, Azərbaycan Sizin rəhbərliyiniz altında müstəqilliyin möhkəmləndirilməsi və hərtərəfli inkişaf yolunda yeni uğurlar qazanacaq, qarşısına qoyduğu bütün məqsədlərə çatacaq və öz ərazi bütövlüyünü həmişəlik bərpa edəcək!

Bir daha Sizi bayram münasibətilə təbrik edirəm! Sizə və Azərbaycan xalqına möhkəm cansağlığı, səadət, rifah, sülh və həmrəylik arzulayıram!

*Səmimi hörmətlə,*

***Fazil QURBANOV,***
***Rusiyanın Azərbaycan diasporunun rəhbəri, akademik***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 102-ci ildönümü - Respublika Günü münasibətilə ən xoş arzularımı və səmimi təbriklərimi qəbul edin. Bu, danılmaz tarixi faktdır ki, Azərbaycan 102 il bundan əvvəl ən yüksək demokratik dəyərləri bəyan etməklə yanaşı, öz praktiki fəaliyyətində onları təmin etmiş ölkələrdən biridir.

Azərbaycan tarixində ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti bütün Yaxın Şərqdə, o cümlədən türk-müsəlman dünyasında hüququn aliliyinə əsaslanan dünyəvi demokratik dövlətin ilk modeli idi. Bugünkü Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin layiqli varisidir.

Həm millətlərarası, həm də dinlərarası münaqişələrin alovlandığı bu amansız dünyada Azərbaycan sabitlik, firavanlıq, tolerantlıq və bütün konfessiyaların nümayəndələrinin dinc yanaşı yaşadığı adadır.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, İsrail Dövləti Azərbaycanda yaşayan bütün icmalara, o cümlədən yəhudi icmasına Azərbaycanın və cənab Prezident, şəxsən Sizin dünyada presedentləri olmayan diqqətli və səmimi münasibətinizi yüksək qiymətləndirir. Siz dünyəvi dövlətə, multikulturalizmə və tolerantlığa, Azərbaycanda yaşayan bütün konfessiyalara və xalqlara hörmətli münasibətinizə görə İsrail cəmiyyətinin böyük hissəsinin haqlı hörmətini qazanmısınız.

Hörmətli cənab Prezident, Sizə və Sizin gözəl ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, məsul dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Arye QUT,***
***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail Dövlətindəki nümayəndəliyinin direktoru,***
***"Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri***

## Milli Məclisin iclasında

# Parlamentin yaz sessiyası başa çatdı




**Mayın 31-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Gündəlik təsdiq edildikdən sonra deputatlar əvvəlcə cari məsələlərlə bağlı fikirlərini bildirdilər.**

İlk çıxış edən deputat Nizami Səfərov Azərbaycan Ordusunun zabiti Ramil Səfərovun işi ilə bağlı bəzi hüquqi məsələlərə aydınlıq gətirdi. Avropa İnsan Hüquqları Məhkəməsinin mayın 26-da çıxardığı qərarla bağlı ətraflı məlumat verən deputat qeyd etdi ki, Azərbaycan Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndindən irəli gələrək 31 avqust 2012-ci il ildə Prezident İlham Əliyev tərəfindən Ramil Səfərov barəsində verilən əfv fərmanı birmənalı olaraq beynəlxalq hüquqi razılaşmadan irəli gəlir və dövlətimizin öz üzərinə götürdüyü öhdəliklərin hüquqi çərçivəsindədir. Ümumxalq səsverməsi ilə, referendumla qəbul edilən Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş dövlət başçısının əfvetmə səlahiyyətləri suveren qaydada həyata keçirilir. Heç bir dövlət, dövlətlər qrupu, beynəlxalq təşkilat, beynəlxalq məhkəmə bu səlahiyyətlərin realizə olunmasına müdaxilə edə bilməz.

Nizami Səfərov dedi ki, erməni tərəfi qarşısına qoyduğu məqsədinə nail ola bilməmişdir və Budapeşt şəhərində baş vermiş hadisəyə görə Azərbaycan Respublikasının substantiv mənada məsuliyyət daşıması barədə sərsəm iddiası tamamilə iflasa uğramışdır: "Məlum hadisə ermənilərin provokativ və təhqiramiz davranışına dözə bilməyən Azərbaycan Ordusunun zabiti tərəfindən fərdi qaydada törədilən hadisədir və Azərbaycan dövlətinin, yaxud onun hansısa rəsmi orqanının bu hadisə ilə heç bir bağlılığı olmaması barədə məhkəmə aydın mesaj vermişdir".

Erməni tərəfinin ikinci uğursuzluğu Ramil Səfərovun transferinə görə Macarıstan Respublikasının məsuliyyətinin müəyyən edilməsi ilə bağlı olmuşdur. Məhkəmənin qənaətinə görə, bu məsələdə Macarıstan beynəlxalq öhdəliklərinin pozulmasına yol verməmişdir.

ABŞ Dövlət Departamenti 25 ildən artıq vaxt keçdiyini nəzərə alaraq, Dağlıq Qarabağla bağlı mühüm hərbi-siyasi hadisələrə dair məxfi şifrəli onlarla sənədi ictimaiyyət üçün açıq elan etdiyini deyən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Orucun sözlərinə görə, sənədlərlə tanışlıq bir daha sübut edir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın hərbi və iqtisadi cəhətdən ən zəif dövründə təslimçilik aktlarına bərabər sayıla biləcək onlarla diplomatik təklifləri, yaxud "sülh planı" adı altında hazırlanan sənədləri rədd edib. "Bundan ötrü böyük cəsarət və iradə tələb olunurdu. Nəzərə alın ki, o vaxt regionda Azərbaycan Prezidenti yeganə dövlət başçısı olub ki, belə mövqe tutub və Ermənistanın işğal reallığını diplomatik sənədlər üzərinə daşıyıb", - deyə Zahid Oruc bildirdi.

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, deputatlardan Müşfiq Məmmədli, Cavid Osmanov, Bəhruz Məhərrəmov, Şahin İsmayılov, Əli Məsimli, Müşfiq Cəfərov, Etibar Əliyev bir sıra məsələlərə dair fikirlərini bildirdilər, təkliflərlə çıxış etdilər.

Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dedi ki, Prezident İlham Əliyev "Qobu Park-3" yaşayış kompleksinin açılışında AXC-nin gördüyü işləri xatırlamaqla yanaşı, həm də buraxılmış səhvləri, İrəvanın Ermənistana verilməsi və digər tarixi məsələlərlə bağlı problemləri yada saldı. Əli Hüseynli qeyd etdi ki, dövlət başçısı müasir Azərbaycan tarixi ilə bağlı vacib məsələləri açıqlamaqla həm də tarixçilərə dərs keçib: "Ölkə rəhbərinin fikirləri həm tövsiyə, həm də yanlışlıqlardan nəticə çıxararaq bir də belə səhvlərə yol verməmək xarakteri daşıyır. Heydər Əliyev hələ ötən əsrin 80-ci illərinin sonunda sovetlərin güclü dövründə AXC-nin üçrəngli bayrağını Naxçıvanda dalğalandırdı. Bu gün Azərbaycan tarixdə olmadığı qədər güclüdür. Real müstəqil dövlətin güclü siyasi liderinin qəbul etdiyi qərarlar nəticəsində Ramil Səfərov bu gün azadlıqdadır".

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında" sazişin təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında" sazişin təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş"ə Əlavə Protokolun təsdiq edilməsi barədə layihələri müzakirələrdən sonra qəbul olundu.

Qısa fasilədən sonra iclasda "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyinin və Türkmənistanın Azərbaycan Respublikasındakı səfirliyinin yerləşməsi üçün qarşılıqlı olaraq torpaq sahələrinin ayrılması haqqında" saziş və "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında 2008-ci il 19 may tarixli Sazişə dəyişikliklər və əlavələr edilməsi barədə" protokolun təsdiq edilməsi haqqında qanun layihələri təsdiqləndi.

İlk sənədlə bağlı məlumat verən parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov dedi ki, bu saziş Azərbaycan-Türkmənistan münasibətlərinin daha da inkişaf etdirilməsinə mühüm töhfə verəcək.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə ikinci sənədlə bağlı məlumat verərək dedi ki, protokola bir sıra əlavələrin edilməsi təklif edilir.

Milli Məclisin Azərbaycan-Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri, deputat Fəzail Ağamalı sənədləri yüksək dəyərləndirdi və qeyd etdi ki, sazişin ratifikasiya edilməsi münasibətlərə yeni dinamizm gətirəcək.

İclasda "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi bir oxunuşda müzakirəyə çıxarıldı. Qeyd edildi ki, adlar verilən şərabçılıq məhsullarına görə bir sıra dövlət rüsumları ləğv edilir. Belə ki, "Dövlət rüsumu haqqında" qanunun iki maddəsinin (18.62.2 və 18.62.3) ləğvi təklif olunub. Bu, adlar verilən şərabçılıq məhsullarına dövlət reyestrində qeydiyyata alınma üçün 10 manat və attestasiya üçün 10 manat dövlət rüsumunun ləğvini nəzərdə tutur.

Sənəd səsverməyə çıxarılaraq qəbul edildi. İclasda, həmçinin "Yeyinti məhsulları haqqında" qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanunn layihəsi də təsdiqləndi.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, parlamentdə çıxış edən deputat həmkarlarını narahat edən fikirlər səsləndirməməlidir. Lakin təəssüf olsun ki, parlamentin iclasında belə bir hal baş verir.

"Bu zalda oturan deputatlar - əlisilahlı döyüşən Elman Məmmədovdan tutmuş, sözü ilə beynəlxalq təşkilatlarda mübarizə aparan Tural Gəncəliyevə qədər hər kəs özünü qarabağlı kimi hiss edir. Hər kəs burada Qarabağ deputatıdır. Burada Ali Baş Komandanın tapşırıqlarını şərəflə yerinə yetirən, Aprel zəfərində xüsusi xidmətləri olan Müdafiə nazirini və nazirliyin fəaliyyətini şübhə altına qoymağa cəhd edilir. Birmənalı şəkildə bildirirəm ki, nəinki Yeni Azərbaycan Partiyasının üzvü olan deputatlar, bitərəflər və digər siyasi partiyaların üzvləri də bu mövqedədirlər ki, hansısa şəxsi maraqlarımız naminə ümumdövlət, Dağlıq Qarabağ problemi və müdafiə kimi məsələlərdə heç zaman başqa mövqe tutulmamalıdır".

Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli isə çıxış edərək dedi ki, Şimaldan, Cənubdan, Şərqdən və Qərbdən uzanan "iti caynaqlar" və məsud baxışlar Azərbaycanı kifayət qədər məsuliyyətli olmağa çağırır. Çünki kifayət qədər düşmənlərimiz var: "Belə bir məqamda bizim özümüzdən başqa birbirimizə söykənib, əl-ələ verib bu çətin məqamlarda ağır vəziyyətdən birlikdə çıxmaqdan başqa yolumuz yoxdur. Burada yeni seçilən deputatlar var. Təbii ki, düşüncələrində və fikirlərində səhvlərə yol verə bilərlər. Bizim kifayət qədər təcrübəli deputatlarımız da var. Müəyyən məsələlər var ki, o məsələlərdə çox diqqətli olmalıyıq. Burada deyilən hər bir söz dünya ictimaiyyətinə çatır və eyni zamanda qarşı tərəfə bir mesajdır. Ona görə də hər bir sözümüzü ölçüb-biçməliyik. Millətimiz, dövlətimiz, sərhədimiz və hərbimiz haqqında danışanda məsuliyyətli olmaq lazımdır".

Sədr Sahibə Qafarova da çıxış edərək müavinlərinin fikirləri ilə həmrəy olduğunu ifadə etdi.

İclasda, həmçinin Mülki Məcəllədə və Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi üçüncü oxunuşda təsdiqləndi. Birinci oxunuşda müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi isə geniş müzakirə mövzusu oldu.

Məcəlləyə edilən dəyişikliyə əsasən, karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı tələblərin pozulmasına görə cərimələr müəyyənləşdirilir.

Dəyişikliyə əsasən, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 50 manat məbləğində, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər 200 manat məbləğində cərimə ediləcək. Bu xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövrü başa çatanadək təkrar törədilməsinə görə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimələnəcək.

Müzakirələrdə çıxış edən parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, Milli Məclisin deputatları bu dövr ərzində böyük təbliğat işi ilə məşğul olub. Komitə sədrinin sözlərinə görə, maska taxmayanlar cərimə olunmalıdır: "Bu gün bu məsələdən yayınmaq istəyənlər var. Başqa cərimələri başa düşmək olar. Ancaq bu, sənin, ailənin, qonşunun sağlamlığı üçündür. Bu layihəyə bir maddə də salınmalıdır. Şayiələrin yayılmasına qarşı ən sərt tədbirlər görülməlidir. Kimsə maska taxmır, bəziləri də durub deyir ki, həmin insanların maska almağa imkanı yoxdur. Belədirsə, 30 qəpik verib maska alsın, daha 50 manat cərimə olunmasın.

Bəzisi deyir ki, cərimələr dövlət tərəfindən bağışlanacaq, bəzisi deyir ki, koronavirusdan ölənlərə şəhid statusu veriləcək. Yəni bunlar hər şeyi düşünür, maska taxmaqdan başqa..."

Deputat Fəzail Ağamalı isə dedi ki, karantin rejiminin yumşaldılması cəmiyyətdə müsbət qarşılansa da, məsuliyyətsiz vətəndaşlara görə yoluxma sayı artmaqdadır. Deputat Fazil Mustafa isə hesab edir ki, toy mərasimlərinin keçirilməsi məsələsinə aydınlıq gətirilməlidir. Konkret vaxt, tarix qoyulmalıdır. Çıxış yolu müəyyən edilməlidir. Konkret vaxt ərzində, məhdud sayda insanların iştirakı ilə bu tədbirlər keçirilməlidir.

Deputat Razi Nurullayev fərqli çıxış etdi. Onun fikrincə, pandemiya ilə əlaqədar dünyada sanki xəstələr gizlədilir. Buna görə də vətəndaşlar daha çox şayiələrə inanır. Deputat bu məsələdə bəzi sirlərin olduğunu desə də, Spiker Sahibə Qafarova onun fikri ilə razılaşmadı və qeyd etdi ki, koronavirusla bağlı Azərbaycanda hər hansı sirr yoxdur, bütün proses şəffaf aparılır.

Müzakirələrdən sonra sənəd səsverməyə çıxarılaraq ilk oxunuşda qəbul edildi.

Sonra iclasda "Ünvanlı dövlət sosial yardımı haqqında" və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ikinci oxunuşda təsdiqləndi.

Sonda isə Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, mayın 31-də parlamentin yaz sessiyasının sonuncu iclası keçirilsə də, 82 deputat növbədənkənar sessiyanın keçirilməsi üçün müraciət edib. Bununla bağlı sərəncam imzalanıb. Növbədənkənar sessiyanın ilk iclasları - iyunun 1-i və iyunun 2-də keçiriləcək.

Sədr bildirdi ki, ümumilikdə yaz sessiyasında 12 iclas keçirilib, 123 qanun və qərar, o cümlədən 2 Konstitusiya Qanunu qəbul edilib: "Prezident İlham Əliyevin parlamentin ilk iclasında verdiyi tövsiyə və tapşırıqların yerinə yetirilməsi üçün işlər görülüb. Yaz sessiyasının ilk günündən Milli Məclisin Aparatında və İşlər İdarəsində islahatlar aparılıb. Milli Məclisin Aparatında 13 əvəzinə 9 şöbə, işlər idarəsində 9 şöbə yerinə 4 şöbə saxlanılıb. İslahatlar parlamentin işinin daha yaxşı keçirilməsini təmin edəcək".

Sədr, həmçinin vurğuladı ki, Milli Məclisin deputatları və əməkdaşları tərəfindən Koronavirusla Mübarizə Fonduna 250 min manatdan çox vəsait köçürülüb.

İclas Dövlət himninin səslənməsi ilə başa çatdı.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 15-ci, 16-cı və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1) 312-ci maddəsinin ikinci hissəsində "25" rəqəmləri "18" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Torpaq Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12 (I kitab), maddə 2271; 2018, № 5, maddə 890, № 6, maddələr 1184, 1185; 2019, № 1, maddə 34, № 3, maddə 392, № 6, maddə 987) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 45-ci maddənin 4-cü bəndi üzrə:

2.1.1. birinci cümlədə hər iki halda "orqanlarının" sözü "orqanının" sözü ilə, "hesablarına" sözü "hesabına" sözü ilə əvəz edilsin;

2.1.2. ikinci cümlədə "vəsaitlərin bölgüsü və onlardan" sözləri "vəsaitdən" sözü ilə əvəz edilsin;

2.2. 56-cı maddənin 10-cu bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.2.1. ikinci cümlədə hər iki halda "orqanlarının" sözü "orqanının" sözü ilə, "hesablarına" sözü "hesabına, 7 faizi isə dövlət büdcəsinə" sözləri ilə əvəz edilsin;

2.2.2. üçüncü cümlədə "vəsaitin bölgüsü və ondan" sözləri "vəsaitdən" sözü ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590; № 5, maddələr 796, 801, 804, 812, 814; № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894) 22-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 22-1.1-ci maddə üzrə:

3.1.1. birinci cümlədə "Müvafiq icra hakimiyyəti orqanlarının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, həmçinin vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının" sözləri ilə, "orqanı tərəfindən müəyyən edilən hissəsi müvafiq icra hakimiyyəti orqanlarının hesablarına" sözləri "orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına, qalan hissəsi isə dövlət büdcəsinə" sözləri ilə əvəz edilsin;

3.1.2. ikinci cümlədə "vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı" sözləri "vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözü ilə əvəz edilsin;

3.2. 22-1.2-ci və 22-1.4-cü maddələrinin birinci cümlələrində hər iki halda "orqanların (qurumların) maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) hesablarına" sözləri "orqanın (qurumun) maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına, 7 faizi isə dövlət büdcəsinə" sözləri ilə, "50" rəqəmləri "43" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30, № 11, maddə 2211, № 12 (I kitab), maddə 2521; 2019, № 1, maddə 30, № 5, maddə 814, № 8, maddə 1383) 334-cü maddəsinin birinci cümləsində "ödənişləri" sözü "ödənişlərinin 93 faizi" sözləri ilə, hər iki halda "müvafiq icra hakimiyyəti orqanlarının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə, "hesablarına" sözü "hesabına" sözü ilə əvəz edilsin və həmin cümləyə "olunur" sözündən sonra ", qalan hissəsi isə dövlət büdcəsinə köçürülür" sözləri əlavə edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 5, maddə 755, № 6, maddələr 1019,1043; 2018, № 3, maddə 373, № 5, maddələr 837, 850, № 12 (I kitab), maddə 2535; 2019, № 1, maddə 23, № 3, maddələr 375, 391, № 6, maddə 987) 106-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. ikinci cümlədə "50" rəqəmləri "43" rəqəmləri ilə, hər iki halda "orqanlarının" sözü "orqanının" sözü ilə, "hesablarına" sözü "hesabına" sözü ilə əvəz edilsin;

5.2. üçüncü cümlədə "vəsaitin bölgüsü və ondan" sözləri "vəsaitdən" sözü ilə əvəz edilsin.

5.3. həmin maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Bu Məcəllənin 11.5-ci maddəsinə əsasən toplanan haqqın 7 faizi dövlət büdcəsinə köçürülür.".

**Maddə 6.** Bu Qanun 2020-ci il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 72-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1648-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" 2019-cu il 21 avqust tarixli 814 nömrəli, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" 2019-cu il 25 dekabr tarixli 902 nömrəli və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 72-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 22-1.1-ci maddəsinin birinci (hər üç halda) və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 22-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 22-1.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 22-1.1-ci maddəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 22-1.2-ci maddəsinin birinci cümləsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 22-1.4-cü maddəsinin birinci cümləsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

1.7. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 334-cü maddəsinin birinci cümləsində (birinci və ikinci hallarda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər.

2. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə "22-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda)" sözləri "22-1.1-ci maddəsinin birinci (hər üç halda) və ikinci cümlələrində" sözləri ilə, "22-1.3-cü (hər üç halda), 23.1.15-4-cü maddələrində" sözləri "22-1.3-cü (hər üç halda) maddəsində, 22-1.4-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 23.1.15-4-cü maddəsində" sözləri ilə əvəz edilsin;

2.2. 1.1-1-ci, 1.1-2-ci, 1.1-3-cü, 1.1-4-cü, 1.1-5-ci və 1.1-6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"1.1-1. həmin Məcəllənin 22-1.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.1-2. həmin Məcəllənin 22-1.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.1-3. həmin Məcəllənin 22-1.1-ci maddəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) və 22-1.3-cü maddəsində (birinci və üçüncü hallarda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.1-4. həmin Məcəllənin 22-1.2-ci və 22-1.4-cü maddələrinin ikinci cümlələrində "orqan (qurum)" dedikdə vəsaitin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.1-5. həmin Məcəllənin 22-1.2-ci maddəsinin birinci cümləsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.1-6. həmin Məcəllənin 22-1.4-cü maddəsinin birinci cümləsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;";

2.3. 1.1-7-ci və 1.1-9-cu bəndlər ləğv edilsin.

3. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1648-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 avqust tarixli 814 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1396) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 22-1.1-ci maddəsinə uyğun olaraq əldə olunan vəsaitin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin hesabına köçürülən hissəsi aşağıdakı kimi müəyyən edilsin:

2.1. 2019-2022-ci illər üçün - 93 faizi;

2.2. 2023-cü il və növbəti illər üçün - 43 faizi.".

4. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 902 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1945) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.3-cü və 2.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.3. həmin Məcəllənin 22-1.4-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə vəsaitin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Məcəllənin 22-1.4-cü maddəsinin birinci cümləsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;";

4.2. 2.5-ci və 2.6-cı bəndlər ləğv edilsin.

5. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793; 2014, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1194; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 384, № 5, maddə 761, № 7, maddələr 1322, 1335, № 8, maddə 1521; 2018, № 5, maddə 906, № 9, maddə 1844, № 12 (I kitab), maddə 2609) 28-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 28.1-1-ci və 28.1-2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"28.1-1. həmin Məcəllənin 334-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini vəsaitin orqanlar arasında bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirirlər;

28.1-2. həmin Məcəllənin 334-cü maddəsinin birinci cümləsində (birinci və ikinci hallarda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər;";

5.2. 28.1-3-cü bənd ləğv edilsin;

5.3. 28.7-ci bənddə "334-cü maddəsinin birinci cümləsində" sözləri "334-cü maddəsinin birinci cümləsində (üçüncü halda)" sözləri ilə əvəz edilsin;

5.4. 28.12-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 28.13-cü bənd əlavə edilsin:

"28.13. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 334-cü maddəsində nəzərdə tutulan, gömrük orqanları tərəfindən gömrük işi sahəsində aşkar edilmiş cinayətlər və gömrük qaydaları əleyhinə inzibati xətalar haqqında işlər üzrə məhkəmələrin qərarları əsasında dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin satışından əldə edilən vəsait, cərimələr və həmin Məcəllənin 224.1.5-ci və 224.1.6-cı maddələrində nəzərdə tutulan gömrük ödənişlərinin 93 faizi aşağıdakı kimi bölüşdürülür:

28.13.1. hər ay 250 000 manatı Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hesabına köçürülür;

28.13.2. bu Fərmanın 28.13.1-ci yarımbəndi nəzərə alınmaqla, qalan hissəsi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin işçilərinin sosial müdafiəsini gücləndirmək, gömrük orqanlarının, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tabeliyində olan qurumların maddi-texniki və sosial bazasını möhkəmləndirmək, habelə gömrük işi sahəsində elmi-texniki potensialın artırılmasına, elmi tədqiqat işlərinin, o cümlədən gömrük tənzimlənməsi vasitələrinin tətbiqi ilə bağlı tədqiqatların aparılmasına, beynəlxalq təcrübədə qəbul olunan yeni metod və üsulların öyrənilməsinə sərf etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülür.".

6. Bu Fərman 2020-ci il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 16.3-cü maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Hərbi qulluqçulara ictimai işlər, həmçinin bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xətalar istisna olmaqla digər inzibati xətalara görə inzibati həbs tətbiq edilə bilməz.".

1.2. 28.4.6-sı maddə aşağıdakı redaksiyada verilsin:

"28.4.6. hərbi qulluqçulara.".

1.3. 30-cu maddə üzrə:

1.3.1. 30.1-ci maddədə "ayrı-ayrı növlərinə görə" sözlərindən sonra "üç gündən" sözləri əlavə edilsin;

1.3.2. 30.2-ci maddədə "həmçinin hərbi qulluqçular, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları" sözləri "habelə bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xətalar istisna olmaqla digər inzibati xətalara görə hərbi qulluqçular" sözləri ilə əvəz edilsin.

1.4. 31.4-cü maddədə "üçdə" sözü "dörddə" sözü ilə əvəz edilsin.

1.5. Aşağıdakı məzmunda 31.4-1-ci maddə əlavə edilsin:

"31.4-1. İnzibati qaydada tutulmuş şəxs barəsində inzibati həbs istisna olmaqla tətbiq edilən digər inzibati tənbehin həddi, bu Məcəllənin Xüsusi hissəsində inzibati xətanın törədilməsinə görə müəyyən edilən inzibati tənbehin yuxarı həddinin dörddə üçündən çox ola bilməz.".

1.6. Aşağıdakı məzmunda 34-1-ci maddə əlavə edilsin:

**"Maddə 34-1. İnzibati xətaya görə daha yüngül inzibati tənbeh tətbiq etmə**

Bu Məcəllənin Xüsusi hissəsində inzibati xətaya görə müəyyən edilmiş sanksiyada nəzərdə tutulmuş ictimai işlər və ya inzibati həbs növündə inzibati tənbehin tətbiq edilməsi bu Məcəllənin 28.4-cü və ya 30.2-ci maddələrinin tələblərinə əsasən mümkün olmadıqda, hakim inzibati xəta törətmiş şəxs barəsində bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş inzibati tənbeh əvəzinə iki yüz manatdan beş yüz manatadək məbləğdə cərimə növündə inzibati tənbeh tətbiq edir.".

1.7. 39.2-ci maddədə "227-ci maddəsində" sözləri "227, 232-1-ci və 351-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

1.8. 43-cü maddə üzrə:

1.8.1. 43.1-ci maddədə "197" rəqəmlərindən sonra ", 198.2, 198.3" rəqəmləri, "229," rəqəmlərindən sonra "232-1," rəqəmləri və "351," rəqəmlərindən sonra "351-1," rəqəmləri əlavə edilsin;

1.8.2. 43.4-cü maddədə "Bu Məcəllənin" sözlərindən sonra "610-618-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə, habelə bu Məcəllənin" sözləri əlavə edilsin.

1.9. 53.0.10-cu maddədə "227-ci maddəsində nəzərdə tutulan" sözləri "Xüsusi hissəsinin müvafiq maddələrinin Qeyd hissələrində bilavasitə müəyyən edilmiş hallarda" sözləri ilə əvəz edilsin.

*Ardı 10-cu səh.*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 9-cu səh.*

1.10.54-cü maddə üzrə:

1.10.1. 54.2-ci maddədə "və 606.1-ci" sözləri ", 606.1 və 610-618-ci" sözləri ilə əvəz edilsin;

1.10.2. 54.3-cü maddədə "qərardaddan" sözündən sonra "onun surətinin bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində" sözləri əlavə edilsin.

1.11.88.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 88.1.7-ci maddə əlavə edilsin:

"88.1.7. müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri - hərbi xidmət əleyhinə olan inzibati xəta törədildikdə.".

1.12.89.4-cü maddədə "və ya 535-ci," sözləri ", 535 və 610-618-ci" sözləri ilə əvəz edilsin.

1.13. Aşağıdakı məzmunda 99.3-1-ci maddə əlavə edilsin:

"99.3-1. Bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xəta hadisəsinin mövcudluğu ilə bağlı bu Məcəllənin 99.1-ci maddəsində göstərilən səbəblərdən biri və bu Məcəllənin 99.2-ci maddəsində göstərilən kifayət qədər əsaslar olduqda, müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli vəzifəli şəxsi inzibati xəta haqqında iş üzrə icraatın başlanması üçün zəruri məlumatları toplayaraq ərazi üzrə müvafiq hərbi prokurora göndərir.".

1.14.99.4.3-cü maddədə "qərardad" sözündən sonra "(qərar)" sözü əlavə edilsin.

1.15.102.1-ci maddədə "qaydaları" sözündən sonra ", hərbi xidmət" sözləri, "227-ci," sözlərindən sonra "232-1-ci, 351-1-ci," sözləri əlavə edilsin.

1.16.103.1-ci və 103.2-ci maddələrdə "prokurorun qərarı" sözləri "prokurorun inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarı və ya bu Məcəllənin 102.6-cı maddəsində nəzərdə tutulmuş qaydada tərtib etdiyi protokol" sözləri ilə əvəz edilsin.

1.17.129.1.2, 130.1-ci və 130.2-ci maddələrdə "şikayət" sözündən sonra "və ya protest" sözləri əlavə edilsin.

1.18.156-cı maddə üzrə:

1.18.1. 156.2-ci maddədə "tətbiq edilmiş şəxslər" sözü "tətbiq edilmiş bu Məcəllənin 610-618-ci maddələrində göstərilən xətaları törətmiş şəxslər hauptvaxtda, digər şəxslər isə" sözləri ilə əvəz edilsin;

1.18.2. 156.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"156.3. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun inzibati həbs müddəti hərbi xidmət müddətinə daxil edilmir.".

1.19.198.0-cı maddə üzrə:

1.19.1. maddənin sanksiyasında "min manatdan iki" sözləri "beş yüz manatdan" sözləri ilə əvəz edilsin;

1.19.2. 198.0-cı, 198.0.1 - 198.0.10-cu maddələr müvafiq olaraq 198.1-ci, 198.1.1 - 198.1.10-cu maddələr hesab edilsin və aşağıdakı məzmunda 198.2-ci və 198.3-cü maddələr əlavə edilsin:

"198.2. Texniki təhlükəsizlik və ya əmək mühafizəsinin başqa qaydalarına riayət edilməsi vəzifəsi həvalə edilmiş şəxs tərəfindən bu qaydaların pozulması nəticəsində ehtiyatsızlıqdan insan sağlamlığına yüngül zərərin vurulmasına görə -

min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

198.3. Bu Məcəllənin 198.2-ci maddəsində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda -

min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.".

1.20. Aşağıdakı məzmunda 215.4-cü maddə əlavə edilsin:

"215.4. Qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılmasına görə -

vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.".

1.21.Aşağıdakı məzmunda 232-1-ci maddə əlavə edilsin:

**"Maddə 232-1. Əmlakı qəsdən məhv etmə və ya zədələmə**

Özgənin əmlakını qəsdən məhv etməyə və ya zədələməyə görə, bu az miqdarda ziyan vurduqda -

inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu maddədə "az miqdar" dedikdə, beş min manatdan yuxarı olmayan məbləğ başa düşülür.".

1.22.262-ci maddənin "Qeyd" hissəsində "maddədə" sözü "Məcəllənin 262.3-cü maddəsində" sözləri ilə, "min manatadək olan" sözləri "beş min manatdan yuxarı olmayan" sözləri ilə əvəz edilsin.

1.23. Aşağıdakı məzmunda 351-1-ci maddə əlavə edilsin:

**"Maddə 351-1. Nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma**

Dağıtmaq, zədələmək və ya başqa üsulla yolların, nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlığının yararsız vəziyyətə salınması -

inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu maddədə nəzərdə tutulmuş əməl külli məbləğdə (əlli min manatdan artıq) ziyan vurduqda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.".

1.24.398-ci maddənin "Qeyd" hissəsinin 1-ci bəndində "iyirmi" sözü "əlli" sözü ilə əvəz edilsin.

1.25. 420-ci maddənin "Qeyd" hissəsinin 2-ci bəndində "yüz" sözü "iki yüz" sözləri ilə əvəz edilsin.

1.26.431-ci maddənin "Qeyd" hissəsində "yüz" sözü "iki yüz" sözləri ilə əvəz edilsin.

1.27.449-cu maddənin "Qeyd" hissəsində "iyirmi" sözü "əlli" sözü ilə əvəz edilsin.

1.28.460-cı maddənin "Qeyd" hissəsinin 1-ci bəndində "iyirmi" sözü "əlli" sözü ilə əvəz edilsin.

1.29.479-cu maddə üzrə:

1.29.1. sanksiyada "altmış faizindən yüz" sözləri "qırx faizindən altmış" sözləri ilə əvəz edilsin;

1.29.2. "Qeyd" hissəsində "dörd" sözü "əlli" sözü ilə əvəz edilsin.

1.30.480-ci, 481-ci və 482.1-ci maddələrin sanksiyasında "altmış faizindən yüz" sözləri "qırx faizindən altmış" sözləri ilə, 482.2-ci maddənin sanksiyasında "yüz" sözü "altmış" sözü ilə əvəz edilsin.

1.31.aşağıdakı məzmunda 41-ci fəsil əlavə edilsin:

**"FƏSİL 41**

**Hərbi xidmət əleyhinə olan inzibati xətalar**

**Maddə 610. Rəisin, yaxud hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsin şərəf və ləyaqətini alçaltma**

Rəisin, yaxud hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsin hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar şərəf və ləyaqətini alçaltma -

on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 611. Tabelikdə olan hərbi qulluqçunun şərəf və ləyaqətini alçaltma**

Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan şəxsin şərəf və ləyaqətini alçaltması -

on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 612. Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma**

612.1. Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma, yəni bir hərbi qulluqçunun digərinin şərəf və ləyaqətini alçaltması və ya ona zor tətbiq etməsi -

on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

612.2. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantları arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozaraq zərərçəkmiş şəxsə qarşı zor tətbiq etməklə, yaxud hədə-qorxu tətbiq etməklə özgənin az miqdarda əmlakını və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə -

bir aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Qeyd:**

**1.** Bu Məcəllənin 612.1-ci maddəsində nəzərdə tutulmuş əməl sağlamlığa ağır, az ağır və ya yüngül zərər vurmaqla törədildikdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

**2.** Bu Məcəllənin 612.2-ci maddəsində "az miqdar" dedikdə, yüz manatdan yuxarı olmayan məbləğ başa düşülür.

**Maddə 613. Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə**

613.1. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantının hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə vaxtında gəlməməsi bir gündən artıq, lakin üç gündən çox olmayaraq törədildikdə -

on günədək müddətə inzibati həbs tətbiq olunur.

613.2. Zabitin, gizirin, miçmanın, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi, habelə üzrlü səbəblər olmadan hərbi hissəyə və ya xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmayaraq törədildikdə -

iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

613.3. Bu Məcəllənin 613.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

613.4. Bu Məcəllənin 613.2-ci maddəsində nəzərdə tutulmuş əməllərin inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 614. Hərbi əmlakı itirmə, məhv etmə və ya zədələmə**

614.1. Hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaqla itirilməsi -

on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

614.2. Silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular və ya hərbi texnika istisna olmaqla sair hərbi əmlakı qəsdən az miqdarda məhv etmə və ya zədələmə -

on beş gündən iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Qeyd:**

**1.** Bu Məcəllənin 614.1-ci maddəsində nəzərdə tutulmuş əməl mühüm zərər vurduqda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

**2.** Bu Məcəllənin 614.2-ci maddəsində "az miqdar" dedikdə, beş min manatdan yuxarı olmayan məbləğ başa düşülür.

**Maddə 615. Silahla və yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma**

Silahla, hərbi sursatla, radioaktiv materiallarla, partlayıcı maddələrlə, habelə ətrafdakılar üçün yüksək təhlükə törədən maddə və əşyalarla davranış qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurduqda -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 616. Maşınları idarəetmə və istismar qaydalarını pozma**

Döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə və istismar qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 617. Hərbi uçuş aparatlarının istismar qaydalarını pozma**

617.1. Hərbi uçuş aparatlarının uçuş, uçuşa hazırlıq və ya sair istismar qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

617.2. Bu Məcəllənin 617.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda -

beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Maddə 618. Hərbi gəmiləri idarəetmə və ya istismar qaydalarını pozma**

618.1. Hərbi gəmiləri idarəetmə və ya istismar qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.

618.2. Bu Məcəllənin 618.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda -

beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.".

**Maddə 2. Bu Qanun 2020-ci il iyunun 1-dən qüvvəyə minir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 69-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 69-VIQD nömrəli Qanununun 2020-ci il iyunun 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, №2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 mart tarixli 962 nömrəli, 19 mart tarixli 964, 965 nömrəli və 7 may tarixli 1015 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.4-cü bənddə "və 114.2.2-ci maddəsində" sözləri ", 88.1.7-ci, 99.3-1-ci və 114.2.2-ci maddələrində " sözləri ilə əvəz edilsin;

1.2. 5.4-cü bənddə "198 - 203-cü" sözləri "198.1-ci, 199 - 203-cü" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, №9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 mart tarixli 976 nömrəli və 1 may tarixli 1013 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissədə "290.3 (səlahiyyətlərinə aid edilmiş maddələr üzrə)," sözləri "232-1, 290.3 (səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 351-1," sözləri ilə əvəz edilsin;

2.2. 13-cü hissədə "196," rəqəmlərindən sonra "198.2, 198.3," rəqəmləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 69-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2020-ci il iyunun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

# "Yol hərəkəti haqqında", "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında", "Dövlət rüsumu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 15-ci, 16-cı, 19-cu, 20-ci, 23-cü və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376) 23-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin birinci cümləsində birinci halda "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlarının (qurumlarının)" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə, "vəsaitlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) hesablarına köçürülür" sözləri "vəsaitin 93 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına, 7 faizi isə dövlət büdcəsinə köçürülür" sözləri ilə, ikinci cümləsində isə "Bu vəsaitlərin bölgüsü və onlardan" sözləri "Bu vəsaitdən" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü hissədən "subyektlər tərəfindən" sözləri çıxarılsın.

**Maddə 2.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894, № 12 (I kitab), maddə 2502; 2019, № 1, maddə 35, № 3, maddə 380) 20-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində "tətbiq edilən" sözlərindən sonra "və bu Qanunun 19.1-ci maddəsində nəzərdə tutulan fonda daxil olan" sözləri və "hesabına" sözündən sonra ", 7 faizi isə dövlət büdcəsinə" sözləri əlavə edilsin, habelə həmin cümlədə "50" rəqəmləri "43" rəqəmləri ilə, "30" rəqəmləri "23" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 3.** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4; 2001, № 3, maddə 141; 2007, № 12, maddə 1212; 2008, № 11, maddə 960; 2014, № 4, maddə 331; 2015, № 4, maddə 352; 2016, № 3, maddə 419; 2018, № 4, maddə 651; 2019, № 1, maddələr 36, 47, № 12, maddə 1904) 15-9.2-ci maddəsində "50" rəqəmləri "43" rəqəmləri ilə, "30" rəqəmləri "23" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "hesabına" sözündən sonra ", 7 faizi isə dövlət büdcəsinə" sözləri əlavə edilsin.

**Maddə 4.** "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514; 2018, № 12 (I kitab), maddə 2503; 2019, № 3, maddə 381, № 8, maddə 1382) 23-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.2. birinci cümlə üzrə:

4.2.1. "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.2.2. "tətbiq edilən" sözlərindən sonra "və bu Qanunun 20.1-ci maddəsində nəzərdə tutulan fonda daxil olan" sözləri əlavə edilsin;

4.2.3. "50" rəqəmləri "43" rəqəmləri ilə əvəz edilsin;

4.2.4. hər iki halda "orqanlarının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

4.2.5. "hesablarına" sözü "hesabına, 7 faizi isə dövlət büdcəsinə" sözləri ilə əvəz edilsin;

4.3. ikinci cümlədə "Bu vəsaitlərin bölgüsü və onlardan" sözləri "Bu vəsaitdən" sözləri ilə və "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669; 2019, № 1, maddə 35, № 3, maddə 381, № 12, maddə 1892; 2020, № 1, maddə 1) 33.2-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. birinci cümlədə "25" rəqəmləri "18" rəqəmləri ilə əvəz edilsin;

5.2. hər iki halda "orqanların (qurumların)" sözləri "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

5.3. "hesablarına" sözü "hesabına" sözü ilə əvəz edilsin;

5.4. ikinci cümlədə "Bu vəsaitlərin bölgüsü və onlardan" sözləri "Bu vəsaitdən" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddə 1371, № 11, maddələr 1681, 1694) 4-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4.1-ci maddədə "25" rəqəmləri "18" rəqəmləri ilə və "qurumların" sözü "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

6.2. 4.1-1-ci maddə üzrə:

6.2.1. hər iki halda "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

6.2.2. "50" rəqəmləri "43" rəqəmləri ilə əvəz edilsin;

*Ardı 11-ci səh.*

# "Yol hərəkəti haqqında", "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında", "Dövlət rüsumu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 10-cu səh.*

6.2.3. hər iki halda "müvafiq icra hakimiyyəti orqanlarının" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

6.2.4. "hesablarına" sözü "hesabına" sözü ilə əvəz edilsin;

6.3. 4.1-2-ci maddədə "50" rəqəmləri "43" rəqəmləri ilə əvəz edilsin;

6.4. 4.1-3-cü maddədə "30" rəqəmləri "23" rəqəmləri ilə əvəz edilsin;

6.5. 4.1-4-cü maddədə "30" rəqəmləri "23" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "hesabına" sözündən sonra ", 7 faizi dövlət büdcəsinə" sözləri əlavə edilsin;

6.6. 4.1-5-ci maddədə "vəsaitlərin bölgüsü və onlardan" sözləri "vəsaitlərdən" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497; 1999, № 5, maddə 285; 2001, № 3, maddələr 141, 142, 143, 144, №11, maddələr 672, 687, 693; 2002, № 5, maddələr 240, 244, № 6, maddə 328;2003, № 6, maddə 256; 2004, № 4, maddə 199, № 6, maddə 396, № 7, maddə 507; 2006, № 2, maddə 66, № 12, maddə 1028; 2007, № 6, maddə 560, №11, maddə 1052, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2009, № 2, maddə 46, № 12, maddə 949; 2010, № 11, maddə 962; 2011, № 2, maddələr 70, 71, № 7, maddə 616; 2012, № 6, maddə 510; 2013, № 11, maddələr 1285, 1305, 1316; 2015, № 2, maddə 104, № 4, maddə 345, № 6, maddə 681; 2016, № 2, maddə 189, № 4, maddə 658; 2017, № 6, maddə 1060, № 7, maddə 1262; 2019, № 2, maddə 180, № 9, maddə 1484) 56-cı maddəsinin altıncı hissəsində "25" rəqəmləri "18" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 8.** "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472; 2001, № 3, maddə 148; 2002, № 5, maddə 238; 2003, № 4, maddə 178; 2004, № 2, maddə 57, № 4, maddə 201; 2008, № 2, maddə 47; 2009, № 10, maddə 769; 2013, № 3, maddə 209; 2014, № 4, maddə 338, № 10, maddə 1152; 2016, № 12, maddə 2011; 2017, № 2, maddə 142, № 6, maddə 1013; 2018, № 7 (I kitab), maddə 1398; 2019, № 1, maddə 20) 27-ci maddəsinə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna daxil olan vəsaitin 7 faizi dövlət büdcəsinə köçürülür.".

**Maddə 9.** "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 682; 2007, № 12, maddə 1218; 2008, № 2, maddə 49, № 5, maddə 344; 2009, № 12, maddələr 948, 968; 2014, № 10, maddə 1151; 2018, № 4, maddə 640, № 12 (I kitab), maddə 2490, № 6, maddə 995, № 8, maddə 1630) 39.4-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1. birinci cümlədə "50" rəqəmləri "43" rəqəmləri ilə əvəz edilsin;

9.2. ikinci cümlədə "vəsaitlərin bölgüsü və onlardan" sözləri "vəsaitlərdən" sözü ilə əvəz edilsin.

**Maddə 10.** "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 655; 2007, № 6, maddə 595; 2009, № 12, maddələr 948, 954, 968; 2011, № 2, maddə 71; 2014, № 10, maddə 1150; 2016, № 6, maddə 1013; 2017, № 5, maddə 713; 2018, № 4, maddə 641, № 12 (I kitab), maddə 2491; 2019, № 5, maddə 813) 34.5-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

10.1. birinci cümlədə "50" rəqəmləri "43" rəqəmləri ilə əvəz edilsin;

10.2. ikinci cümlədə "vəsaitlərin bölgüsü və onlardan" sözləri "vəsaitlərdən" sözü ilə əvəz edilsin.

**Maddə 11.** "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 8; 2001, № 12, maddə 736; 2003, № 1, maddə 7; 2004, № 1, maddə 6; 2007, № 6, maddə 560; 2009, № 2, maddələr 49, 55; 2011, № 4, maddə 257; 2013, № 11, maddə 1290; 2014, № 11, maddə 1365; 2015, № 11, maddə 1252; 2017, № 5, maddələr 718, 747; 2018, № 4, maddə 642, № 12 (II kitab), maddə 2492; 2019, № 6, maddələr 993, 995, №8, maddə 1383) 8-ci maddəsinin beşinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

11.1. birinci cümlədə "50" rəqəmləri "43" rəqəmləri ilə əvəz edilsin;

11.2. ikinci cümlədə "vəsaitlərin bölgüsü və onlardan" sözləri "vəsaitlərdən" sözü ilə əvəz edilsin.

**Maddə 12.** Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 972; 2010, № 4, maddə 273, № 5, maddə 385; 2011, № 4, maddə 271; 2012, № 5, maddə 412, № 11, maddələr 1042, 1050; 2013, № 3, maddə 228, № 12, maddə 1468; 2016, № 6, maddə 985; 2017, № 7, maddə 1256, № 8, maddə 1508, № 12 (I kitab), maddə 2206; 2018, № 3, maddə 391, № 12 (I kitab), maddə 2474) ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin 90-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

12.1. birinci cümlədə "25 faizi müvafiq icra hakimiyyəti orqanlarının" sözləri "18 faizi müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə və "orqanlarının hesablarına" sözləri "orqanının hesabına" sözləri ilə əvəz edilsin;

12.2. ikinci cümlədə "vəsaitlərin bölgüsü və onlardan" sözləri "vəsaitlərdən" sözü ilə əvəz edilsin.

**Maddə 13.** Bu Qanun 2020-ci il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# "Yol hərəkəti haqqında", "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında", "Dövlət rüsumu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 71-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 22 noyabr tarixli 24 nömrəli, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 5 avqust tarixli 1569 nömrəli, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 24 avqust tarixli 233 nömrəli, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 621 nömrəli və "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 25 dekabr tarixli 206 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yol hərəkəti haqqında", "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında", "Dövlət rüsumu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 71-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 23-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;

1.3. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinin adında, birinci (hər üç halda) və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 23-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.5. həmin Qanunun 23-cü maddəsinin adında və birinci cümləsində (hər üç halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 33.2-ci maddəsinin birinci cümləsində (ikinci və dördüncü hallarda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.7. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-1-ci maddəsində (ikinci və dördüncü hallarda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.8. həmin Qanunun 4.1-ci maddəsində "orqan (qurum)" dedikdə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən dövlət orqanları, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslər, habelə dövlət notariat ofisləri nəzərdə tutulur;

1.9. həmin Qanunun 4.1-1-ci maddəsində (hər dörd halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

1.1.10. Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin 90-1-ci maddəsinin birinci cümləsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.

2. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666; 2001, № 7, maddə 459; 2003, № 10, maddələr 546, 571; 2004, № 8, maddə 617, № 12, maddə 1005; 2006, № 9, maddə 743; 2008, № 8, maddə 719; 2009, № 4, maddə 226, № 8, maddə 630; 2010, № 7, maddə 606; 2011, № 6, maddə 510; 2012, № 5, maddə 423, № 11, maddə 1079; 2014, № 9, maddə 1043; 2015, № 2, maddələr 110, 140, № 6, maddə 707, № 10, maddə 1116; 2016, № 3, maddə 456, № 4, maddələr 662, 666, № 6, maddə 1062, № 11, maddə 1839; 2017, № 5, maddə 758, № 8, maddə 1521; 2018, № 2, maddələr 169, 197, № 4, maddə 677, № 6, maddə 1241, № 7 (I kitab), maddələr 1466, 1493; 2019, № 1, maddə 96, № 3, maddə 420, № 7, maddə 1228, № 8, maddələr 1402, 1406) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci və 2.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. həmin Qanunun 23-cü maddəsinin 2-ci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 23-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda) və "Qeyd" hissəsində (hər üç halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur;";

2.2. 2.3-1-ci bənd ləğv edilsin;

2.3. 2.4-cü bənddən "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətinin işçiləri və" sözləri çıxarılsın.

3. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1516; 2018, № 12 (I kitab), maddə 2579; 2019, № 6, maddə 1038, № 7, maddə 1217, № 12, maddə 1922) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "və 21.0.5-ci maddələrində" sözləri ", 21.0.5-ci maddələrində, 23-cü maddəsinin adında, birinci (hər üç halda) və ikinci cümlələrində" sözləri ilə əvəz edilsin;

3.2. 2.6-cı və 2.7-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.6. həmin Qanunun 23-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.7. həmin Qanunun 23-cü maddəsinin adında və birinci cümləsində (hər üç halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;";

3.3. 2.10-cu və 2.11-ci bəndlər ləğv edilsin.

4. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1683; 2019, № 7, maddə 1217) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.3. həmin Qanunun 33.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.2. 2.5-ci bənddə "(birinci və ikinci hallarda)" sözləri "(hər dörd halda)" sözləri ilə əvəz edilsin;

4.3. 2.19-cu və 2.20-ci bəndlər ləğv edilsin.

5. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, №11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 7 (I kitab), maddə 1489, № 12 (I kitab), maddə 2552; 2019, № 1, maddə 95, № 6, maddə 1044, № 7, maddə 1248, № 11, maddə 1699) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə "4.1-ci" sözlərindən sonra ", 4.1-1-ci (hər dörd halda)" sözləri əlavə edilsin;

5.2. 2.1-1-ci bənddən "vəsaitlərin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə)," sözləri çıxarılsın və həmin bənddə "bu Qanunun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

5.3. 2.1-2-ci bənddə "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, bu" sözləri "həmin" sözləri ilə əvəz edilsin;

5.4. 2.1-3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.1-3. həmin Qanunun 4.1-1-ci maddəsində (hər dörd halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzərdə tutulur;";

5.5. 2.1-4-cü bəndə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin;

5.6. 2.1-5-ci, 2.1-9-cu, 2.1-11-ci, 2.1-12-ci, 2.1-14-cü və 2.1-15-ci bəndlər ləğv edilsin;

5.7. 2.1-8-ci, 2.1-10-cu və 2.1-13-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1-8. həmin Qanunun 4.1-2-ci maddəsində (ikinci və üçüncü hallarda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;";

"2.1-10. həmin Qanunun 4.1-3-cü maddəsində (hər üç halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;";

"2.1-13. həmin Qanunun 4.1-4-cü maddəsində (hər üç halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;".

6. "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 994; 2010, № 7, maddə 625; 2011, № 4, maddə 294; 2012, № 5, maddə 425; 2013, № 3, maddə 253, № 5, maddə 515, № 6, maddə 645, № 12, maddə 1518; 2014, № 5, maddə 471; 2017, № 5, maddə 759, № 7, maddə 1328) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-1-ci, 2.1-2-ci və 2.1-3-cü bəndlər ləğv edilsin;

6.2. 2.2-ci bəndə "88-1-ci maddələrində" sözlərindən sonra "və 90-1-ci maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

6.3. 2.3-cü bəndə "89-cu maddələrində" sözlərindən sonra ", 90-1-ci maddəsinin birinci cümləsində (hər iki halda)" sözləri əlavə edilsin;

7. Bu Fərman 2020-ci il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

# Nazirlər Kabineti xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə qərar verib

**Baş Nazir Əli Əsədov "Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə" qərar imzalayıb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qərara əsasən:

1. Azərbaycan Respublikasının ərazisində yeni növ koronavirus (COVID-19) infeksiyasının insanlar arasında kütləvi yayılmasının qarşısının alınması məqsədilə aşağıda qeyd edilən hallarda sosial məsafəni gözləmək (insanlararası məsafə 1,5-2 metr) şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə edilməlidir:

1.1. şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişindaşımada istifadə olunan nəqliyyat vasitələrində (avtobus, taksi, metro, dəmiryolu və s.);

1.2. bazarlarda, qapalı ictimai iaşə, ticarət və xidmət obyektlərində (həmin obyektlərdə göstərilən xidmət növündən asılı olaraq tənəffüs yollarını qoruyan fərdi vasitələrin çıxarılmasının zəruri olduğu hallar istisna olmaqla);

1.3. dövlət orqanlarının (qurumlarının) binalarında vətəndaşların qəbulu və vətəndaşlara xidmət üçün nəzərdə tutulan sahələrdə;

1.4. fiziki və hüquqi şəxslərə məxsus binaların müştərilərə xidmət göstərilməsi üçün istifadə edilən sahələrində;

1.5. açıq sahəli ofislərdə və istehsalat yerlərində;

1.6. tarix və mədəniyyət abidələri hesab edilən qapalı məkanlarda, ibadət yerlərində, elm və səhiyyə müəssisələrində, sosial, mədəniyyət və digər bu kimi qapalı obyektlərdə;

1.7. ictimai nəqliyyat dayanacaqlarında, bilet kassalarının, bankomatların (ATM) və ödəniş terminallarının, ticarət, iş və xidmət obyektlərinin qarşısında növbədə;

1.8. insanların toplaşdığı və yaxın təmasda olduğu açıq havadakı ictimai yerlərdə onlar arasında sosial məsafənin qorunmasının mümkün olmadığı digər hallarda.

2. Tənəffüs yollarını qoruyan fərdi vasitələrin istifadəsi yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı digər qoruyucu tədbirləri (gigiyena, sosial məsafə və s.) əvəz etmir və həmin qoruyucu tədbirlərin görülməsi davam etdirilməlidir.

3. Bu qərarın 1-ci hissəsinin tələblərinin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

## 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

**Ailə xoşbəxtliyinin ən böyük göstəricisi olan uşaqlar sabaha aydın gözlərlə baxmağımızın təminatçısıdır. Həyatda ən saf qəlbə məxsus olan şəxslər elə məhz uşaqlardır. Hətta deyiblər ki, uşaqlıq saflığını itirməyən insan böyük insan sayılır. Uşaq elə bir qüvvədir ki, o, ailənin dayağına çevrilir, xoşbəxtlik cücərtilərinin möhkəmlənməsinə yol açır. Bu xoşbəxtliyin daha uzunömürlü və sağlam olması üçün əlbəttə ki, uşaqları qorumaq, onların hüquqlarının müdafiəsi yolunda çalışmaq lazımdır.**



# Uşaqların layiqli vətəndaş kimi formalaşması prioritet istiqamətdir

Gələcəyimiz olan uşaqları haqsızlıqdan, ədalətsizlikdən, bütün təhlükələrdən qorumaq bəşəriyyəti narahat edən əsas məsələdir. Dünyanın hər yerində uşaqlara qayğı və onların qorunması xüsusi əhəmiyyət kəsb edir. Hər bir ölkə uşaqları qorumağı, onları müdafiə etməyi özünün əsas vəzifəsi hesab edir. Bu müdafiənin daha möhkəm olması üçün müxtəlif beynəlxalq təşkilatlar yaradılır, qlobal səviyyəli sənədlər qəbul olunur, beynəlxalq forumlar, tədbirlər, konfranslar həyata keçirilir. Uşaq hüquqlarının beynəlxalq miqyasda qorunması üçün 1950-ci il iyunun 1-də BMT Baş Assambleyasının təşkilatçılığı ilə keçirilən qadınların beynəlxalq konfransında iyunun 1-ni uşaqların müdafiəsinə həsr etmək qərara alınmışdır. Bundan sonra həmin gün Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşmüşdür. Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da bu gün 70 ildir ki, ənənə halını alaraq, hər il qeyd edilir.

Hazırda ölkəmizdə 2 622 400 uşaq var. Uşaqların sağlamlığının qorunması, keyfiyyətli təhsil alması, onların zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunması, cəmiyyət üçün layiqli vətəndaş kimi formalaşması dövlət siyasətinin başlıca istiqamətlərindəndir. Azərbaycanda həmişə uşaqlara məhəbbətlə yanaşılır, onların sağlam və gümrah, eyni zamanda, savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaradılır. Dövlət müstəqilliyimizə çox mürəkkəb ictimai-siyasi və hərbi vəziyyətdə nail olmağımıza baxmayaraq, dövlətimiz üçün uşaq hüquqlarının müdafiəsi hər zaman prioritet olub. Ölkəmiz müstəqillik əldə etdikdən sonra bu siyasətin uğurlu fəaliyyəti üçün daha ciddi addımlar atılmışdır. Azərbaycan 1992-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında Konvensiya"nı ratifikasiya etmişdir. Uşaq fəlsəfəsini mərkəz ideyası kimi ortaya qoyan Konvensiya dövlətimizin qəbul etdiyi ən əhəmiyyətli beynəlxalq sənədlər siyahısındadır. Bu Konvensiyanı ratifikasiya etməklə, dövlətimiz bütün uşaqların, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının müdafiəsinə qərarlı olduğunu bütün dünyaya sübut etdi. Azərbaycan Hökuməti Konvensiya üzrə BMT-nin Uşaq Hüquqları Komitəsinə dövri məruzələr təqdim edir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında 2012-ci və 2017-ci illərdə dövri məruzələrin hazırlanması üçün işçi qrup yaradılmış və bu qrupa rəhbərlik Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə həvalə edilmişdir. Azərbaycan, eyni zamanda, müvafiq Konvensiyanın iki əlavə protokoluna, eləcə də "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair", "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasına (Lanzarotta) və digər Konvensiyalara da qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır.

Uşaqlara dövlət qayğısının göstərilməsi, uşaq hüquqlarının xüsusi diqqət mərkəzində olması dövlət siyasətinin nə dərəcədə reallaşmasından və əhəmiyyətindən xəbər verir. **Ümummilli Lider Heydər Əliyev** hakimiyyətdə olduğu illərdə uşaq siyasətinin daha güclü təməllər üzərində qurulması və həyata keçirilməsi üçün fəaliyyətinin mühüm istiqamətlərini bu məsələyə yönəltmişdir. "Uşaqlara qayğı hər bir vətəndaşın borcudur" - deyən Heydər Əliyev həmişə qızıl vaxtından ayıraraq böyük zövqlə uşaqların bayram şənliklərində, tədbirlərində iştirak edərək onların qayğısına qalırdı. Ulu Öndər dövlət siyasətinin əsas qollarından sayılan uşaq siyasətinin inkişafını təmin etmək üçün beynəlxalq sənədlərə qoşulmaqla yanaşı, ölkə səviyyəsində mühüm qanunun qəbul edilməsini önəmli hesab etmiş, vahid qanunvericilik bazasının formalaşmasında mühüm rol oynamışdır. Uşaq hüquqları ilə bağlı yaranan münasibətləri tənzimləmək və bu hüquqların müdafiəsini təmin etmək məqsədilə 19 may 1998-ci ildə qəbul edilən **"Uşaq hüquqları" haqqında qanun** Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, onlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir, ailə, cəmiyyət və uşaq münasibətlərinin əsas istiqamətlərini tənzimləyir. 2009-cu ilin dövlətimiz tərəfindən "Uşaq ili" elan edilməsi bu istiqamətdə mühüm tədbirlərin həyata keçirilməsinə, dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətinin uşaq problemlərinin həllinə yönəldilməsinə xidmət etmişdir. Uşaq məsələləri ilə əlaqədar dövlət qurumları arasında koordinasiya və nəzarət sisteminin təkmilləşdirilməsi çox vacibdir. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"təsdiq edilmişdir. Dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqi aparılır və bu monitorinq nəticəsində tövsiyələr hazırlanır.

**"Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası** və 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərini əsas götürərək, uşaqların bütün sahələrdə imkanlarının daha da genişləndirilməsi, hüquqlarının müdafiəsi üçün müvafiq sənədlər hazırlanır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "2018-2028-ci illər üçün Azərbaycan Respublikasının "Milli Uşaq Strategiyası" layihəsi tərtib edilmiş və hökumətə təqdim edilmişdir. Eyni zamanda "Uşaq Məcəlləsi" layihəsi hazırlanmışdır və hazırda aidiyyəti qurumlarla razılaşdırılma mərhələsindədir. 17 qlobal məqsədi, 169 hədəfi əks etdirən BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərində 35 hədəf bilavasitə uşaqların inkişafı ilə bağlıdır. Belə ki, dünyada hələ də təhsil və səhiyyə xidmətlərinə çıxış imkanı olmayan, ərzaq çatışmazlığından, münaqişələrdən və böyüklərin sui-istifadəsindən əziyyət çəkən milyonlarla uşaq var. Dünyada baş verən münaqişələr nəticəsində minlərlə uşaq valideynsiz qalır və amansızcasına qətlə yetirilərək hüquqları tapdalanır.

Azərbaycan uşaqları bu gün dövlətin və cəmiyyətin hərtərəfli qayğısı ilə əhatə olunsa da, təəssüf ki, torpaqlarımızın işğalı nəticəsində uşaqlarımız doğma ev-eşiklərindən didərgin düşmüş, azad və sərbəst yaşamaq hüquqları pozulmuşdur. Azərbaycan uşaqlarının hüquqlarını amansızcasına pozaraq, onları öz doğma yurd-yuvasından didərgin salmış təcavüzkar Ermənistan Respublikası hələ də beynəlxalq hüququn tələbləri ilə hesablaşmayaraq işğal etdiyi əraziləri azad etmək istəmir. Bu hərbi münaqişə zamanı 175 uşaq qətlə yetirilmiş, yaralanan uşaqların sayı isə yüzlərlə olmuşdur. Dövlətimiz münaqişə müddətində 214 uşağın əsir və girovluqdan azad edilməsinə nail olmuşdur, 66 uşaq itkin düşmüş, 29 uşaq isə hələ də girovluqdadır. Əfsuslar olsun ki, 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirməsi faktları qeydə alınmaqda davam edir. Atəşkəs dönəmində 34 uşaq erməni terrorunun qurbanı olmuşdur. Onlardan 14-ü həlak olmuş, 20-i isə yaralanmışdır.

Uşaqların yetişdirilməsində və qorunmasında valideynlərin böyük rol oynadığı məlumdur. Şəxsiyyətin ahəngdar və hərtərəfli inkişafı üçün hər bir uşağa ailə qayğısı, valideyn istiliyi, diqqət, sevgi və anlayış lazımdır. 1 iyun tarixi 2012-ci ildə BMT Baş Assambleyasının 66/292 qətnaməsi ilə həm də Ümumdünya Valideynlər Günü kimi qeyd olunur. Bu məqamda valideyn məsuliyyəti məsələsini vurğulamaq lazımdır. Azərbaycan Respublikasının Ali Qanunu olan Konstitusiyada da qeyd edildiyi kimi, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur, bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Təəssüflər olsun ki, bəzən valideynlər bu məqamı unudurlar. Nəticədə valideynlik vəzifələrinin yerinə yetirilməməsi, valideynlik hüquqlarından sui-istifadə, etinasızlıq, laqeydlik kimi hallar baş verir. Bəzən valideynlər, yanlış olaraq, övladlarını çox istədiklərini əsas gətirsələr də, bununla bir araya sığmayan üsullardan istifadə edir, tərbiyə məqsədilə övladlarına qarşı fiziki cəza, təhqir, nəzakətsiz davranış kimi hallara yol verirlər. Uşaqların təhsildən yayınması, əməyə cəlb edilməsi və onların məruz qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Hər bir valideyn anlamalıdır ki, uşaq böyüdüb tərbiyə etmək onlardan böyük təmkin, diqqət və sevgi tələb edir. Bu məsələlər nəzərə alınaraq, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilərək valideyn məsuliyyəti artırılmışdır.

Azərbaycan Repsublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daim uşaq və gənclər üçün yaradılan imkanlar genişləndirilir. Bu imkanların reallaşması üçün müasir tipli məktəblər, tibb ocaqları, idman kompleksləri tikilir və ya təmir edilir. Dövlət tərəfindən mütəmadi olaraq qaçqın və məcburi köçkün uşaqları üçün xidmətlərin təminatına, böyüməkdə olan nəslin sağlamlığına, təhsilinin inkişafına, hüquqlarının müdafiəsinə, uşaq iştirakçılığına yönəlmiş genişmiqyaslı tədbirlər və bu istiqamətdə görülən işlər gücləndirilməkdədir. Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olur. Mehriban xanımın təşəbbüsü ilə xüsusilə həssas təbəqədən olan uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması, kimsəsiz, fiziki sağlamlığında problemi olan uşaqların sosial-psixoloji reabilitasiyası üçün resurs mərkəzinin yaradılması, bu uşaqların gələcəkdə məşğulluğunun təmin edilməsi, eləcə də müxtəlif peşələrin öyrədilməsi istiqamətində önəmli layihələr həyata keçirilir. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yüzlərlə təhsil ocağı tikilib istifadəyə verilmişdir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində 100-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramları, eləcə də "Məzun Evi Sosial" Müəssisəsi Fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır.

Azərbaycanda uşaq hüquqlarının təmin edilməsi sahəsində demək olar ki, hər il qəbul edilən yeni hüquqi sənədlər bu sahənin inkişafı prosesini daha da sürətləndirir. "Uşaqların icbari dispanserizasiyası haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" yeni qanunların qəbul edilməsi, təhsil qanunvericiliyində, sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı qanunvericilikdə yeni təminatların təsbit edilməsi, sosial təminatın gücləndirilməsi dövlətin uşaqlara olan diqqətinin nəticəsidir. Zaman keçdikcə uşaq hüquqları anlayışı da dəyişir, yeni çağırışlar, hədəflər ortaya qoyulur. Bu gün ən ciddi məsələlərdən biri uşaqların kiber mühitdə təhlükəsizliyi məsələsidir. Uşaqlar kompüter yeniliklərini - sosial şəbəkələri, onlayn oyunları, müxtəlif proqramları sürətlə mənimsəyir. Bu gün internetdə xeyirli məlumatlarla bərabər, bir sıra müxtəlif ziyanlı informasiyalar da mövcuddur. Uşaqlar valideynlərinin diqqətindən yayınaraq şiddət, müxtəlif pis vərdişlər aşılayan videolara asanlıqla çıxış əldə edirlər. Bu isə onlarda hələ kiçik yaşlardan aqressiya, şiddətə meyillilik və mənəvi travmalara səbəb olur. Əsas təhlükələrdən biri onların cinayətkarların hədəfinə düşməsidir. İnternetdən, mediadan gələn zərərli informasiyalardan uşaqların qorunması üçün Komitə olaraq, tərəfimizdən internetdə uşaq hüquqlarının müdafiəsi məqsədilə milli qanunvericilk bazasının təkmilləşdirilməsi istiqamətində işlər aparılır, maarifləndirici tədbirlər keçirilir, təhlükəsizlik proqram sistemləri yaradılır. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsasən "uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması müvafiq qanunla tənzimlənir. Komitə tərəfindən hazırlanan **"Uşaqların zərərli informasiyadan qorunması haqqında"** qanun bu il qüvvəyə mindi. Qanun layihəsində uşaqlar üçün zərərli informasiyanın növləri müəyyənləşib. Qanunun müvafiq bəndinə əsasən, uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiq edilmədən yayılmasına yol verilmir. Bu istiqamətdə həyata keçirilən mühüm layihələrdən biri kimi BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələrinə əsasən, komitənin təşəbbüsü, Kapital Bankın dəstəyi ilə "Uşaqların internet təhlükəsizliyi" layihəsi çərçivəsində "Valideyn-internet təhlükəsizliyi və nəzarət" proqramını (kidsafe) qeyd edə bilərik. Proqram təminatı uşaqların internet məkanında müdafiəsinə, valideynlərin uşaqların daxil olduğu elektron səhifələri və sorğuları haqqında məlumatlandırılmasına xidmət edir.

Daha gözəl gələcək üçün uşaqları həyatımızın mərkəzinə qoyaraq, dünyaya onların gözü ilə baxmalıyıq. Əgər bunu edə bilsək, o zaman onları daha təhlükəsiz cəmiyyətə əmanət edə bilərik. Uşaqları əhatə edən erkən nikah hallarının və uşaq əməyinin qarşısının alınması üçün maarifləndirmənin gücləndirilməsi, valideyn himayəsindən məhrum uşaqların internat və uşaq evlərini tərk etdikdən sonra onların məşğulluğunun təmin edilməsi, eləcə də məişət zorakılığının və insan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində komitə tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Köməyə ehtiyacı olan, zorakılıqdan əziyyət çəkmiş uşaqlarla mütəmadi işlərin aparılması olduqca vacib məsələdir. Hazırda bütün yerli icra hakimiyyətlərində müvafiq yerli icra orqanlarının nümayəndələrindən ibarət Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Monitorinq qrupları, eyni zamanda, profilaktiki işi təşkil edir, zərərçəkmiş uşaqlara lazımi psixoloji və hüquqi yardımlar göstərir. Komitənin regionlarda fəaliyyət göstərən **11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri** icmada risk qrupuna aid olan ailələrə, qadın və uşaqlara dəstək göstərir, vətəndaşların müraciəti əsasında onları müxtəlif xidmətlərə yönəldirlər. Hər il mərkəzlərə təqribən 3 minə qədər müraciət edilir. Müraciətlərin 50 faizi mərkəzlərin köməyi ilə təmin olunur, digərləri isə aidiyyəti orqanlarla əlaqələndirilir. Ötən il müxtəlif mövzularda dair keçirilən tədbirlərdə 17 minə qədər şəxs iştirak etmiş, mərkəz xidmətlərindən 6 minə qədər şəxs faydalanmışdır. Ümumilikdə isə il ərzində mərkəzlərin fəaliyyətindən bəhrələnənlərin sayı 20 mindən artıq olur.

Bu gün uşaqların öz hüquqlarını bilməsi, ictimai həyatda iştirakçılığının artırılması da aktual məsələlərdən sayılır. Bu istiqamətdə 2009, 2011, 2014 və 2017-ci illərdə keçirilən **Ümumrespublika Uşaq Forumlarının** xüsusi rolu vardır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə UNİCEF-in birgə təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən Uşaq Forumları uşaqların hərtərəfli inkişafı, elmi-mədəni biliklərə yiyələnməsi, liderlik keyfiyyətlərinin formalaşması üçün stimul olmuşdur. Forumlarda idarəetməni uşaqlar həyata keçirir, onları düşündürən bütün məsələlər barədə müvafiq dövlət rəsmiləri ilə dialoq qurur, öz problemlərinin həlli ilə bağlı aidiyyəti dövlət orqanlarına təkliflərlə çıxış edirlər. Forumlarda bütün regionlardan ümumilikdə 350-dən çox uşaq iştirak edərək, öz bilik və bacarıqlarını nümayiş etdirirlər. Komitənin təşəbbüsü ilə uşaqlarda müstəqil özünü ifadə etmə bacarığının, idarəetmə mədəniyyətinin formalaşması ictimai fəallığının artırılması, liderlik keyfiyyətlərinin təkmilləşdirilməsi, iştirak hüququnun təmin olunması istiqamətində icra edilən layihələrdən biri də **"Uşaq Səfirlər Məclisi"nin** yaradılmasıdır. Məclis üzvləri olan uşaqlar tərəfindən uşaq hüquqlarının müdafiəsi, uşaq inkişafı, həmçinin uşaqları narahat edən məsələlər barədə müzakirələrin aparılması, onların həlli istiqamətində təkliflərin irəli sürülməsi nəzərdə tutulmuşdur.

Uşaqların əməyə cəlb edilməsi, dilənçiliyə məcbur edilməsi məsələsi də daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə araşdırma və təhlillər aparılır. İcra edilən layihələrdən biri kimi UNICEF ilə birgə uşaqların dilənçiliyə cəlb edilməsinin qarşısının alınması, onların təhsil, səhiyyə və sosial xidmətlərə çıxış imkanlarının artırılması məqsədilə 2018-ci ildən Qazax və Ağstafa rayonlarında reallaşan layihəni qeyd edə bilərik. Layihə çərçivəsində 3 ay müddətinə 4 sosial işçi Qazax və Ağstafa rayon icra hakimiyyətləri orqanı yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın fəaliyyətinə cəlb edilmişdir. Sosial işçilər regionda baxımsız, aztəminatlı, qaraçı ailələrdən olan uşaqların ilkin sosial, psixoloji və hüquqi ehtiyaclarını qiymətləndirmiş, icra hakimiyyətləri yanında Yetkinlik Yaşına Çatmayanların İşləri üzrə Komissiyanın müvafiq sahədə işinə dəstək vermiş, uşaqların küçə həyatına, uşaq əməyinin istismarına məruz qalmasının səbəbləri araşdırılmış, onların hüquqlarının müdafiəsi məqsədilə fərdi şəkildə qayğı və inkişaf planları hazırlanmış, müvafiq xidmətlərə cəlb edilmişdir.

Bu gün bütün dünyanı çənginə alan COVID-19 pandemiyası bir çox sahələrdə çətinliklər yaratmaqdadır. Bir tərəfdən insanlar sağlam qalmaq üçün virusla mübarizə aparır, digər tərəfdən isə bəşəriyyət yeni ictimai, iqtisadi və sosial təlatümlər içərisindədir. Bütün bu hadisələrin fonunda narahatedici məqamlardan biri də ailədaxili münaqişələrin, məişət zorakılığı hallarının baş verməsi və bundan da uşaqların əziyyət çəkməsidir. Beləliklə, uşaqların hüquqlarının böhran vəziyyətində də dayanıqlı şəkildə müdafiəsini təmin etmək günümüzün ən vacib məsələlərindən birinə çevrilməkdədir. Pandemiya dövründə bu istiqamətdə çox mühüm tədbirlər həyata keçirildi, kampaniyalar elan edildi. Qeydiyyata alınmış və hər ay qan köçürülməsinə ehtiyac duyan uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə Heydər Əliyev Fondu tərəfindən başladılan qanvermə aksiyasına komitə də fəal şəkildə qoşuldu və bu prosesdə bir çox təşkilatların, vətəndaşların könüllü olaraq iştirakı xalqımızın nə qədər humanist və yardımsevər olduğunu sübut etdi.

Sosial izolyasiya və karantin dövründə komitə tərəfindən uşaqları maraqlandıran və əhatə edən bir sıra məsələlər üzrə onlayn müzakirələr təşkil edildi. "Həyati bacarıqlara yiyələn!", "Uşaqların asudə vaxtının səmərəli təşkili", "Uşaqların internet təhlükəsizliyi və onun təmin olunması yolları", "Uşaq və gənclərin uğurlu ixtisas və peşə seçimi", "Pandemiya dövründə ailələrdə yaranan psixoloji problemlər və onların həlli yolları", "Karantin vəziyyətində sağlamlıq imkanları məhdud uşaqların psixoloji reabilitasiyası", "Uşaqların inkişafında oyunun vacibliyi", "Ailədə uşaqlarla uğurlu ünsiyyət və birgə fəaliyyətin vacibliyi", "Ailə və mədəniyyət" mövzularında komitənin rəsmi "Facebook" səhifəsində əməkdaşlar və dəvət olunmuş ekspertlər tərəfindən canlı yayım formasında təlimlər, onlayn vebinarlar və müzakirələr təşkil edildi. Təlimlərə edilən geri dönüşlər və sosial şəbəkə istifadəçiləri tərəfindən gələn rəy və təkliflərdən mövzuların aktuallığı və marağa səbəb olması müəyyən edildi.

Uşaqları yalnız dünyaya gətirmək deyil, onları həm də gələcəyin layiqli vətəndaşları kimi böyüdərək formalaşdırmaq cəmiyyətin, dövlətin və ailənin borcu və vəzifələridir. Bu prosesdə iştirak edən hər bir valideyn övladını vətənpərvər, millətə və dövlətçiliyə şərəflə xidmət edəcək şəkildə tərbiyə etməlidir. Buna nail olmaq üçün də xüsusən valideynlərin maariflənməsi işi davam etdirilməlidir. Bu məqamda medianın da üzərinə böyük yük və məsuliyyət düşür. Çünki hamı üçün əlçatan və vizual olan kütləvi informasiya vasitələri uşaqlara və böyüklərə daha çox təsir etmək gücünə malikdir. Uşaqlarla bağlı daha çox veriliş və proqramların hazırlanması və nümayiş etdirilməsi müasir dövrün tələb etdiyi əsas məsələlərdəndir. Uşaqların sağlam və xoşbəxt böyüməsi həmişə aktual olmuşdur, lakin qloballaşma dövründə, xüsusilə də hərbi münaqişələr, kataklizmlər, terrorizm, zorakı ekstremizm və pandemiyaların fonunda bu məsələ özünü daha qabarıq şəkildə göstərir. Əlbəttə, uşaq hüquqlarının müdafiəsi yalnız bir dövlətin deyil, beynəlxalq birliyin, vətəndaş cəmiyyətinin, həmçinin siyasi və sosial qüvvələrin birgə səyləri nəticəsində mümkündür. Əgər ailə dövlətin kiçik modelidirsə, uşaqlar da ailənin özəyidir. Onların hüquqlarının təmin edilməsi həm valideynlərin, həm dövlətin, həm də cəmiyyətin qarşısında duran əsas məqsəddir. Azərbaycanda həyata keçirilən dövlət proqramları, layihələr, tədbirlər uşaqların müdafiəsi sahəsinə uğurlu töhfələr verir və bu istiqamətdə fəaliyyət daha da güclənməkdədir.

Gələcəyimizin qarantı olan ən qiymətli xəzinəmiz - övladlarımızı vətənini, millətini sevən, dövləti üçün çalışan bir şəxsiyyət kimi yetişdirmək, həyatın bəxş etdiyi çətinliklərin öhdəsindən gəlməyi bacaran, özünəinamlı, özü qərar verə bilən, təşəbbüskar, geniş düşüncəli, fədakar və istedadlı bir gənc kimi yetişmələrini təmin etmək bizim ümumi vəzifəmiz və məqsədimizdir.

***Bahar MURADOVA,***
***Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru***

## 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür



# «Dünyanı uşaqlara verin!»

**Bu dünyanın mələkləri... Saf, təmiz, məsum körpələr... Şən, şaqraq gülüşləri asimana nur saçan balalar... Çöhrələrindən süzülən təbəssüm şəfəqiylə yer üzünün günahlarını əridib yox edən uşaqlar... Dünyadakı hər ötən an, hər gələcək gün sizindir...**

### Uşaqların günü

Hər ilin 1 iyun tarixində dünya uşaqların bayramını qeyd edir. Bu günün qeyd olunması 1950-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən qərara alınıb. Həmin gün təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib.

O da təəssüflə qeyd edilməlidir ki, hazırda dünyada milyonlarla uşağın hüquqları tapdanır, zorakılığa, şiddətə, ac-susuzluğa məruz qalır. Uşaqlar müharibələrin qurbanına çevrilir, öldürülür, valideynsiz qalır, qaçqın həyatı yaşamağa məcbur olurlar...

Əfsuslar olsun ki, torpaqlarımızın 20 faizinin mənfur Ermənistan tərəfindən işğalı nəticəsində doğma yurdundan didərgin düşüb qaçqına, məcburi köçkünə çevrilən minlərlə uşaq var. Lakin bu uşaqlar hər zaman dövlətimizin diqqəti və qayğısı ilə əhatə olunub. Onların mənəvi, fiziki sağlamlığı, təhsilləri üçün hər cür şərait yaradılıb.

Əminik ki, qısa zaman ərzində torpaqlarımız düşmən tapdağından azad ediləcək və bir daha ölkəmizdə qaçqın, məcburi köçkün uşaqlar olmayacaq...

### Uşaqların yeni sınağı

2020-ci il başlayandan isə uşaqlar yer üzərində sürətlə yayılan qorxulu bir bəla, koronavirus, COVID-19 infeksiyası səbəbindən daha bir çətinliklə, sınaqla üz-üzə qaldılar. Aylardır məktəblərindən, bağçalarından, müəllimlərindən, nənə-babalarından uzaqda həsrətli bir yaşam keçirirlər. Küçələrdə azadə dolaşa, parklarda, bağçalarda dostlarıyla doya-doya oynaya bilmirlər. Körpə qəlblərinə qorxu düşür, minlərlə suala cavab tapmağa çalışırlar...

Hər zaman olduğu kimi, bu çətin günlərdə də dövlətimiz gələcəyimiz olan uşaqların sağlamlığı, təhlükəsizliyi istiqamətində lazımi addımlar atır. Onlara mənəvi dayaq durur, təhsillərindən uzaq düşməmələri üçün vacib tədbirlər görür.

### Uşaq siyasətinin əsası

Bütün uşaqlara qayğı ölkəmizin dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir. Yeni nəslin sağlam böyüməsi dövlətin mühüm vəzifəsi kimi daim diqqətdə saxlanılır, uşaqlara xüsusi məhəbbət, diqqət və qayğı göstərilir, onların layiqli vətəndaş kimi böyüməsi, cəmiyyətdə sağlam mövqe tutması üçün hər cür şərait yaradılır.

Azərbaycanda uşaq siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə uşaqlara xüsusi qayğı və diqqətlə yanaşıb. Ulu Öndər hər zaman uşaqların iştirakı ilə keçirilən bayram tədbirlərində iştirak edir, çıxışlarına maraqla tamaşa edir, alqışlayır, onlarla şirin-şirin söhbət edirdi. Ulu Öndərin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir.

Prezident İlham Əliyev uşaq hüquqlarının müdafiəsinə, sağlamlığına, təhsilinə, layiqli vətəndaş kimi hərtərəfli inkişafına yönələn siyasət yürüdür, bu istiqamətdə uğurlu islahatlar aparır.

**"...Uşaq evin gülü-çiçəyi", " Körpə qığıltısı nota alınmayan ən zərif səs, bəstələnməyən musiqidir", - deyirlər.**

Belə epitetlər ilk andanca xoş təbəssüm yaradan fikirlərdir. Həm də ictimaiyyətdə və cəmiyyətdə yetərincə səslənir. Bəli, dünyanın xoşbəxti olmağa layiq körpələr nəinki evin, ailənin, əslində, bəşəriyyətin ülvi və saf varlıqları kimi bəxtəvər yaşamağa layiqdirlər.

Uşaqsız ailələrin bütövlüyünə daim şübhə yaranıb. Çünki onlar ailəni qoruyur, əbədiləşdirir. Deyirlər ki, uşaqlar bağların fidanları, bar ağaclarının budaqları - sevgi meyvəsidir. Həm də uşaqlar bəşəriyyətin gələcəyidirlər, onların müdafiəsi dövlətdən daha çox ailənin və cəmiyyətin borcudur.

1 iyun tarixi fidan balaların bayramıdır. Harada uşaq varsa, orada səmimiyyət, sevinc, ümidlər çiçəkləyir, arzular boy atır. Uşaqların beynəlxalq səviyyədə müdafiəsi üçün 1950-ci il iyunun 1-də BMT-nin Baş Assambleyası qərar qəbul edib. Bundan sonra 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb.

BMT-də uşaq hüquqlarına dair konvensiya qəbul edilib. Azərbaycan da müstəqilliyini bərpa etdikdən sonra bu konvensiyaya qoşulub. Bütün demokratik dövlətlərdə olduğu kimi, ölkəmizdə də uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Yəni onların sağlam, hərtərəfli, vətənə layiqli övladlar kimi böyümələri üçün hər cür şərait yaradılıb. Təbii ki, uşaq hüquqları da insan haqlarının ən mühüm və ayrılmaz hissələrindən biridir.

Ulu Öndər Heydər Əliyevin ideyalarını fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum uşaqlara diqqət və qayğı ilə yanaşması cəmiyyətdə böyük rəğbət doğurur.

Ölkəmizdə uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində fond tərəfindən silsilə tədbirlər keçirilir. Məhz bu nüfuzlu qurumun təşəbbüsü ilə qaçqın və məcburi köçkün ailələrindən olan, eləcə də imkansız uşaqlara xüsusi diqqət ayrılır. Əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiya olunması istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkədə uşaqlara dövlət qayğısının gücləndirilməsi, onların problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalayıb. Həmin sərəncama görə, 2009-cu il "Uşaq ili" elan olunub. Bu sərəncamla uşaqların problemlərinin həlli istiqamətində müxtəlif layihələr reallaşdırılır.

2009-cu ilin oktyabrında Bakıda "Gülüstan" sarayında Azərbaycanda Uşaq ilinə və BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 20 illiyinə həsr olunmuş uşaqların müdafiəsi islahatı üzrə keçirilən ikigünlük konfransda Birinci vitse-prezident Mehriban xanım Əliyeva çıxışında çox vacib mətləblərə toxunub. Qeyd edilib ki, sivilizasiya və mədəniyyətlərin toqquşması, eləcə də dünyada baş verən hərbi münaqişələr, texnogen faciələr, iqlim dəyişməsi, xəstəliklər və digər problemlər uşaqların taleyindən izsiz keçmir. Belə olan halda onlar təkcə fiziki cəhətdən deyil, mənəvi baxımdan da şikəst olurlar. Bəzən də ata-anasından, ailə mühitindən ayrı düşən uşaqlar müəyyən mənəvi dəyərlərdən də təcrid olunurlar.

Fond, demək olar ki, yarandığı gündən valideyn himayəsindən məhrum olmuş, dövlət müəssisələrində böyüyən uşaqların taleyini daim diqqət mərkəzində saxlayır. Təsadüfi deyil ki, doğmalarının himayəsindən məhrum olan uşaqlar bu gün Mehriban xanım Əliyevaya mənəvi ana kimi baxırlar. Bu da səbəbsiz deyil. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"çərçivəsində Heydər Əliyev Fondu tərəfindən onlarla, yüzlərlə dövlət müəssisəsi əsaslı təmir edilərək avadanlıqlarla təchiz olunub. Tez-tez uşaqların qonağı olan Mehriban xanım Əliyeva çalışır ki, onlarla həmişə ünsiyyət qursun.

Bu gün ölkəmizdə "hər şey uşaqların sağlamlığı naminə"devizi ilə bir sıra sosial-tibbi, humanitar layihələr həyata keçirilməkdədir. Eləcə də uşaqlara tibbi xidmət göstərən 600-dən artıq poliklinika, ambulatoriya və uşaq şöbəsi olan müəssisələrdə on minlərlə həkim-pediatr çalışır. Sosial-psixoloqların qənaətincə, ölkədə idman seksiyalarında məşğul olan uşaqların sayı ildən-ilə çoxalmaqdadır ki, bu da, ümumiyyətlə, dövlətin sosial siyasətinin nəticəsidir. Uşaqların daha çox futbol, voleybol, şahmat, yüngül atletika, sərbəst güləş, basketbol və stolüstü tennis kimi idman növlərinə maraq göstərmələri də təsadüfi deyil. Sevindirici hallardan biri də odur ki, uşaqlar belə idman yarışlarında beynəlxalq səviyyədə iştirak edir və yüksək mükafatlara layiq görülürlər.

Təəssüf ki, körpə fidanların heç də hamısı xoşbəxt böyümürlər. Son yüzillikdəki bir sıra etnik, dini, məhəlli və regional münaqişələrin qurbanlarına çevrilənlərin müəyyən faizi də uşaqların payına düşür. Böyüklərlə yanaşı, körpələr də qaçqın-köçkün həyatı yaşamağa məhkum ediliblər. Nə yazıqlar ki, hazırda insan haqlarını, uşaq hüquqlarını əldə bayraq edən sivil dünyanın, bir sıra beynəlxalq təşkilatların gözləri qarşısında onların ən ali haqq və hüquqları pozulmaqdadır. 1988-ci ildən Azərbaycana qarşı davam edən erməni təcavüzü nəticəsində öz doğma ata-baba yurdunda, evində azad yaşamaq haqqını itirmiş uşaqların pozulmuş hüquqlarının bərpası istiqamətində heç bir ciddi və səmərəli addım atılmayıb.

Uşaq hüquqları ilə bağlı Avropada, Qərbdə bir çox hüquqi sənədlər qəbul edilib. İlk belə sənəd olan "Uşaq Hüquqları Haqqında Konvensiya" Beynəlxalq Qadınlar Federasiyasının təşəbbüsü ilə hələ 1949-cu ildə BMT tərəfindən qəbul edilməsinə baxmayaraq, bu gün dünyanın bir çox yerlərində uşaq hüquqlarının pozulması hallarına davamlı şəkildə rast gəlirik. Belə hallarla işğalçı Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan uşaqları da üzləşib. Ancaq özünün Qərbə inteqrasiya iddialarını ortaya qoymuş, demokratik inkişaf yolunu, hüquqi dövlət prinsiplərini prioritet elan etmiş Azərbaycana qarşı erməni təcavüzü nəticəsində çoxsaylı insan hüquq və azadlıqlarının, o cümlədən uşaq hüquqlarının pozulması hallarına indiyədək həmin Qərbdə göz yumulur, müvafiq beynəlxalq təşkilatlar tərəfindən adekvat reaksiya verilmir.

Tarixi Azərbaycan torpaqlarının işğalı zamanı bütün yerli əhaliyə, eləcə də uşaqlara heç bir aman verilməyib. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Qarabağ müharibəsi illərində 1000-dən çox uşaq şəhid olub. Yüzlərlə günahsız körpə Xocalıda, işğal edilən digər şəhər və kəndlərimizdə erməni quldur ordusu tərəfindən əsir götürülüb, işgəncələrə məruz qalıb. Onlara qarşı tarixdə görünməmiş zorakılıq və işgəncələr tətbiq edilməsi haqqında yüzlərlə fakt məlumdur. Bu cür faktlar, hətta erməni yazarlarının, o cümlədən bədnam Zori Balayanın kitablarında açıq-aşkar əks olunub.

Hər kəsdən daha çox sevgiyə ehtiyacı olan uşaqlara dövlət tərəfindən hər cür diqqət yetirilir. Gələcəyimizin parlaq və işıqlı olması uşaqların əlindədir. Onların nə dərəcədə sevgiyə, qayğıya ehtiyacı olduqlarını öz gözlərimizlə görüb, gələcəyimizin aydın, işıqlı və parlaq olması üçün böyük işlərə imza atmalıyıq.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Mehriban xanım Əliyevanın diqqət və qayğısı bütün Azərbaycan uşaqlarını əhatə edir

### Uşaqların himayədarı

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uşaqların təlim-tərbiyəsinin təşkili, onların sağlamlığının qorunması istiqamətində həyata keçirilən layihə və proqramlar müstəsna əhəmiyyət daşıyır.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və bu kimi xeyli sayda layihələri uşaqlara təhsil, səhiyyə və digər sahələrdə dəstək və köməkdir.

"Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində yüzlərlə körpələr evi, bağça və internat məktəbləri əsaslı təmir olunub.

Həmçinin talassemiya, Daun, Psixonevroloji Uşaq mərkəzləri və bu qəbildən olan digər əhəmiyyətli obyektlər tikilərək istifadəyə verilib. Ötən il fondun təşəbbüsü ilə Bakıda yeni "Ümid yeri" uşaq sığınacağı və Uşaq Psixonevroloji Mərkəzinin korpusu açılıb. Bu müəssisələr ən müasir tibbi avadanlıqlarla təchiz olunub.

Bu il mayın 25-də Heydər Əliyev Fondu tərəfindən Şamaxı şəhərində inşa edilən 2 nömrəli körpələr-evi uşaq bağçasının və rayonun Meysəri kəndində əsaslı təmir olunan körpələr evi-uşaq bağçasının açılışları olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışlarda iştirak ediblər.

Açılışları həyata keçirilən adıçəkilən uşaq müəssisələri də fondun məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılması istiqamətində həyata keçirdiyi layihələrin ardıcıl xarakter aldığını bir daha aydın göstərir.

### "Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır"

Mehriban xanım müdafiəyə ən çox ehtiyacı olan, uşaq evləri və internatlardakı uşaqlara, qaçqın və məcburi köçkün övladlarına, habelə müxtəlif xəstəliklərə mübtəla olan uşaqlara hər zaman dayaq durmağa çalışır.

"Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır" devizini həyat şüarına çevirən Birinci vitse-prezident hər zaman kimsəsiz uşaqların taleyi ilə maraqlanır, valideyn əskikliyini duymalarını istəmir...

Amma bununla yanaşı, həmişə vurğulayır ki, heç nə ata-ana məhəbbətini əvəz edə bilməz, ona görə də insanlar bu məsələdə daha məsuliyyətli və həssas olmalıdırlar.

Mehriban xanım daim kimsəsiz uşaqlara baş çəkir, onlarla ünsiyyət qurur, problemləri ilə maraqlanır. Təhsil almaları, istedadlarının üzə çıxarılması istiqamətində dəstək göstərir, gələcək həyata daha sağlam qədəm basmaları üçün ruhlandırır. Əlamətdar günlərdə, bayramlarda, hətta öz ad günündə belə uşaqların əhatəsində olmağı sevir, onlarla birlikdə şənlənir, qol götürüb oynayır, uğurlarını alqışlayır.

Təsadüfi deyil ki, bütün kimsəsiz uşaqlar Mehriban xanımı özlərinin mənəvi anası hesab edirlər.

### Uşaqların sevinci ən böyük uğurdur

Uşaqlarla bağlı həyata keçirilən layihələrin təşəbbüskarı və dəstəkçisi olan Mehriban xanım Əliyeva sağlamlıqları ilə sınağa çəkilən, xüsusi qayğıya ehtiyacı olan uşaqların da himayədarıdır. Heydər Əliyev Fondu tərəfindən Daun, autizm, talassemiya, əqli, fiziki qüsurlu, xərçəng, şəkər kimi xəstəlikləri olan uşaqlar üçün xüsusi müalicə və reabilitasiya mərkəzləri inşa edilib, lazım olan bütün tibbi avadanlıqlarla təmin edilib.

Mehriban xanım vaxtaşırı bu mərkəzləri ziyarət edərək uşaqlarla görüşür, sağlıqları ilə maraqlanır, həyatda normal yaşamaları üçün dəstək olur.

Koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədi ilə xüsusi karantin rejimi elan edilən müddətdə talassemiya və hemofiliya, həmçinin leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatı azaldı. Lakin bu çətin anlarda da onlar köməksiz qalmadılar.

Birinci vitse-prezidentin xüsusi diqqət və nəzarəti altında dərhal problemin aradan qaldırılması istiqamətində lazımi addımlar atıldı. Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin əməkdaşları qanvermə aksiyasında iştirak etdilər. Qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım göstərmək və cəmiyyətin diqqətini bu sosial məsələyə cəlb etmək üçün humanist bir addım ataraq, "Qan ver, yaşat" - deyərək cəmiyyətin digər üzvlərinə də nümunə oldular.

Birinci vitse-prezidentin şəxsi təşəbbüsü ilə uşaqlarla bağlı həyata keçirilən bu kimi örnək addımlar, tükənməz sevgi və qayğı nümunələri saysız-hesabsızdır...

### Dünyanı verək uşaqlara...

Bu gün, dünya uşaqların olsun...
Saf könüllərdən süzülüb gələn sevinc işartıları asimana işıq saçsın...
Dağılsın zülmət, dursun qan-qada, dünya şərin əlindən qurtulsun, xilas olsun...
Uşaqların arzularından doğulsun, şirin nağıla çevrilsin...
Bəli, dəyərli türk şairi Nazim Hikmətin dediyi kimi, dünyanı verək uşaqlara, heç olmazsa bir günlüyünə...

***Dünyanı verək uşaqlara***
***Heç olmazsa, bir günlüyünə...***
**...Bir günlük də olsa, öyrənsin dünya dostluğu...**

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

---

# Ölkəmizdə koronavirusa daha 248 nəfər yoluxub, 101 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 248 yoluxma faktı qeydə alınıb, 101 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə,

COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1956 və 1960-cı il təvəllüdlü iki nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 5494 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3428 nəfər müalicə olunaraq sağalıb, 63 nəfər vəfat edib, 2003 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 56 nəfərin vəziyyəti ağır, 65 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 298.648 test aparılıb.

# Azərbaycanda Səhiyyə Sahəsində Beynəlxalq Proqramlar üzrə Ölkə Əlaqələndirmə Komissiyasının (ÖƏK) 47-ci iclası keçirilib

Mayın 29-da Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycanda Səhiyyə Sahəsində Beynəlxalq Proqramlar üzrə Ölkə Əlaqələndirmə Komissiyasının (ÖƏK) növbəti - 47-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, ilk dəfə virtual formatda keçirilən iclasda ÖƏK-ə üzv olan təşkilatlar - İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Heydər Əliyev Fondu, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB), Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi, Respublika QİÇS-lə Mübarizə Mərkəzi, ET Ağciyər Xəstəlikləri İnstitutu, Ümumdünya Səhiyyə Təşkilati, Dünya Bankı, Vərəm Əleyhinə QHT Koalisiyasına üzv olan QHT-lər, İİV/QİÇS sahəsində fəaliyyət göstərən QHT-lər, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Respublika Narkoloji Mərkəzinin nümayəndələri, eyni zamanda, Fransanın Azərbaycandakı səfiri Zaxariye Qross müşahidəçi qismində iştirak ediblər.

ÖƏK-in son bir illik uğurlu fəaliyyəti haqqında ÖƏK Katibliyi tərəfindən məlumat verildikdən sonra Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri, Milli Məclisinin deputatı Soltan Məmmədov çıxış edib. Soltan Məmmədov son illər səhiyyə sahəsində aparılan uğurlu və davamlı islahatlardan bəhs edib, bütün dünyanı bürüyən COVID-19 pandemiyası ilə mübarizə sahəsində ölkənin uğurlu siyasət yürütdüyünü, düzgün və vaxtında icra olunan tədbirlər nəticəsində nümunəvi ölkələr sırasında olduğunu diqqətə çatdırıb.

Soltan Məmmədov müzakirələr zamanı qeyri-hökumət təşkilatlarının qanunvericilikdə ehtiyac duyulan dəyişikliklərlə bağlı müraciətlərinə cavab olaraq, Milli Məclisin Səhiyyə Komitəsinin, Əmək və Sosial Siyasət Komitəsinin üzvü kimi vətəndaş cəmiyyəti nümayəndələrinin, komissiya üzvlərinin təkliflərini müntəzəm olaraq parlament üzvlərinin diqqətinə çatdıracağını bildirib.

Milli Məclisin deputatı ölkədə İİV, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun dəstəyi ilə Vərəm və İİV/QİÇS sahəsində görülən işləri və əldə olunan nəticələri yüksək qiymətləndirərək, Qlobal Fondun COVID-19-la mübarizə sahəsində də ölkələrə dəstək vermək üçün maliyyə vəsaiti ayırmasının təqdirəlayiq olduğunu qeyd edib. Bu maliyyə vəsaiti çərçivəsində seroloji-epidemioloji tədqiqatların aparılması və xüsusi lazımi qoruyucu vasitələrin alınmasını nəzərdə tutan layihə təklifi müzakirə olunaraq, Qlobal Fonda təqdim edilməsi üçün ÖƏK üzvləri tərəfindən təsdiq olunub.

Fransanın Azərbaycandakı səfiri Zaxariye Qross çıxışı zamanı Fransanın Qlobal Fonda maliyyə yardımı ayıran ikinci ən böyük donor ölkə olduğunu iclas iştirakçılarının diqqətinə çatdırıb. Qlobal Fondun əsas risk qrupları arasında hər iki xəstəliklə mübarizə istiqamətində apardığı uğurlu fəaliyyəti yüksək qiymətləndirib. Səfir Ölkə Əlaqələndirmə Komissiyasına bu sahədə aparılan uğurlu fəaliyyətə görə təşəkkürünü bildirib.

Ədliyyə Nazirliyinin rəhbərliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndəsi, QİÇS-lə Mübarizə Mərkəzinin və ET Ağciyər Xəstəlikləri İnstitutunun rəhbərliyi, ÜST-ün nümayəndəsi xəstəliklərlə mübarizə sahəsində görülmüş işlər və əldə olunmuş nailiyyətlər barədə məlumat veriblər. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nümayəndəsi və digər iclas iştirakçıları Azərbaycanın ilk dəfə donor qismində çıxış edərək Qlobal Fonda maliyyə dəstəyi göstərməsinin yüksək qiymətləndirildiyini vurğulayıblar. İclasın sonunda ÖƏK üzvləri toplantının yüksək səviyyədə təşkilinə və vacib mövzular ətrafında maraqlı müzakirələr aparıldığına görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Azərbaycanda Səhiyyə Sahəsində Beynəlxalq Proqramlar üzrə Ölkə Əlaqələndirmə Komissiyası milli məşvərətçi orqan statusuna malikdir, hüquqi və fiziki şəxslərin bir çox sahələr üzrə könüllülük prinsipi əsasında qurulmuş əməkdaşlığını təmsil edir. ÖƏK fəaliyyəti zamanı Azərbaycan Respublikasının qanunvericilik sistemini, Qlobal Fondun Əsasnamə və tövsiyələrini rəhbər tutur. ÖƏK-in Əsasnaməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilir. Komissiyanın məqsədi Azərbaycanda İİV/QİÇS, Vərəm və Malyariyanın yayılmasına qarşı mübarizənin gücləndirilməsinə, eyni zamanda, Vaksin və İmmunlaşdırma üzrə QAVİ Alyansın dəstəyi ilə həyata keçirilən layihələrin koordinasiyası, monitorinqi, nəzarəti və lazımi digər müvafiq qərarların qəbul olunmasına yardım etməkdir. ÖƏK heyətinə dövlət və qeyri-hökumət sektorlarının nümayəndələri daxildir.

# Xüsusi karantin rejimi növbəti dəfə yumşaldıldı

## Fəaliyyətinə icazə verilən sahələr üzrə işlər yeni qaydalarla həyata keçirilməlidir

Qlobal problemə çevrilmiş yeni koronavirus (COVID-19) infeksiyasının yayılmasına qarşı bütün dünyada intensiv qabaqlayıcı tədbirlər görülməsinə baxmayaraq, pandemiyanın qarşısını almaq və onun törətdiyi fəsadları minimuma endirmək səyləri hələ də tam nəticə vermir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada təhlükəli virusa yoluxma ilə bağlı aşkar edilmiş insanların sayı 6 milyonu ötüb.

Azərbaycanda qlobal pandemiyanın qarşısının alınması istiqamətində zəruri işlər davam etdirilir. COVID-19 virusunun ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Prezident İlham Əliyevin tapşırığına əsasən yanvardan qabaqlayıcı tədbirlər həyata keçirilməyə başlandı, Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı. Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə çevik və sistemli preventiv tədbirlərin davamı olaraq martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 20-dək isə xüsusi karantin rejimi elan edildi. Karantin rejimi müddətində paytaxt və regionlarda xəstəlik fonundakı sanitar-epidemioloji vəziyyət təhlil edilib, insanların həyat və sağlamlıqlarının daha səmərəli qorunması, virusun yayılma sürətinin kəskin azaldılması məqsədilə Azərbaycanda tətbiq olunan karantin rejiminin uzadılması məqsədəuyğun sayıldı. Bu baxımdan xüsusi karantin rejiminin 4 maya, daha sonra 31 maya kimi uzadılmasına qərar verildi.

### Məhdudiyyətlər mərhələli şəkildə aradan qaldırılır

Lakin bu müddət ərzində xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlər də mərhələli şəkildə yumşaldıldı. Aprelin 27-dən ölkədə yumşalmanın birinci mərhələsi tətbiq olundu. Birinci mərhələdə konkret ünvan göstərilərək bütün ölkə üzrə ticarət və xidmət obyektlərinin fəaliyyətinə icazə verildi. Mayın 4-dən etibarən isə ölkə sarı və narıncı zonalara bölünərək, yumşalma prosesində ikipilləli, ikisürətli selektiv yanaşma metodu tətbiq edilməyə başlanıldı. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə dövlət qurumlarının işçilərinin fəaliyyəti müəyyən olunmuş sayda bərpa olundu. "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa etdi. Xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin, bütün sahələr üzrə fərdi ticarət obyektlərinin, bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyətlərə icazə verildi.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla, respublikanın digər rayon və şəhərlərində və Naxçıvan Muxtar Respublikasında 4 maydan etibarən yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olundu. "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətlərini bərpa etdi. Dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti, restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla), qeyd olunan ərazilərdə rayonlar və şəhərlərarası gediş-gəliş (ictimai nəqliyyatla sərnişindaşıma xidməti istisna olmaqla) bərpa olundu. Bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət götürüldü. Xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin, bütün sahələr üzrə fərdi ticarət obyektlərinin, kosmetik xidmətlərin, bərbərxanalar və gözəllik salonlarının fəaliyyəti başlandı.

Mayın 18-dən etibarən isə ölkədəki ümumi durum nəzərə alınaraq karantin rejimi bir qədər də yumşaldıldı. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi aradan qaldırıldı. Bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət 10 nəfərdən artıq qruplarda cəmləşməmək şərti ilə götürüldü. Restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla) bərpa olundu. Ölkədə, həmçinin xüsusi karantin rejimi ilə əlaqədar məhkəmələrin fəaliyyətinə qoyulan məhdudiyyət ləğv edildi. Mayın 18-dən bütün ölkə üzrə muzey və sərgi zallarının yenidən fəaliyyətinə icazə verildi. Eyni zamanda 65 yaşdan yuxarı insanların evdən çıxmasına tətbiq olunan qadağa götürüldü.

### Yumşalmanın növbəti mərhələsi

Nazirlər Kabineti yanında Operativ Qərargahın 29 may tarixli qərarına əsasən isə, ölkə ərazisində xüsusi karantin rejiminin müddəti iyunun 15-i saat 00.00-dək uzadıldı. COVID-19 pandemiyası ilə bağlı dünyadakı vəziyyət təhlil edilib və virusun ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə yükdaşımaları və çarter reysləri istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət 15 iyunadək uzadıldı.

Bununla belə, xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin daha bir qismi növbəti dəfə aradan qaldırılıb. Belə ki, 31 maydan Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda dövlət qurumlarında işçilərin say həddinin məhdudlaşdırılması ləğv olunub. Ölkə ərazisində iri ticarət mərkəzlərinin və "Mall"ların fəaliyyəti bərpa edilib. Lakin iri ticarət mərkəzlərinin və "Mall"arın nəzdindəki uşaq və digər əyləncə mərkəzləri, kinoteatrlar, ictimai iaşə məkanları fəaliyyət göstərməyəcək. Açıq havada keçirilən idman yarışlarının tamaşaçıların iştirakı olmadan təşkilinə icazə verilib.

Qərara əsasən, mayın 31-dən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 22:00-dək həyata keçiriləcək. Ancaq ölkə üzrə bütün ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə və 10 nəfərdən artıq toplaşmaqla kütləvi şənliklər, məclislərin təşkili hələ də qadağandır.

Təəssüf ki, məhdudiyyətlər aradan qaldırıldıqca ölkəmizdə koronavirus infeksiyasına yoluxma halları da çoxalır. Bunun da əsas səbəbi əhalinin əksər hissəsinin Operativ Qərargah tərəfindən müəyyən olunmuş qaydalara, qadağalara, sosial izolyasiya tədbirlərinə əməl etməməsi, maska taxmamasıdır.

Xatırladaq ki, fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Qaydaların pozulması qanunvericiliklə nəzərdə tutulmuş inzibati və cinayət məsuliyyəti yaradır.

Qərargah hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə riayət etməyə çağırır. Sanitar-epidemioloji vəziyyətə uyğun olaraq müəyyən edilmiş yerlərdə qoruyucu vasitələrdən istifadə və sosial məsafənin gözlənilməsi mütləqdir. Baş Nazir Əli Əsədovun xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə imzaladığı qərarda qoruyucu tibbi maskaların taxılması məcbur olan yerlərin siyahısı hazırlanıb. Həmin yerlərdə maska taxmayan şəxslər İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilən qaydada məsuliyyətə cəlb olunacaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# *Pandemiya ilə mübarizədə yeni mərhələ:* minnətdarlıq və məsuliyyət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin koronavirusla mübarizə istiqamətində apardığı genişmiqyaslı və məqsədyönlü iş xalqımızın bu qlobal bəladan müqayisəolunmaz dərəcədə az itkilərlə çıxmasını təmin etmiş, ölkəmizə beynəlxalq miqyasda böyük nüfuz qazandırmış, postpandemiya dövrünün strategiyasını meydana qoymuşdur.

Qoşulmama Hərəkatına üzv dövlətlərin və türk dövlətlərinin başçıları, beynəlxalq təşkilatların rəhbərlərinin iştirakı ilə keçirilmiş onlayn Zirvə toplantıları müstəqillik dövrü Azərbaycan tarixinin silinməz səhifələrinə çevrilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın verdiyi gündəlik məlumatlar və açıqlamalar koronavirusla mübarizə proseslərinin tənzimləndirilməsi və istiqamətləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Operativ Qərargahın bu günlərdə pandemiya ilə mübarizənin iyun ayından başlayacaq yeni mərhələsi haqqında səsləndirdiyi məlumatlar və proqnozlar qarşıda duran vəzifələrin müəyyən edilməsinə hesablanmış mühüm qərarlardır. Xalqımız və idarəetmə strukturlarımız gələcək fəaliyyətini Operativ Qərargahın müəyyən etdiyi tədbirlər əsasında məsuliyyətli şəkildə qurmaqla pandemiya dövrünün növbəti mərhələsindən də şərəflə çıxa bilər.

Nazirlər Kabineti yanında Operativ Qərargahın yeni məlumatlarında beynəlxalq və yerli aviareyslərin açılacağı haqqındakı məlumatlar xalqımızda koronavirusla mübarizdən çıxmaqda olduğumuza dair böyük inam və ümid yaradır.

Nəzərdə tutulan tədbirlər koronavirusla mübarizənin davam etdirilməsi ilə paralel olaraq, respublikamızda sosial-iqtisadi proseslərin işə salınmasına, normal həyat ritmlərinin təmin edilməsinə imkan yaradacaqdır. Bu isə öz növbəsində koronavirusla mübarizənin mərhələli şəkildə başa çatdırılmasına hazırlıq kimi də mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasının əhalisi Operativ Qərargahın Bakı-Naxçıvan aviareysinin açılacağı haqqındakı məlumatını böyük razılıq hissi ilə qarşılayırlar. Uzun illərdən bəri çətin blokada şəraitində yaşamağın imtahanlarını vermiş Naxçıvan Muxtar Respublikasında paytaxtla aviareysin bərpa olunması pandemiya dövrünün yaratdığı əlavə çətinliklərdən qurtarmaq baxımından əhəmiyyətli addım kimi qiymətləndirilir.

Muxtar respublikanın ölkəmizin paytaxtı ilə yeganə çıxış yolu olan hava nəqliyyatından istifadəsinin bərpa olunması pandemiya dövrünün yaratdığı sosial-iqtisadi, mənəvi-psixoloji problemlərin aradan qaldırılmasına əməli dəstəyin ifadəsi olacaqdır.

Hesab edirik ki, Bakı-Naxçıvan aviareyslərinin həftədə iki-üç dəfə uçuşunu təmin etməklə muxtar respublika ilə əlaqə baxımından yaranmış çətinliklərin aradan qaldırılması mümkün ola bilər.

Ümid edirik ki, Bakı-Naxçıvan aviareysinin açılması koronavirusla mübarizənin yaxın zamanlarda başa çatmaqda olmasının müjdəsinə çevriləcəkdir.

Ümumiyyətlə, gündəlik həyatımızın bütün sahələrində, o cümlədən beynəlxalq və yerli aviareyslərin açılması şəraitində koronavirusla mübarizənin tələblərinə tam əməl edilməsi xalqımızın diqqət mərkəzində olmalıdır.

Bütövlükdə Azərbaycan xalqı, ölkəmizin ziyalıları, o cümlədən Naxçıvan Muxtar Respubliikasının əhalisi Prezident İlham Əliyevə müstəqil dövlətimizin bütün sahələrində, həmçinin pandemiya ilə mübarizə istiqamətində apardığı qətiyyətli və müdrik siyasətin həyata keçirilməsində daha böyük uğurlar arzulayır.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, akademik***

# Şamaxı rayonunun ağsaqqallarından

Möhtərəm cənab Prezident.

Dünyanı bürüyən koronavirus pandemiyası dönəmində Sizin gərgin əməyiniz nəticəsində ölkəmizdə əhalini qorumaq üçün aparılan qabaqlayıcı tədbirlər öz bəhrəsini verir. Azərbaycanda bu virusun törədə biləcəyi ağır fəsadların qarşısının alınması istiqamətində atılan hər bir addım bütün əhali tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Səhiyyə sahəsində həyata keçirilən səmərəli tədbirlər Birinci vitse-prezident Mehriban xanımın bu işlərə bilavasitə nəzarətinin və fədakar əməyinin nəticəsidir. Dünyanın inkişaf etmiş ölkələrində COVID-19-dan ölüm sayı 10 minlərə çatdığı halda Sizin müdrik və çevik qərarlarınız sayəsində ölkəmizdə əldə olunan ürəkaçan nəticələrə görə Sizə təşəkkürümüzü bildiririk.

Hətta belə çətin dövrdə Sizin və Mehriban xanımın rayonumuza səfəriniz əhalimiz tərəfindən böyük sevinc və qürur hissi ilə qarşılanıb.

Azərbaycan tarixində və mədəniyyətində xüsusi yeri olan Şamaxı özünün yeni çiçəklənmə dövrünü yaşayır. Bu, Sizin diqqətinizin nəticəsidir. Rayonumuzda tikinti, quruculuq, abadlıq işləri ilə yanaşı, tarixi abidələrə göstərdiyiniz qayğı onlara ikinci həyat verir və bizi sevindirir. Pirsaat Baba, Pir Ömər Sultan ziyarətgahlarının və İmadəddin Nəsiminin qardaşı Şahxəndanın türbəsinin yenidən qurulması çərçivəsində görülən işlərə diqqətiniz isə biz şamaxılılar üçün mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, bu abidələr bütün ölkə əhalisinin və başqa ölkələrdən gələn qonaqların ziyarət etdiyi müqəddəs yerlərdir. Hörmətli xanım Mehriban Əliyevanın təşəbbüsü ilə son illərdə tariximizə və mədəniyyətimizə göstərilən qayğı Sizin milli-mənəvi dəyərlərimizə həssas münasibətinizdən xəbər verir.

Sizin şamaxılılara olan diqqətiniz səfər zamanı hər addımda hiss olunurdu. Şamaxıda yeni binalar tikilir, zəlzələdən zərər çəkmiş minlərlə ev təzələnir, kəndlərə, qəsəbələrə yeni yollar çəkilir, ucqar kəndlər belə qazla təmin olunur, heç vaxt suyu olmayan kəndlərə su çəkilir, əhalimizə regionda ilk dəfə Şamaxıya hədiyyə etdiyiniz müasir avtobuslar xidmət göstərir.

Eyni zamanda, çox sevinirik ki, hər bir göstərişiniz, tapşırıqlarınız, regionlara təyin etdiyiniz rəhbərlər qarşısında qoyduğunuz vəzifə və öhdəliklər gənc kadrlar tərəfindən layiqincə həyata keçirilir. Onların hər bir addımında Sizin diqqət və qayğınızı hiss edir, istənilən sahəyə nəzər saldıqda aparılan islahatların nəticələrini görürük.

Çox təəssüf hissi ilə qeyd edirik ki, son zamanlarda ölkəmizdə, o cümlədən regionlarda aparılan inkişaf prosesinə kölgə salmağa çalışanlar var. Bu, ölkəmizi, vətənimizi sevməyən, süni narazılıq yaratmaq istəyən şər qüvvələrin əməlləridir və onlar bu istəklərinə çatmayacaqlar. Əmin ola bilərsiniz ki, bütün Azərbaycan xalqı, o cümlədən şamaxılılar Sizin hər bir qərarınıza güvənir və apardığınız siyasəti dəstəkləyirlər.

Əziz Prezidentimiz və hörmətli Mehriban xanım, Allahdan Sizə möhkəm cansağlığı, dövlətimizin və xalqımızın inkişafı naminə gördüyünüz şərəfli işlərinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Böyük hörmət və sevgi ilə,*

***Şamaxı rayonunun ağsaqqalları***

# *Operativ Qərargah:* "Azərbaycanda xüsusi karantin rejiminin müddəti iyunun 15-dək uzadılıb"

Ötən müddət ərzində yeni növ koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində geniş yayılmasının qarşısının alınması istiqamətində effektiv tədbirlər həyata keçirilmiş və infeksiyanın yayılması nəzarət altına alınmışdır.

Bununla belə dünyada pandemiya vəziyyəti hələ də davam etdiyindən və COVID-19 infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, eyni zamanda, bu xəstəliyə qarşı peyvənd tapılmadığından virusla mübarizə hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir. Hər bir şəxs sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da bu fəaliyyətə dəvət etməlidir.

Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, bununla yanaşı, sanitar-epidemioloji vəziyyət və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 15 iyun 2020-ci il saat 00:00-dək uzadılır.

Eyni zamanda 31 may 2020-ci il saat 00:00-dan xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin bir qisminin aradan qaldırılmasına qərar verilmişdir:

- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda dövlət qurumlarında işçilərin say həddinin məhdudlaşdırılması ləğv olunur;
- ölkə ərazisində iri ticarət mərkəzlərinin və "Mall"arın fəaliyyəti bərpa olunur (nəzdindəki uşaq və digər əyləncə mərkəzləri, kinoteatrlar, ictimai iaşə məkanlarının fəaliyyəti istisna olmaqla);
- açıq havada keçirilən idman yarışlarının tamaşaçıların iştirakı olmadan təşkilinə icazə verilir;
- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 22:00-dək həyata keçirilir (ölkə üzrə bütün ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə və 10 nəfərdən artıq toplaşmaqla kütləvi şənliklər, məclislərin təşkili istisna olmaqla);

Xatırladaq ki, fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Qaydaların pozulması qanunvericiliklə nəzərdə tutulmuş inzibati və cinayət məsuliyyəti yaradır.

Bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə riayət etməyə çağırırıq. Sanitar-epidemioloji vəziyyətə uyğun olaraq müəyyən edilmiş yerlərdə qoruyucu vasitələrdən istifadə və sosial məsafənin gözlənilməsi mütləqdir.

# Paşinyanın güc strukturları ilə qarşıdurması böyüyür

## Ermənistan tənəzzül və siyasi xaosa sürüklənir

**Son dövrlərdə Ermənistanda baş nazir Nikol Paşinyanla güc strukturları, əsas etibarilə də Milli Təhlükəsizlik Xidməti arasında ciddi ziddiyyətlər müşahidə olunur. Bu arada yayılan məlumatlara əsasən, Ermənistanın təhlükəsizlik orqanlarında ciddi dəyişikliklər gözlənilir.**

Belə ki, Ermənistan İstintaq Komitəsinin sədri Hayk Qriqoryan və Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) direktoru Eduard Martirosyan istefa verməyə hazırlaşırlar. Bu xüsusda Ermənistanın "Jamanak" nəşri də yazır ki, ölkənin hüquq mühafizə sistemində kadr dəyişiklikləri gözlənilir.

Nəşr qeyd edir ki, yaxın günlərdə, həqiqətən də, Ermənistan İstintaq Komitəsinin sədri Hayk Qriqoryan və əslində Ermənistanın yeni hakimiyyəti tərəfindən həyata keçirilən antikorrupsiya siyasətinin təxribata məruz qoyduğu bir neçə "məşhur müstəntiq" tutduğu vəzifəsindən azad olunacaq. Bundan başqa, xüsusi olaraq vurğulanır ki, Ermənistan Milli Təhlükəsizlik Xidməti ilə də Paşinyanın ciddi problemləri var. Bu qurumun keçmiş direktoru Artur Vanetsyanla yanaşı, indiki rəhbərlik də Paşinyanla çətinliklər yaşayır. Xüsusən də Ermənistan Milli Təhlükəsizlik Xidməti direktorunun müavini vəzifəsinə Argişti Kərəmyanın təyinatından sonra burada qiyam başlayıb. Məlumata görə, təyinatdan narazı olan bir sıra şəxslər təşkilatdan istefa verdiklərini açıqlayıblar.

İstefa ərizəsi yazanlar arasında Milli Təhlükəsizlik Xidmətinin İstintaq şöbəsinin rəisi və onun müavini də vardır. Milli Təhlükəsizlik Xidmətinin direktoru Eduard Martirosyanın da istefa ərizəsi yazanlar sırasında olduğu vurğulanıb. Qeyd edək ki, Argişti Kərəmyan Ermənistan kəşfiyyatına Dövlət Nəzarət Komitəsindən gətirilib.

"Qraparak" qəzeti yazır ki, narazılığa daha bir səbəb Milli Təhlükəsizlik Xidməti əməkdaşlarının maaşlarından koronavirusla mübarizə fonduna məcburi pul tutulmasıdır: "Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları bizə bildirib ki, mayor rütbəsindən aşağı olan əməkdaşlar fondun hesabına 5 min dram (10,4 ABŞ dolları), yüksək rütbəli zabitlər isə 10 min dram (20,80 ABŞ dolları) köçürməyə məcbur edilirlər". Məlumata görə, Təhlükəsizlik Xidmətinin əməkdaşları keçmiş məmurların törətdikləri cinayətləri araşdırmaqla məşğul olduqlarını və bu məcburiyyətdən narazı qaldıqlarını bildiriblər.

Hesab edilir ki, Milli Təhlükəsizlik Xidməti ilə problemlər Paşinyan iqtidarına qarşı ciddi zərbələrlə müşayiət edilə bilər. Erməni ekspert Stepan Danielyan bu xüsusda bildirir: "Paşinyan güc strukturları üçün "persona non grata" olur, yəni istənilməyən şəxs və onunla birlikdə iş görənlər gələcəkdə "koloborasionistlər" - əməkdaşlıq edənlər hesab ediləcək".

O bildirib ki, bu tendensiya çoxdan hiss olunurdu, lakin indi aydın təzahürlər alır: "Polis və MTX mühafizəkar strukturdur, onların daxili davranış qaydaları və ənənələri vardır. Bu, yaxşı və ya pisdir, hazırkı anda vacib deyil, bu belədir. Silahlı Qüvvələrə gəlincə, Nikol orada da xarici elementdir. Nikol bunu hiss edərək həmin strukturları nüfuzdan salmağa çalışır. Lakin həm Paşinyan, həm də güc strukturlarını bir-birinin varlığına uyğunlaşmağa və alışmağa məcbur edən bir həqiqət var. Yəni bu strukturlarda Paşinyanla danışıqlar aparanlar olmalıdır. İndi vəziyyət dəyişir və əgər bu strukturların rəhbərləri "kənardan" təyin olunursa, o zaman Nikol "danışıqlar aparanlarsız" qalır. Bundan nə alınacağı maraqlıdır".

Amma hakimiyyətin problemi təkcə Milli Təhlükəsizlik Xidməti ilə bağlı deyil. Ordu ilə də artıq problemlər özünü göstərir. Ermənistan müdafiə nazirinin keçmiş müavini, Ermənistan Respublikaçılar Partiyasının üzvü Artak Zakaryan bu xüsusda bildirir: "Hakimiyyət dəyişikliyinin ilkin mərhələsində orduya qarşı başlamış isterik antitəbliğatla "millət-ordu" ideyası cəmiyyətin inkişafının kollektiv və sosial modeli olaraq unuduldu. Bu gün bunun əvəzinə nəyə sahibik? Yalnız bir şeyə, daimi yerləşmə yerlərində nisbətən baha qiymətlə daha gözəl qidalanan bölüklərə. Bu yaxşıdır? Əlbəttə, yaxşıdır. Kifayətdir? Əlbəttə, yox. Hərbi mütəxəssislər deyəcəklər ki, müdafiə və təhlükəsizlik məsələlərində bu, cüzi, hətta əhəmiyyətsiz mövzudur. Məgər hazırkı siyasi hakimiyyət milli təhlükəsizliyin artırılmasının yeni strateji və taktiki ideyalarına sahibdir? Təəssüf ki, sahib deyil, boşluqdur. Paşinyanın ordudan xəbəri yoxdur və bu səbəbdən də onunla generallar arasında qarşıdurma yaşanır".

Hesab edilir ki, güc strukturları ilə yaşanan qarşıdurma Paşinyan iqtidarının problemlərini daha da artıracaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Müddətli həqiqi hərbi xidmətə növbəti çağırış başa çatıb

Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən keçirilən həqiqi hərbi xidmətə növbəti çağırış başa çatıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən (SHXÇDX) AZƏRTAC-a bildiriblər ki, Xidmət tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin çağırışçılarla komplektləşdirilməsi may ayı ərzində müvəffəqiyyətlə yekunlaşdırılıb.

Məlum olduğu kimi, koronavirus infeksiyasının (COVID-19) Azərbaycan Respublikasının ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması üçün xüsusi karantin rejimi tətbiq edilib və ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə həyata keçirilən təxirəsalınmaz tədbirlər çərçivəsində müddətli həqiqi hərbi xidmətə çağırılan gənclərin sağlamlığı ilə bağlı mümkün risklərə yol verilməməsi məqsədilə 2020-ci ilin aprel çağırışının müddəti mayın 31-dək uzadılıb.

Xatırladaq ki, 2020-ci il mayın 1-dən etibarən çağırışçıların müəyyən edilmiş qrafik əsasında xidmət yerlərinə göndərilməsinə başlanılıb.

Prezident İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq 2002-ci ildə doğulmuş və 2020-ci il aprelin 30-dək 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2020-ci il mayın 31-dək müddətli həqiqi hərbi xidmətə yola salınıblar.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasında 2020-ci ilin may ayında müddətli həqiqi hərbi xidmətə göndərilən çağırışçılar Silahlı Qüvvələr üzrə xidmət yerlərinə təyinatla bağlı SHXÇDX tərəfindən aprelin 22-də SMS vasitəsilə məlumatlandırılıblar.

# *Azərbaycanın Müdafiə Nazirliyi:* Silah gücü düşmənlə danışılacaq yeganə dildir

Azərbaycan Ordusu işğal olunmuş əraziləri azad etmək üçün güc tətbiqi hüququndan mütləq istifadə edəcək. Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər.

Qeyd edilib ki, görüləcək tədbirlər 2015-ci, 2016-cı və 2018-ci illərdəki ilə müqayisədə daha sarsıdıcı və dağıdıcı olacaq. Düşmən böyük itkilər verəcək və bu da öz növbəsində, onun tamamilə məğlubiyyətinə gətirib çıxaracaq.

"Düşmənlə danışmağın yeganə dili silah gücüdür və biz bundan istifadə edərək Ermənistanın işğalçı qüvvələrini ərazilərimizin hüdudlarını tərk etməyə məcbur edəcəyik. Azərbaycan əsgəri silahının gücü ilə buna mütləq nail olacaqdır", - deyə nazirliyin açıqlamasında bildirilib.

# Kəşfiyyat quyusu yüksək hasilatla istismara daxil olub

## Quyunun qazılmasında ilk dəfə ən son texnologiyalardan istifadə edilib

**"Bulla-dəniz" sahəsində 91 nömrəli kəşfiyyat quyusunun qazması uğurla başa çatıb. 12 nömrəli stasionar özüldən qazılmış quyu bu günlərdə yüksək qaz və qaz-kondensat məhsulu ilə istismara daxil olub. Sutkalıq 420 min kubmetr qaz və 163 ton kondensat bir quyu üçün çox yüksək nəticə kimi qiymətləndirilir.**



Mütəxəssislər bu hadisəyə böyük dəyər verirlər. Belə ki, sözügedən quyu "Bulla-dəniz" sahəsində 12 nömrəli dəniz stasionar özülündən strukturun şimal-şərq qanadında I tektonik blokun geoloji quruluşunu, Məhsuldar Qatın VIII horizontunun litofasial xüsusiyyətlərini, neft-qazlılığını müəyyənləşdirmək və qiymətləndirmək üçün layihələndirilmişdi. Bu səbəbdən də kəşfiyyat quyusunda əldə edilmiş nəticə Kompleks Qazma İşləri Tresti kollektivinin qələbəsi olmaqla yanaşı, həm də ölkənin neft-qaz sənayesinin uğuru kimi qiymətləndirilir.

Qazma işləri mürəkkəb şəraitdə həyata keçirilib. Çünki mütəxəssislər "Bulla-dəniz"in Bakı arxipelaqında kəşf olunmuş yataqlar arasında karbohidrogen zənginliyi və gələcək axtarış-kəşfiyyat işlərinin perspektivliyi baxımından mühüm əhəmiyyət kəsb edən çox mürəkkəb geoloji-tektonik quruluşa və hidrodinamiki şəraitə malik olduğunu söyləyirlər. Onların fikrincə, karbohidrogen ehtiyatlarının toplandığı məhsuldar qat çöküntülərinin yer təkinin çox dərinliklərində yerləşməsi, anomal yüksək lay və məsamə təzyiqlərinin mövcudluğu, qazma prosesinin aparılmasında mühüm rol oynayan qazma məhlulunun ekvivalent sıxlıq pəncərəsinin dar olması və bir sıra digər səbəblər qazma işlərinin çətin şəraitdə aparılmasına gətirib çıxarır.

"Bulla-dəniz" yatağında qazma işlərinin asanlaşdırılması və keyfiyyətlə başa çatdırılması üçün ABŞ və Çin Xalq Respublikasından ən müasir texniki-texnoloji tələblərə cavab verən, dünyada qazma sahəsində son nailiyyətlərdən olan qurğu və avadanlıqlar alınmışdır. 91 nömrəli kəşfiyyat quyusunda qazma işləri də məhz "Top Drive" mexanizmi ilə təchiz olunmuş, böyük yükqaldırma qabiliyyətinə malik ZJ 70 DBS qazma qurğusu ilə həyata keçirilmişdir. Həmçinin bu quyuda ən müasir qazma alətinin tutulma ehtimalı minimum olan karbohidrogen əsaslı qazma məhlulundan, qazma vaxtı quyu lüləsinin əyriliyinə və stratiqrafik kəsilişə nəzarət edən LWD/MWD telemetrik ölçü cihazlarından, litoloji kəsilişə uyğun yüksək texniki göstəricilərə malik və beynəlxalq standartlara cavab verən PDC tipli baltalarla yığılmış QKAH-dan, qazmaya geoloji-texnoloji nəzarəti həyata keçirən DNV serifikatlı Shenkay firmasının istehsalı olan SK-CMS geoloji texnoloji nəzarət stansiyasından və FİD xromotoqrafdan istifadə olunmuşdur. Dünyanın geoloji cəhətdən nadir hallarda rast gəlinən çox mürəkkəb yataqlarında qazma məhlulunun ekvivalent sıxlıq pəncərəsinin dar olması şəraitində istifadə edilən "MPD" qazma vaxtı təzyiqlərin idarə edilməsi sistemi Azərbaycan qazmaçıları tərəfindən milli sektorda ilk dəfə olaraq məhz 91 nömrəli kəşfiyyat quyusunda tətbiq edilmişdir. MPD texnologiyasının istifadəsi həmin quyuda nəinki baş verə biləcək mürəkkəbləşmələrdən sığortalanmağa, həmçinin qazma işlərində yüksək kommersiya sürətinə və maliyyə xərclərinin azaldılmasına imkan vermişdir. Nəticədə bu il mayın 13-də istismar kəməri 574 atmosfer təzyiqdə kipliyə yoxlanılmış və quyuda qazma müvəffəqiyyətlə başa çatmışdır. Böyük perspektivi olan quyuda sınaq mənimsəmə işləri təsdiqləniş tamamlama planına uyğun davam etdirilmişdir. Mayın 26-da isə quyu istismara daxil olmuşdur.

Sözügedən resurslardan düzgün istifadə olunması, qurğuda çalışan qazma briqadası üzvlərinin peşəkarlığı, trestin mühəndis-texniki heyətinin qazma prosesinə ciddi nəzarət etməsi və ekstremal şəraitdə vaxtında dəqiq qərarların verilməsi nəticəsində 6703 metr dərinliyə kimi qazılmış 91 nömrəli quyuda belə bir nailiyyətə imza atılmışdır. Quyunun qazma xərclərinə və müddətinə ciddi şəkildə qənaət edilmiş, növbəti intervalların qazılması prosesində gözlənilən bir sıra risklər aradan qaldırılmışdır.

Kəşfiyyat quyusu kateqoriyasına uyğun olaraq, qazılmış quyunun başlıca vəzifələrindən biri də qazma zamanı bir sıra geoloji-geofiziki tədqiqatların aparılması ilə yatağın geoloji-litoloji quruluşunun dəqiqləşdirilməsi idi. Bu istiqamətdə də layihədə nəzərdə tutulmuş geoloji-geofiziki tədqiqat işlərinin çox mürəkkəb geoloji şəraitdə dəqiqliklə və uğurla həyata keçirilməsinə nail olunmuşdur. Belə ki, təsdiqlənmiş plana uyğun olaraq, Məhsuldar Qatın VII horizontundan "Azlab" MMC-nin mühəndis - texniki xidməti ilə birlikdə 6075-6084 metr intervalında 8,5 metr uzunluqda və 6165-6174 metr intervalında 8,2 metr uzunluqda kern nümunələri qaldırılmışdır. Hazırda həmin süxur nümunələrinin (kern) "Azlab" tərəfindən laboratoriya analizləri aparılmaqdadır. Bundan əlavə, dünya şöhrətli "Schlumberger" şirkəti tərəfindən açıq quyu lüləsində lay təzyiqinin ölçülməsi, Akustik karotaj, Neytron məsaməlilik və Nüvə-Maqnit karotajı işlərinin uğurla həyata keçirilməsinə nəzarət edilmişdir. Əldə olunmuş geoloji-geofiziki məlumatlar kəsilişi əks etdirən layların təzyiqinin öyrənilməsi, kollektorluq və petrofiziki xüsusiyyətlərinin, su-neft, qaz-neft, qaz-su kontaktlarının dəqiqləşdirilməsində mühüm rol oynayacaq. 91 nömrəli quyudan əldə olunan məlumatlar həmçinin yatağın tammiqyaslı işlənməsi proqramının həyata keçirilməsi, I tektonik blokda layların işlənməsi, modelləşdirilməsi və VIII horizont, o cümlədən kəsilişdə üstdə yatan məhsuldar layların cari karbohidrogen doyumluluğunun dəqiqləşdirilməsi, növbəti quyuların qazılmasının əsaslandırılması və optimal quyu quruluşlarının seçilməsində, quyu lüləsinin sabitliyinin təmin olunmasında əvəzsiz mənbə kimi istifadə ediləcək.

Qeyd edək ki, milli neft sənayemizin parlaq səhifələrindən olan "Ümid" yatağını kəşf edən quyunu da məhz SOCAR-ın Kompleks Qazma İşləri Trestinin kollektivi qazmışdır. Bütövlükdə isə ötən müddətdə qazmaçılar "Qoşadaş", "Ələt-dəniz", "Ağburun", "Qum adası", "Cahandar", "Türkan" və bir çox digər yataqlarda yüksək geoloji-texnoloji nəticələrə imza atmışlar.

Peşəkar qazmaçılar bütün sahələrdə əməyin təhlükəsizliyinə və ətraf mühitin mühafizəsinə ciddi əməl edirlər. Yeraltı zənginliyə yolaçanlar ölkəmizin dəniz və quru sahələrində axtarış-kəşfiyyat və istismar quyularının uğurla qazılması üçün bütün imkanlarını səfərbər ediblər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# ABŞ-da iğtişaşlar səngimir

## 25 şəhərdə komendant saatı tətbiq olundu

Ötən ayın 25-də ABŞ-ın Minneapolis şəhərində (Minnesota ştatı) 46 yaşlı afroamerikalı Corc Floydun ölümü ölkə ictimaiyyətini hiddətləndirmişdir.




Həmin gün ağdərili polis əməkdaşı üç həmkarının köməyi ilə Floydu yerə yıxıb təxminən 10 dəqiqə ərzində dizini onun boğazına dirəmiş, nəticədə vətəndaş ürək tutmasından ölmüşdür. Dörd polisin hamısı işdən çıxarılmışdır. Əsas günahkar ehtiyatsızlıqdan qətl törətməkdə ittiham olunaraq həbs edilmişdir, qalan üç nəfər barəsində isə təhqiqat başlamışdır.

Hüquq mühafizə orqanları əməkdaşlarının zorakılığı ölkədə kütləvi etiraz aksiyalarına gətirib çıxarmışdır. Nümayişçilər əmindirlər ki, qaradərili vətəndaşın qətli irqi ayrı-seçkilikdən qaynaqlanır. Onlar federal avtomobil yollarını bağlayıb Floydun ölümünə görə ədalət və qisas tələb etmişlər.

Etirazlar iğtişaşlar və polislə toqquşmalarla müşayiət olunmuşdur. Aksiyaların iştirakçıları avtomobilləri və inzibati binaları yandırmış, mağaza və ofisləri qarət etmişlər. Vaşinqtonda narazı sakinlər Ağ evin yaxınlığında toplaşıb etiraz etmişlər. Həm asayiş keşikçiləri, həm də nümayişçilər arasında zərərçəkənlərin olduğu bildirilir. "Assoşieyted Press" agentliyinin verdiyi xəbərə görə, Filadelfiyada 10-dan çox polis əməkdaşı yaralanmışdır. Detroyt şəhərində (Miçiqan ştatı)19 yaşlı gənc həlak olmuşdur. Onu avtomobildən atəş açan naməlum şəxs güllələmişdir. İndiana ştatının İndianapolis şəhərinin mərkəzində bir nəfər həlak olmuş, azı iki nəfər güllə yarası almışdır. Oklənddə (Kaliforniya ştatı) federal mühafizə xidmətinin güllə yarası almış əməkdaşı xəstəxanaya aparılmış, amma onun həyatını xilas etmək mümkün olmamışdır. Atlantada (Corciya ştatı) dörd polis əməkdaşı və bir mülki şəxs yaralanmışdır.

Vəziyyəti sabitləşdirmək üçün yerli və federal hakimiyyət orqanları bir sıra addımlar atmalı olmuşdur. 25 şəhərdə, o cümlədən Atlanta, Los-Anceles, Siətl, Çiqaqo, Filadelfiya, Pittsburq və Minneapolisdə komendant saatı tətbiq edilmişdir. Digər tərəfdən, iğtişaşların bürüdüyü şəhərlərə Milli Qvardiyanın bölmələri yeridilmişdir. Altı ştatda yerli hakimiyyət orqanları qvardiyaçıları səfərbər etmişdir. Öz növbəsində Pentaqon asayişi bərpa etmək üçün hərbi polisin bölmələrini hazırlıq vəziyyətinə gətirmişdir.

Minnesotanın qubernatoru Tim Uolz II Dünya müharibəsindən bəri ilk dəfə ştatın ərazisində Milli Qvardiyanın tam səfərbər olunduğunu elan etmişdir. Yerli Milli Qvardiyanın komandiri, general-mayor Con Censenin dediyinə görə, keçən ayın 29-da 700-dən çox qvardiyaçının kütləvi etiraz aksiyalarının yatırılması işinə cəlb edilməsi ştatın tarixində hüquq mühafizə orqanlarının keçirdiyi ən böyük əməliyyat idi, lakin bu, kifayət etmədi. CNN telekanalı xəbər verir ki, asayişin bərpa olunmasında iştirak edən qvardiyaçıların sayı 2500 nəfərə çata bilər.

Qubernator Uolzun dediyinə görə, Minneapolisdə yaranmış vəziyyətin Floydun öldürülməsinə reaksiya ilə artıq heç bir əlaqəsi yoxdur. O vurğulamışdır ki, "söhbət vətəndaş cəmiyyətinə hücumdan, qorxu yaratmaqdan və böyük şəhərlərimizin dağıdılmasından gedir". Qubernator iğtişaşlar zamanı rəngarəng icmaların yaratdığı müəssisə və infrastrukturun mənasız talanlara məruz qaldığını qeyd etmişdir. O əlavə etmişdir ki, nümayişçilər ictimai kitabxanaları və digər ictimai infrastrukturu dağıtmış, yüz minlərlə məktəblinin yeməklə təmin edilməsi işini pozmuşlar.

Texas qubernatoru Qreq Ebbott etirazlar zamanı vandalizmin qarşısını almaq üçün ştatın şəhərlərinə 1500 qvardiyaçı göndərmişdir. Bundan əvvəl Hyustonda magistral yolları bağlayan 200 nəfər həbs olunmuşdur.

ABŞ-ın Baş prokuroru Uilyam Barr iğtişaşların səbəbkarlarının hamısını məsuliyyətə cəlb etməyə söz vermişdir. O qeyd etmişdir ki, "kənardan gəlmiş radikallar və təşviqatçılar" Amerika şəhərlərində etiraz aksiyalarına nəzarəti ələ keçirmişdilər: "Kənar radikallar və təşviqatçı qruplar vəziyyətdən sui-istifadə edərək zorakılıqla öz maraqlarını reallaşdırırdılar". Məlumata görə, etiraz aksiyalarının ilk beş günü ərzində 17 şəhərdə təxminən 1400 nəfər həbs edilmişdir.

ABŞ Prezidenti Donald Tramp, da ölkədə cərəyan edən hadisələrə münasibət bildirmişdir. O qeyd etmişdir ki, lazım gələrsə, Minnesota ştatına qoşun göndərər. Tramp həmçinin ştatın hakimiyyət orqanlarını etirazçılarla daha sərt davranmağa çağırmışdır. Prezident digər "liberal qubernator və mer"lərə də eyni məzmunlu müraciət etmişdir, çünki əks halda, "federal hökumət vəziyyətə müdaxilə edib gərəkli olanı edər", o cümlədən hərbçilərin qeyri-məhdud hakimiyyətindən və çoxsaylı həbslərdən istifadə edər.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbinin əməkdaşlarının COVID-19 analiz nümunələrinin nəticələri neqativ çıxıb

**Bakı Ali Neft Məktəbinin (BANM) əməkdaşları arasında koronavirus (COVID-19) infeksiyası üçün götürülən analiz nümunələrinin nəticələri neqativ çıxıb.**

Bakı Ali Neft Məktəbinin Mətbuat xidmətindən verilən məlumata görə, ali məktəbin əməkdaşlarında virusa yoluxma halı qeydə alınmayıb.

Müəssisə daxilində virusla mübarizə tədbirləri çərçivəsində sanitar epidemioloji normalara və daxili normativ sənədlərlə müəyyən edilmiş qaydalara qeydşərtsiz olaraq tam əməl olunur. Baş verə biləcək risklərin, eləcə də infeksiyanın yayılmasının qarşısını almaq üçün dezinfeksyaedici məhlullardan və tibbi maskalardan istifadə, ara məsafəsinin saxlanması (ən azı 2 metr) da daxil olmaqla digər müəyyən olunmuş tədbirlərə nəzarət edilir.

# FHN sosial dəstək tədbirlərini davam etdirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına əsasən, Fövqəladə Hallar Nazirliyi (FHN ) Ramazan bayramı günlərində də sosial dəstək tədbirlərini davam etdirir. FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin verdiyi siyahılar əsasında Bakı şəhərinin Xəzər, Sabunçu, Suraxanı, Qaradağ, Xətai və Binəqədi rayonlarında yaşayan tənha şəxslərə və aztəminatlı ailələrə, o cümlədən şəhid ailələrinə ərzaq yardımı və tibbi maskalar çatdırılır.

Dörd min ailə üçün nəzərdə tutulan yardımları vətəndaşlara çatdıran FHN əməkdaşları ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısının alınması məqsədilə onlarla maarifləndirici söhbətlər də aparır, sosial məsafənin qorunması, tibbi maskalardan istifadə və digər sanitar-gigiyenik tələblərə əməl edilməsinin vacibliyini bildirirlər.


## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Sənaye, salon və split tipli kondisionerlərə texniki qulluq, ehtiyat hissələrinin dəyişdirilməsi və təmir xidmətlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**650 (altı yüz əlli ) manat (ƏDV daxil)**
iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **23 iyun 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **02 iyul 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **03 iyul 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.

***Tender komissiyası***



## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsinin 1-ci mədən küçəsində 1200 şagird yerlik yeni məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması üzrə

### *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsinin 1-ci mədən küçəsində 1200 şagird yerlik yeni məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasına dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 01 iyul 2020-ci il tarixdə saat 11:00-da Dövlət satınalmalarının vahid internet Portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak üçün Portal vasitəsilə elektron elanla tanış ola və 50 (əlli) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

*Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, "Fondun vəsaitlərinin dövriyyəsinə nəzarət proqramı"na texniki xidmətin göstərilməsi üzrə satınalma prosedurunu həyata keçirmək məqsədilə kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə uyğun hazırlanmış əsas şərtlər toplusunu Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalı və 03 iyun 2020-ci il saat 12:00-dək Sahibkarlığın İnkişafı Fonduna təqdim edilməlidir.

**Əlaqələndirici şəxs: Anar Əsgərov**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 310-23-02 Fax: (012) 432-37-17 e-mail: info@edf.gov.az**

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Təhsil müəssisələrinin təmir-tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması" üzrə 22 may 2020-ci il tarixdə keçirilmiş elektron açıq tenderdə LOT-1 üzrə "SOSİAL-İNKİŞAF LAYİHƏ" MMC, LOT-2 üzrə "BİMD" MMC, LOT-3 və LOT-4 üzrə "Azkommunlayihə" KLİ, LOT-5 üzrə "Ay Konsaltinq Ltd" MMC qalib elan edilmişdir.

Qalib təşkilatlarla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Hövsan Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi Zığ şossesi-Hava Limanı 12-ci km. "22" ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin 1 saylı binası üzrə 249 mənzilin satışı 30 iyun 2020-ci il tarixində saat 11:00-da başlayacaq və 7 iyul 2020-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 3 iyul 2020-ci il tarixində saat 11:00-da başlayacaq və 7 iyul 2020-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 249 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bina Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 28.02.2018-ci il tarixli 24956 nömrəli müsbət rəyi mövcuddur.

**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən mənzillərin mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 7076,02 | 7 | 18 | 1 | 39 | 37.8 - 39.2 | 47.7 - 49.96 | "HN Construction" MMC (binanın 1-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14<br>"Perlit" MMC (binanın 4-cü və 5-ci seksiyaları) / Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinin yataqxanası, ev 6 | 29 dekabr 2019-cu il |
| | | | | 2 | 142 | 49.9 - 63.1 | 61.54 - 78.56 | | |
| | | | | 3 | 68 | 67.2 - 73.3 | 84.39 - 88.15 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

1 otaqlı mənzillərin qiyməti – **32 130** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **42 415** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **57 120** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **138-143 manat** | **182-230 manat** | **245-268 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 32 130 | 3 213 | **28 917** |
| 2 | 42 415 | 4 241 | **38 174** |
| 3 | 57 120 | 5 712 | **51 408** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Hövsan Yaşayış Kompleksinin **www.hovsan.mida.gov.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı, Sumqayıt və Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

## E L A N

### "M&M Milizer& Münch Baku LTD" ilə əlaqəsi olan bütün borclu və kreditorların nəzərinə

"M&M Milizer& Münch Baku LTD" MMC Bakı Kommersiya Məhkəməsinin 12 mart 2020-ci il tarixli e-2-2(113)-517/2020 saylı Qətnaməsi ilə müflis elan edilmişdir.

Göstərilən halla əlaqədar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.

***"M&M Milizer& Münch Baku LTD" MMC***

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 02-03.06.2020 və 05.06.2020-ci il tarixlərdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## "Azərsu" ASC daxili vəsaiti hesabına açıq elektron satınalma vasitəsilə nasosların təmiri işlərinin satın alınması üzrə *açıq tender elan edir*

"Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə nasosların təmiri işlərinin satın alınması

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar işlərin yerinə yetirilməsi və həcmi üzrə icra edilmiş ən azı 1(bir) müqavilə) və ən aşağı qiymət təklifi.**

Malgöndərənlər (podratçılar) iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 500 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 iyun 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **06 iyul 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **07 iyul 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 24 aprel 2020-ci il tarixdə "Bakı şəhərində Kiçik və Orta Biznesin İnkişafı Mərkəzinin fəaliyyətə başlaması üçün təşkilati işlərin görülməsi, mərkəzdə KOB-lara təlim və seminarların keçirilməsi, habelə məsləhət və dəstək xidmətlərinin satın alınması" ilə bağlı verilmiş açıq tender müsabiqəsində iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədlərin qəbulu 05 iyun 2020-ci il saat 16:00-dək, tender təklifi ilə bank təminatı sənədlərinin qəbulu isə 16 iyun 2020-ci il saat 16:00-dək uzadılmışdır. İddiaçıların təklifləri 17 iyun 2020-ci il saat 16:00-da açılacaqdır.

***Tender komissiyası***

## E L A N

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi "Lider Tv və Radio-Azərbaycan" MMC-nin müflis elan edilməsi və əmlak inzibatçısının təyin edilməsi barədə "Lider Tv və Radio-Azərbaycan" MMC-yə qarşı iddia qaldırıb.

Ərizəyə 08.06.2020-ci il tarixdə saat 11:00-da Bakı Kommersiya Məhkəməsində baxılacaqdır.

***"Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi***

Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən 2011-ci ildə Aqif Azad oğlu Yaqubovun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Eynulla Fətullayevə anası

**GÜLŞƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin böyük prokuroru

**YUSİF SƏMƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Müdafiə Sənayesi naziri Mədət Quliyev Rüstəm Usubova bacısı

**SƏİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumi iqtisad fakültəsinin 1984-cü il buraxılışlı 932-ci qrupunun məzunları qrup yoldaşları Rasim Əliyevə əzizi

**ŞƏFƏQ ƏHƏD QIZI CƏFƏROVANIN**

Quba rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Qulu Novruzova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7480
Sifariş 1360
Qiyməti 40 qəpik